**UOT**

# HEYDƏR ƏLİYEVİN NİTQINDƏ MÜRƏKKƏB CÜMLƏLƏRDƏN İSTİFADƏ ÜSULLARI

**ZAMANOV NAĞDƏLİ TAPDIQ oğlu**
*Azərbaycan Tibb Universiteti, dosent*
*e-mail:*

***Açar sözlər:*** *Heydər Əliyev, nitq, nitq mədəniyyəti, mürəkkəb cümlə, tabesiz və tabeli mürəkkəb cümlələr.*

Mürəkkəb cümlələrin, o cümlədən tabeli mürəkkəb cümlələrin qrammatik təbiətinə məhz semantik-qrammatik mövqedən yanaşılması onun quruluş tiplərinin daha düzgün müəyyənləşdirilməsini şərtləndirir (1). Buna görə də nitqin kamilliyi, zənginliyi dedikdə natiqin böyük həcmdə aktiv söz ehtiyatına malik olması, eləcə də, morfoloji formalar və sintaktik konstruksiyalardan yerindəcə yararlanması başa düşülür (2,3). Bu istiqamətlərdə Heydər Əliyevin nitqində mürəkkəb cümlələrin hansı zaman və məkan kontekstində, auditoriyanın səviyyəsindən asılı olaraq işlədilməsi dilçilik sahəsində az tədqiq olunan məsələlərdən biridir.

Professor Adil Babayevə görə fonosintaksisin əsas problemlərindən biri də mürəkkəb cümlələr arasındakı informasiyanın qurulmasından ibarətdir.

Məlumdur ki, pauzanın böyüklüyündən, intonasiyadan asılı olaraq mürəkkəb cümlə tabeli və tabesiz ola bilər. Pauza kiçik olduqda isə budaq cümləli tabeli mürəkkəb cümlə üstünlük təşkil edir.

Komponentlərinin istər sintaktik-qrammatik, istərsə də məntiqi cəhətdən qarşılıqlı əlaqə və münasibətlərinə görə mürəkkəb cümlələri iki qrupa bölmək olar (4):

1. Tabesiz mürəkkəb cümlələr
2. Tabeli mürəkkəb cümlələr

Bərabər hüquqlu sadə cümlələrin birləşməsindən yaranan mürəkkəb cümlələrlə tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasında, əsasən, aşağıdakı məna əlaqələri olur:

1. Zaman əlaqəsi
2. Ardıcıllıq əlaqəsi
3. Səbəb-nəticə əlaqəsi
4. Aydınlaşdırma əlaqəsi
5. Qarşılaşdırma əlaqəsi
6. Bölüşdürmə əlaqəsi

Müasir Azərbaycan dilində, eləcə də türk dilli xalqların dilçılərinin bu gün mühüm əhəmiyyət verdikləri bir məsələ də dilçilikdə mürəkkəb cümlədir: "Sintaksislə məşğul olan alimlər belə nəticəyə gəlmişlər ki, tabeli mürəkkəb konstruksiyanın hissələri məna və intonasiya bitkinliyinə görə müstəqil işlənən cümlələrdən təbii olaraq fərqlənsə də, cümləyə xas əsas əlamətləri mühafizə edib saxlayır "(5).

Azərbaycan dilinin zəngin ifadəlilik imkanlarını özündə əks etdirən, geniş, əhatəli məzmuna və quruluş xüsusiyyətlərinə malik mürəkkəb cümlələr bədii fikrin estetik tələblərə müvafiq ifadəsini şərtləndirən amillərdəndir (6).

Məntiqi ardıcıllığın bütün nitqlərinə hakim kəsildiyi Heydər Əliyevin dilində ardıcıllıq əlaqəli tabesiz bağlayıcılı mürəkkəb cümlələr heç də az işlənmir: "Mən sizi səmimi qəlbdən salamlayıram və yazıçılar qurultayının işinin müvəffəqiyyətlə getməsi münasibətilə sizi ürəkdən təbrik edirəm" (7.XIIIc.s.97).

Başqa bir çıxışında intonasiya ilə müşahidə olunan tabesiz mürəkkəb cümlə işlədilir: “Mən inşaat işləri aparılan yerlərə gedirdim, çox vaxt keyfiyyətin aşağı olması ilə əlaqədar ən ciddi tədbirlər görürüdüm” (7.XIIIc.s.204).

Tabesiz mürəkkəb cümlənin komponentləri bir-biri ilə semantik(məna əlaqələri), qrammatik (bağlayıcılar, işarə əvəzlikləri, mənsubiyyət şkilçiləri və s.) və fonetik (vahid intonasiya və s.) vasitələrlə əlaqələnir.

Heydər Əliyevin nitqində işlədilən tabesiz mürəkkəb cümlə konstruksiyaları göstərilən qanunauyğunluqlar əsasında formalaşsa da bir çox özünəməxsusluqlarla zəngindir. Bunların hər birinin xüsusiyyətlərinə nəzər salaq:

- Zaman əlaqəli tabesiz mürəkkəb cümlə. Bu tip cümlələr böyük natiqin məişət üslublu söhbətləri üçün daha xarakterikdir: “Ailə öz övladını əsgərliyə göndərəndə məclis qururdu, onu təntənə ilə yola salırdı, ona xeyir-dua, sədaqətlə xidmət etmək nəsihəti verirdi” (7.VIIIc.s.390).
- Zaman əlaqəli tabesiz mürəkkəb cümlələr.

Bu tip mürəkkəb cümlələrdə hadisələr eyni zamanda baş verir: “İndi bu məsələ bütün dünyanın işgüzar dairələrinin diqqət mərkəzindədir və Xəzər dənizinin energetika ehtiyyatları dünyanın bütün ölkələrinin diqqətini cəlb edir” (7.XIIc.s.255).

“İndi” sadə zaman zərfi ilə cümlənin başlaması indiki zamanda cərəyan edən ictimai-siyasi hadisələri auditriyalara çatdırmaqda mühümdür.

Zaman əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələrində eyni zamanda baş verən hadisələr sadalanır.

Heydər Əliyevin zaman əlaqəli tabesiz mürəkkəb cümlələri iştirak bağlayıcıları ən çox “həm”, “həm də”-nin köməyi ilə həyata keçirilir: “Bu münaqişələr nəinki müstəqil dövlətlərin inkişafını ləngidir, hələ möhkəmlənməmiş demokratik cəmiyyətlərin varlığı üçün birbaşa təhlükə doğurur, həm də bütün dünyada sülh və təhlükəsizlik üçün qorxu yaradır”.

Yuxarıdakı tabesiz mürəkkəb cümlə həm bağlayıcısız, həm də bağlayıcılı özünəməxsus çalarlar qazanır.

Tabesiz mürəkkəb cümlədə sadə cümlələr həm intonasiya, həm də “və” bağlayıcısı ilə birləşir: “Yusif Məmmədəliyev heç vaxt unudulmayacaq, zaman keçdikcə onun Azərbaycan xalqının tarixindəki yeri daha da açıq görünəcəkdir və insanlar, gələcək nəsillər Azərbaycanın belə şəxsiyyətləri ilə fəxr edəcəkdir” (7.VIIc.s.298).

“Və” bağlayıcısı ilə yaranan tabesiz mürəkkəb cümlələr Heydər Əliyevin nitqində müxtəlif çeşidli auditoriyalarda işlədilir: “Mən sizi bir daha salamlayıram və Azərbaycan ilə öz ölkələriniz arasındakı əlaqələrin inkişaf etməsi üçün sizdən daha böyük səylər göstərməyinizi xahiş edirəm” (7.IXc.s.285).

Tabesiz mürəkkəb cümlələrin bir qismidə onu əmələ gətirən sadə cümlələr yalnız intonasiya ilə bir-birinə bağlanır. Burada ardıcıllıq məna növündən istifadə olunmuşdur.

Heydər Əliyevin nitqində tabesiz mürəkkəb cümlələrdə ardıcıllıq və zaman əlaqələrini bəzən ayırmaq çətin olur: “Mən xalqın dəvəti və iradəsi ilə o vaxt Bakıya gəldim, Azərbaycandakı bu ağır vəziyyəti aradan qaldırmaq üçün fəaliyyətə başladım” (7.IIc.s.282).

Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələrdə qətiyyət bu ardıcıllığa hopur: “Biz bütün bu təbəqələrdən olan insanların yaşayışını nəzarət altında saxlamalıyıq, onların hər birinin sosial təminatını günü-gündən yaxşılaşdırmağa çalışmalıyıq” (7.XIIIc.s.210).

Heydər Əliyevin nitqlərində mürəkkəb kompozisiyalı tabesiz mürəkkəb cümlələrə təsadüf edilir: “Biz Azərbaycan neftçilərinin əmək fəaliyyəti, qəhrəmanlığı ilə, ağlı, zəkası, iş təcrübəsi, fədakarlığı ilə həmişə fəxr etmişik və müstəqil Azərbaycanın prezidenti kimi mən də Azərbaycan neftçilərinin həm tarixi keçmişi, həm də bugünkü fədakar, qəhrəman əməyi ilə fəxr edirəm” (7.IIc.s.150). Bu nümunədə “və” birləşdirmə, eləcə də “həm”, “həm də” iştirak bağlayıcılarının köməyi ilə üç cümlə işlənmişdir. Azərbaycan neftçilərinin qiyməti sinonim cərgələrlə- “ağıl,

zəka", "fədakarlıq, qəhrəmanlıq"-auditoriyaya ünvanlanır. Bu böyük cümlə bağlayıcılarla, sinonimlərlə bəzənərək auditoriyanı növbəti nitq mərhələsinə hazırlayır.

"Naxçıvanın çox sərt iqlimi var, qışda güclü şaxta olur" (7.IIc.s.154). İntonasiya ilə ayrılan mürəkkəb cümlə tipi.

"Həm Azərbaycanın daxilində, həm ölkəmizin xaricində olan, Azərbaycandan qaçmış, indi burada təxribat aparmaq istyən qüvvələr, həm də Azərbaycanın daxilində onlarla əlbir olan qüvvələr, onların himayəsi altında olan qüvvələr bilsinlər onların hamısı xalq qarşısında cavab verəcəklər" (7.IIc.s.379).

Bu tip cümlələrdə Heydər Əliyev "yəni aydınlaşdırma bildirən bağlayıcısından müvəfəqiyyətlə istifadə edir: "Əlbəttə, hər bir faydalı fikirdən, hər bir faydalı rəy və təklifdən istifadə edəcəyik, Yəni Azərbaycanın hər bir sahibkarı özünü respublika iqtisadiyyatının bir hissəsi bilməli və ökənin iqtisadi tərəqqisi üçün səylər göstərməlidir" (7.IIc.s.313).

Zaman əlaqəli tabesiz mürəkkəb cümlələr çox vaxt iştirak bağlayıcılı olur: "45 il bundan öncə, 1949-cu ilin sonunda-noyabr ayında həm Azərbaycan neftinin tarixində, həm də tam qətiyyətlə demək olar ki, dünya neft sənayesinin tariində ilk dəfə Azərbaycan neftçiləri dənizdən yanacaq çıxarmağa başlamışlar, neft fantan vurmuşdur" (7.IIc.s.150).

Heydər Əliyev nitqində "beləliklə" yekunlaşdırıcı modal sözlə tabesiz mürəkkəb cümlənin "və" bağlayıcı ilə özünü göstərir: "Beləliklə, Azərbaycan altı ildir dövlət müstəqilliyi şəraitində yaşayır və belə bir böyük xarici təcavüz nəticəsində ölkəmiz çətin vəziyyətə düşmüşdür" (7.IXc.s.315).

"Hamınız şəxsi işlərlə məşğul ola bilirsiniz, lakin mədəniyyətimizin belə bir incisi bu günə düşmüşdür " (7.IIc.s.101).

Mürəkkəb cümlənin inkişafı mərhələlərində tabeli mürəkkəb cümlələr tabesiz mürəkkəb cümlələrə nisbətən kəmiyyətcə çoxluq təşkil etmişdir. Çünki təfəkkürün inkişaf prosesi tabesiz mürəkkəb cümlələrin semantikasında səciyyələnən cəhətlə: nəyin isə təsdiqi və ya inkarı, qarşılaşdırılması, müqayisəsi, nəticəsi ilə kifayətlənə bilməzdi; bu zaman həm də tabeli mürəkkəb cümlələrin yaranması zərurətə çevrilir ki, burada məsələnin şərti, səbəb-nəticə əlaqəsi, zamanı, məkanı göstərilərək bu irəli sürülən səciyyə ilə əlaqədar ümumiləşmiş fikir söyləməyə də imkan yaranır.(8)

Böyük natiqin nitqlərində tabeli mürəkkəb cümlənin müxtəlif növləri ardıcıl şəkildə düzülərək, fikirlərin dolğun şəkildə şüurlara çatdırılması yolunda mühüm vasitəyə çevrilir: "Amma bir halda, ***əgər*** dünyada 40 milyon azərbaycanlı yaşayır***sa***, onlar azərbaycanlı adı daşıyırlar***sa***, onlarda azərbaycanlı qəlbi, qanı var***sa***, bu, hamımızın fəxridir. Mən demirəm ki, bu 40 milyon azərbaycanlının hamısı bir yerə yığışsın, bu heç də lazım deyil. Ancaq hamısının qəlbi, fikri, gələcəyə baxışı və Azərbaycan haqqında fikirləri bir olsa əlbəttə ki, respublikamız da öz müstəqilliyini bundan sonra da möhkəmləndirər, inkişaf yolunu məharətlə keçə bilər və ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımız bundan da yaxşı həm yaşaya, həm işləyə, həm də Vətənimiz, xalqımız üçün çox işlər görə bilərlər. Ona görə də, birlik adi bir şey deyil. Bəzən bu "birlik" sözünü o qədər işlədirlər ki, o, hörmətdən düşür. Çünki elə hər bir adam deyir ki, birlik olsun. Mən Azərbaycan prezidenti kimi, xalqımızın mənə göstərdiyi etimada güvənərək respublikamıza başçılıq edən bir şəxs kimi bu gün deyirəm: Azərbaycanın özündə də bu günümüzün, gələcəyimizin zəmanəti, rəhni birlikdir və bütün dünyada da soydaşlarımızın bir olması vacibdir" (7.VIIIc.s.17).

"Əgər" şərt bağlayıcısı və -sa(4) şəkilçisi ilə bağlanan şərt budaq cümləli tabeli mürəkkəb cümlə ilə başlanan yuxarıdakı nitq parçası sonda mübtəda budaq cümləli tabeli mürəkkəb cümlənin köməyi ilə diaspor nümayəndələrini səfərbər edir. Şərt budaq cümləli tabeli mürəkkəb cümlə ilə diaspor nümayəndələri "xalqımız üçün", "vətənimiz üçün" ciddi işlər görməyə dəvət olunurlar. Azərbaycan diasporu qarşısında qoyulan "birlik" ideyası məqsəd (ona görə də), kəmiyyət (o qədər) və mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələrlə yekunlaşır.

M. Hüseynzadə fel formalarından bəhs edərkən **–sa, -sə** şəkılçiləri ilə əmələ gələn şərt şəklinin o biri şəkillərdən fərqli olaraq yalnız tabeli mürəkkəb cümlələrdə işləndiyini və bir qayda olaraq budaq cümələri baş cümləyə bağladığını göstərmişdir.

Heydər Əliyevin nitqlərinin əsasını elmi üslub təşkil edir ki, bu üslub mürəkkəb cümlələr üzərində qurulur. Böyük natiqin çıxışlarında səbəb və şərt budaq cümləli tabeli mürəkkəb cümlələr daha fəal müşahidə olunur. Bunlar Heydər Əliyevin hadisələri əsaslandırma meylindən irəli gəlir.

Klassiklərin yaradıcılığında şərt budaq cümlələrinin araşdırılması ilə Heydər Əliyevin nitqindəki mürəkkəb cümlələrin müqayisəsi müasir Azərbaycan dili ilə qədim dilimiz arasındakı varisliyin-dil tariximizin öyrənilməsi baxımından çox mühümdür. İlkin Quliyevə görə(3) XİV əsrdə yaşayıb-yaratmış Qazi Bürhanəddinin divanında şərt budaq cümləli tabeli mürəkkəb cümlələrin üç tipi ayırd olunur: 1) Sintetik şərt budaq cümləri;

*Ol dilbəri-ziba yenə bir naza düşər**sə,***
*Tən etmə, saçunda könülüm aza düşər**sə.***

2) Analitik şərt budaq cümləri; Şairin dilində işlənmiş bu tip budaq cümlələr ***əgər//gər, əgərçi, şimdi ki*** bağlayıcısı, “ki” ədatı vasitəsi ilə baş cümləyə bağlanmışdır:

*Şəha, xəttin yazar gül səfhəsində*
***Əgər** bir nöqtə şərhindən yazaram.*

Elə buradaca “əgər” bağlayıcısının ədəbi dilimizdə rolunun azalmasını qeyd edənlərin əksinə olaraq Heydər Əliyevin dilində bu nitq hissəsinin zənginliyinin şahidi oluruq.

3) Analitik-sintetik şərt budaq cümləri; Bu tip cümlələr ***əgər//gər*** bağlayıcısı və ***-sa, -sə*** şəkilçisinin və ya “isə” köməkçi sözünün birgə işlənməsi ilə formalaşmışdır:

*Gər derlər isə ki, gözüm özgəyi görəsin,*
*İnanmagil ol sözə ki, düşmən xəbəridir.*

Mübtəda budaq cümləli tabeli mürəkkəb cümlələrdə bir çox hallarda böyük natiqin nitqində budaq cümlənin xəbərində -sa,-sə şəkilçiləri olur: “Kim qəbul imtahanlarından keçə bilirsə, o da ali məktəb tələbəsi olur” (7.IIc.s.103).

“Kim isə hesab edir ki, iqtisadi islahatları bir günə, iki günə, bir aya, iki aya, üç aya həyata keçirmək, ondan istədiyimiz nəticəni əldə etmək olar” (7.IIc.s.489).

Xəbər budaq cümləsi baş cümlədə işarə əvəzliyi ilə ifadə olunan xəbəri izah edib aydınlaşdırır. Xəbər budaq cümləli tabeli mürəkkəb cümlələrin baş cümləsində xəbərin yerində, odur, budur, elədir, belədir, o idi, bu idi, elə idi, belə idi, o oldu, bu oldu, buradadır, oradadır, onun üçündür, bunun üçündür, ona görədir, buna görədir, ondan ötrüdür, bundan ötrüdür, ondan ibarətdir və s. kimi söz və ifadələr-qəlib sözlər işlənir.

Heydər Əliyevin nitqlərində aydınlaşdırmaq, izah etmək xarakterikdir: “Sevindirici hal ***odur ki,*** artıq Azərbaycanda dağıdıcı, pozucu proseslərə son qoyuılubdur”(7.XIIIc.s.202).

Bu tip cümlələrdə auditoriya böyük natiqin “odur ki” ifadəsini eşidərkən özü-özünə “nədir” sualını verir və növbəti budaq cümlənin köməyi ilə cavab alır.

“Digər böyük nəaliyyət də ***odur ki,*** artıq üç ildir hərbi əməliyyatlar yoxdur, qan tökülmür” (7.IXc.s.105).

“Dövləti hüquqi, əsl demokratik dövlət etmək üçün qanunlar, digər tədbirlər gərəkdir. ***Odur ki,*** biz bu yolla gedirik” (7.IXc.s.103).

Heydər Əliyevin nitqlərində çox vaxt şərt bağlayıcısı və -sa şəkilçisi ilə bağlanan şərt budaq cümləli tabeli mürəkkəb cümlənin ardınca xəbər budaq cümləli tabeli mürəkkəb cümlə gəlir: “Əgər ideya gerçəkliyə ***uyğun gəlmirsə,*** bu hələə demək deyil ki, ideya düzgün deyil. ***Odur ki,*** bütün dövlətlər, təşkilatlar və insanlar hərəsi öz səviyyəsində sülhün bərqərar olmasına və onun qorunub saxlanmasına çalışmalıdırlar”(7.XIIc.s.149).

Xəbər budaq cümləli tabeli mürəkkəb tabeli mürəkkəb cümlələrdə böyük natiq auditoriyanı “odur ki” ifadəsi məlumatlandırır: “Bu jurnalın ən gözəl xüsusiyyətlərindən biri də odur ki, bizim

çoxlarımızın həyatımızda olan,bəzən görmədiyimiz gözəl hadisələri gedir tapır, çıxarır, öz səhifələrində göstərir" (7.XIIIc.s.222).

"Məni sevindirən bir də ***odur ki,*** bu mükafat məhz Türkiyə Cümhuriyyətinin mükafatıdır" (7.IXc.s.280).

Xəbər budaq cüməli tabeli mürəkkəb cümlələrdə "odur ki" budaq cümləsi böyük natiqin nitqində özünə yer alır: "Odur ki, biz bunu müdafiə etməli, tətbiq etməli və daha da səmərəli şəklə salmalıyıq" (IIc.s.105). "Odur ki" ifadəsi əksər təsadüflərdə yekunlaşdırmaq məqamlarında işlədilir: "Odur ki, bu tədbirlərimiz paralel surətdə həyata keçirilməlidir" (7.IIc.s.116).

Bəzən auditoriya tərəfindən ritorik sual təkin qavranıla biləcək xəbər budaq cümləli tabeli mürəkkəb cümlələr Heydər Əliyevin nitqlərində qüvvətləndirici ədatlarla başlayır: "Ən sevindiricisi, önəmlisi odur ki, bu yaşayış evi , mənzillər, vətənimizin torpaqlarımızın müdafiəsində şəhid olmuş qəhrəman insanların ailə üzvlərinə, vətənin müdafiəsində döyüşmüş, qəhrəmanlıq göstərmiş, şikəst, əlil olmuş insanlara verilir, onlar üçün tikilmişdir" (7.XIIIc.s.203).

"Xoşbəxtlik odur ki, insan 70 yaşında vəfat edib, amma 30 il də ondan sonra yaşayır" (VIIc.s.259).

Xəbər budaq cümləli tabeli mürəkkəb cümlə bir sıra hallarda böyük natiqin ritorik suallarına verilən cavablar kimi dəyərləndirilir: "İnsanın xöşbəxtliyi nədir?"(VIIc.s.259).

Tamamlıq budaq cümləsi ya baş cümlədə əvəzliklə ifadə olunmuş tamamlığı izah edir, ya da baş cümlədə olmayan tamalığın vəzifəsini yerinə yetirir.

Heydər Əliyevin nitqlərinə izahediciliyin hakim olduğunu nəzərə alsaq yuxarıdakı tərifin birinci hissəsinə daha çox təsadüf edirik (tamamlığı, izah edir): "Məlumat üçün bildirmək istəyirəm ki, Yaponiya artıq bizim iki böyük neft müqaviləmizdə iştirak edir və Azərbaycanın neft sənayesinin inkişafına investisiya qoyur" (7.XIc.s.258).

"Güman edirəm ki" ifadəsi ilə yanaşı "ümidvaram ki" ifadəsi də auditoriyanı nikbin bir əhval-ruhiyyəyə kökləyir: "Ümidvaram ki, müharibəyə son qoyulacaq, torpaqlarımız tamailə azad edilərək ölkəmizin bütövlüyü təmin olunacaq və biz bu qələbəni sizinlə birlikdə bayram edəcəyik" (7.IIc.s.186).

Tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədə baş cümlədə "mən tələb edirəm ki" ifadəsi qətiyyətli dövlət başçısının nitqləri üçün xarakterikdir: "Mən tələb edirəm ki, Nazirlər Kabineti, nazirlər-xüsusən iqtisadiyyat, maliyyə nazirləri və bu sahə ilə məşğul olan digər nazirlər, banklar, xüsusən Milli Bank fərmanın müddəalarının yerinə yetirilməsi üçün təcili, konkret tədbirlər görsünlər, yerinə yetirilməmiş tədbirləri qısa müddətdə həyata keçirək və onların nəticəsini əldə edək" (7.IIc.s.163).

Nitqin ekspressivliyini yüksəltmək məqsədi ilə istifadə olunan təkrarlar tamamlıq budaq cümlənin baş cümlələrində də özünü biruzə verir: "Mən əminəm ki, xalqımız, ölkəmiz arasında dostluq, qardaşlıq əlaqələri bundan sonra da inkişaf edəcəkdir. Sizi əmin edirəm ki, biz. Azərbaycan xalqı və Azərbaycan prezidenti kimi mən bu dostluğa, qardaşlığa daim sadiq olacağıq" (7.IIc.s.189).

"Güman edirəm ki" baş cümləsi tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrdə Heydər Əliyevin nikbinlik yaratmaq məqsədi güdən fikirləri özünə yer alır: "***Güman edirəm ki,*** bu günkü görüşümüz öz nəticələrini verməlidir" (7.IIc.s.139).

Heydər Əliyevin nitq və çıxışlarında "güman edirəm ki" ifadəsi siyasi etikada populizmdən uzaq durmağın ən bariz nümunəsidir. Bu ifadəni eşidən auditoriyada güman yeri qalmır və bu ifadəni eşidənədək auditoriya necə deyərlər səfərbər olunur: "Əgər bu müqavilələrin bağlanmasına nail olsaq, Azərbaycan neft sənayesinin yeni inkişaf dövrü başlanacaqdır. Mən buna əminəm. Güman edirəm ki, bu sahədə və başqa sahələrdə görülən işlər yaxın vaxtlarda öz nəticəsini verəcəkdir" (7.IIc.s.157). Auditoriya Heydər Əliyevin dilində cümlənin əvvəlindəki "güman edirəm ki" ifadəsini yox, sonda qəti gələcək zamanda səslənən ifadələri qəbul edir: "***Güman edirəm ki,*** bu

ilin axırında biz dənizdə neftçıxarmanın 45 illik yubileyini də təntənəli şəkildə qeyd edəcəyik” (7.IIc.s.159).

Heydər Əliyevin nitqlərində işlədilən tamamlıq budaq cümləsi mürəkkəb cümlələrdə baş cümlədə ən çox istifadə olan ifadələrdən biri də “hesab edirəm ki”dir: “Hesab edirəm ki, bu nəsillərdə inzibati yolla getmək olmaz, lakin hər bir ölkə bu gününü və gələcəyini düşünərək lazımi tədbirlər görməlidir” (7.IIc.s.198).

Tamalıq budaq cümləli tabeli mürəkkəb cümlələrdə baş cümlədə bir qrup ifadələr Heydər Əliyevin nitqlərində üstünlük təşkil edir:
- “Güman edirəm ki, bu gün Təzəpir məscidinə toplaşanlar mənim Kəbədən Məkkədən gətirdiyim “Zəmzəm” suyundan istifadə edəcəklər”(7.IIc.s.85).
- “Bir də təkrar edirəm, bütün bunları deməklə mən mətbuatın söz azadlığının əleyhinə çıxmıram” (7.IIc.s.99).
- “Bir daha demək istəyirəm ki, ali və orta ixtisas məktəblərinə tələbə qəbulu respublikamızda həmişə böyük ictimai xrakter daşıyan tədbir olub” (7.IIc.s.103).

“Güman edirəm ki,” baş cümləsi bəzən müşavirələrin sonuna təsadüf edərək felin vacib şəkli ilə yekunlaşır: “Güman edirəm ki, bu günkü müzakirə lazım idi və hər kəs bundan irəli gələn vəzifələri yerinə yetirmək üçün vacib olan işləri görməlidir” (7.IIc.s.168).

Heydər Əliyevin nitqlərində mürəkkəb kompozisiyalı tabeli mürəkkəb cümlələrə tez-tez təsadüf olunur: “Tam əminəm ki, əgər biz aqrar sektorda iqtisadi islahatlar aparıb istədiyimiz prinsipləri həyata keçiririksə, 70-80-ci illərin nailiyyətləri ilə müqayisədə daha yüksək səviyyəyə qalxıb, insanların sərbəst istehsal ilə məşğul olması sayəsində respublikanın kənd təsərrüfatı məhsullarına tələbatını tamamilə ödəyə bilərik və aqrar sektorda əldə olunan məhsullar Azərbaycanın ixrac imkanlarını qat-qat artıra bilər”(7.IIc.s.585). Burada ilk növbədə biz tamamlıq budaq cümləlı mürəkkəb cümlə + sadə cümlə tipini müşahidə edirik. İkinci növbədə isə biz tamamlıq budaq cümləli mürəkkəb cümlədə budaq cümlənin şərt budaq cümləli tabeli mürəkkəb cümlədən ibarət olduğu anlaşılır.

Mürəkkəb cümlələr elmi üslubun əsasını təşkil edir ki, bu üslub hələ N.Nərimanovun elmi əsərlərində geniş yer almışdır: “ Elmi üslubda izahedici vasitələrdən biri də “yəni” bağlayıcısıdır. N.Nərimanov bu və digər elmi fikrin bir daha anlaşıqlı olması üçün “yəni” bağlamasından istifadə etmişdir. Məsələn, “Vərəm naxoşluğunun miqrobu əksər vəqt ağ ciyərdə olub ondan qeyri əzalarda tapılıyor. Yəni demək istəyirüz: miqrob havada olursa nəfəs alanda həmin miqrob çəkdiyimiz nəfəslə ağ cigərə daxil oluyor, məsələ, vərəm miqrobu”(4)

Elmi üslubun əsasını sintaktik vasitə kimi mürəkkəb cümlə təşkil edir ki, bunlar da Heydər Əliyevin nitqlərində özünü qabarıq biruzə verir. Bir sıra müəlliflər(5) göstərir ki, elmi üslub üçün aydın və dəqiq sintaksis mühümdür ki, burada da sözlərin ciddi məntiqi ardıcıllıq əsasında müəyyən sırasının mühafizəsi əsas şərtdir. Elmi üslubun ən mühüm cəhəti ondan ibarətdir ki, burada inversiyaya yol verilmir. Çünki bu üslubun morfoloji və leksik formaları kimi sintaktik formaları da ekspressivlik yaratmağa xidmət etmir(6)

Heydər Əliyevin nitqində isə mürəkkəb cümlələr əsasında qurulan elmi üslublu çıxışlar ekspressivlik yaratmaq baxımından öyrənilməyə layiqdir.

**Mövzunun elmi yeniliyi**: İlk dəfə olaraq Heydər Əliyevin nitqində mürəkkəb cümlələrdən istifadənin xüsusiyyətləri auditoriyanın çeşidindən asılı olaraq öyrənilmiş, tədqiq olunmuşdur.

**Mövzunun təcrübi əhəmiyyəti**: Mövzudan ali məktəblərdə nitq mədəniyyəti ilə bağlı mühazirə və seminarlarda istifadə oluna bilər.

**ƏDƏBIYYAT**

1. Hüseynzadə Muxtar. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1988, s.22-28.
2. Ağayeva İ.S. Bədii və elmi üslub. Bakı: Maarif, 1988, s.22-30.
3. Quliyev İlkin. Qazi Bürhanəddinin dilində şərt budaq cümləli tabeli mürəkkəb cümlələr. Filologiya məsələləri, №2, 2007, s.91-96.
4. Babayev Adil. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı: Elm və Təhsil, 2011, 620 s.
5. Abdullayev Ə.Z. Sintaksisin aktual məsələləri (tabeli mürəkkəb cümlənin tədqiqi). Dərs vəsaiti. Bakı, 1987,84 s.
6. İslamzadə Məsudə. Bədii nəsrdə mürəkkəb konstrksiyaların üslubi-semantik xüsusiyyətləri. AMEA.nın xəbərləri. Humanitar elmlər seriyası. 2007, № 2 s. 81-93.
7. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. I-XL cildlər. Bakı : Azərnəşr, 1997.



**РЕЗЮМЕ**

**СПОСОБЫ УПОТРЕБЛЕНИЯ СЛОЖНЫХ ПРЕДЛОЖЕНИЙ В РЕЧИ ГЕЙДАРА АЛИЕВА**

***Zamanov N. T.***

***Ключевые слова:*** *Гейдар Алиев, речь, культура речи, сложные предложения, сложносочиненные и сложноподчиненные предложения*

В статье исследованы сложные предложения в речах великого политического оратора Гейдара Алиева. Изучено употребление сложносочиненных предложений в зависимости от аудитории, перед которой выступал великий оратор. Показано, что основу речей Гейдара Алиева при его выступлениях перед научными коллективами составляли сложные предложения. Проведен также сравнительный анализ между сложными предложениями классиков Азербайджанской литературы и великого политика Гейдара Алиева.

**SUMMARY**

**THE METHODS OF USING COMPLEX SENTENCES IN HEYDAR ALIYEV'S SPEECH**

***Zamanov N.T.***

***Keywods****: Heydar Aliev, speeche, speeche culture, complex sentences, subordination and coordination complex sentences*

The article explores the complex sentences in the great political speaker's speech. It is studied the use of compound sentences depending on the audience. It is shown that the basis of the speeches of Heydar Aliyev were complex sentences. Also it was carried out a comparative analysis between complex sentences in the speeches of classics of Azerbaijan literature and the great politician Heydar Aliyev.



Daxil olma tarixi: Ilkin variant 21.07.2015
Son variant

**UOT**

# QƏRBİ AZƏRBAYCANIN QARAQOYUNLU BÖLGƏSİNİN DİALEKT LEKSİKASI

**ƏHMƏDOV NOFƏL ŞƏMŞƏD oğlu**
*Sumqayıt Dövlət Universiteti,*
*e-mail:*

***Açar sözlər:****Qərbi Azərbaycan,Qaraqoyunlu bölgəsi, dialekt sözlər, şivələr, izahlı lüğət*

Dialekt sözlərinin xarakterik xüsusiyyətləri ondan ibarətdir ki,onlar ayrı-ayrı regionların şifahi nitqində işlənsə də,ancaq ədəbi dil norması kimi əsas götürülə bilməz. Buna baxmayaraq, milli dil ədəbi dili və dialektləri özündə birləşdirir. Ədəbi və ya standart dil dedikdə isə Azərbaycan dilinin qanunlarına əsaslanmış, orfoepik və orfoqrafiq tələblər üzərində formalaşmış orta məktəbdə, kargüzarlıq, elm, texnika, mədəniyyət və digər sahələrdə istifadə olunan dil nəzərdə tutulur. Ədəbi dilin əsas fərqləndirici cəhəti onun fonetik, leksik, qrammatik və üslubi normalar üzərində qurulmasıdır. Dilin normalarının gözlənilməsi konkret qrammatik qayda və qəbul olunmuş müddəaların yazı və şifahi nitqdə cəmiyyətin hər bir üzvi tərəfindən dərk olunması və əməli işdə tətbiq edilməsidir. Bu qrammatik qayda və qanunlar isə öz əksini həmin dilə aid orfoqrafiya lüğətlərində,məktəb qrammatikası və akademik qrammatikada tapır.

Əlbəttə, dialektlərin də öz daxili qayda-qanunları var, lakin bu qayda – qanunlar onların daşıyıcıları tərəfindən dəqiq dərk olunmur,eyni zamanda yazılı nitqdə də özünü qabarıq şəkildə büruzə vermir. Ədəbi dillə dialektlər bir – birinə qarşılıqlı surətdə təsir edir,ancaq ədəbi dilin dialekt və şivələrə təsiri daha güclüdür. Bu təsir məktəb təhsili,televiziya,radio,qəzet,jurnal və s.vasitəsi ilə həyata keçirilir. Get-gedə şivələr öz inkişafını itirir, onun əsas daşıyıcısı olan yaşlı nəsllə bərabər xarakterik xüsusiyyətlərini də itirmiş olur. Adət-ənənələrə, eləcə də məişətdə işlənən söz və anlayışlara aid olan söz, söz birləşmələri aktiv leksikondan çıxaraq arxaikləşir və bəzən də cəmiyyətdə baş verən siyasi və iqtisadi dəyişikliklərə əsasən yeni sözlər əmələ gəlir. Bunları nəzərə alaraq yaşlı nəsildən istifadə edərək bölgələr üzrə canlı kənd şivələrinin lüğətini hazırlamaq vacibdir. Dialekt sözlərin öyrənilməsi dil tarixini və bəzi sözlərin leksik mənasının öyrənilməsində böyük əhəmiyyəti kəsb edir. Hətta, sözlərin dialekt formasından ədəbi dilə keçirilməsi yolları sözlərdə tarixi baxımdan özünü daha yaxşı göstərir. Bu faktlar göstərir ki, ədəbi dil dialekt və şivələrə təsir göstərir və bu proses, qeyd olunduğu kimi,cəmiyyətdə gedən- zaman baxımdan- müasir dəyişikliklərə görə, yəni sürətli inkişafa əsasən bizdən asılı olmayaraq gedir. Ona görə də çalışmaq lazımdır ki, bölgələrə aid olan kəndlər üzrə dialekt və şivə sözlərini itirməmək üçün yaşlı nəslin tələffüzü əsas götürülərək lüğət tərtib edilsin. Çox yaxşı olardı ki, yaşlı nəslin nümayəndələrinə, xüsusən qadınların tələffüzünə üstünlük verilsin.Ona görə ki, qadınlar adətən oturaq həyat keçirir, həmişə kəndin adət- ənənələri içərisində yaşayırlar, məişətlə bağlı daha çox sözlər bilirlər. Kişilər isə digər şəhərlərə işləməyə getdiklərinə görə onların nitqinə həmin bölgənin dialekti təsir göstərir, dialekt və şivə sözlərin itməsinə imkan yaradır. Tədqiq olunan şivələr xalqın Çənbərək və Karvansaray, ermənilərin İcevan və Krasnoselo adlandırdıqları rayonun ərazilərində yaşamış insanların şivələridir. Ötən əsrin 89-cu ilinə qədər bu insanlar neçə minillik öz dədə-baba yurdlarında yaşayıb-yaradır, əkib-biçirlər. İndi o torpaqlar mənhus qonşularımızın tapdağına çevrilib, vətən övladlarının üzünə həsrətdir. Beynəlxalq irticanın zorakılıq qolu çox güclüdür [1, .3].

Ümumiləşdirilən fikirlər bizə aşağıdakı müddəaları təklif etmək üçün əsas verir:

1.İstənilən dil ədəbi fiksasiyayadək (yazı) qohum dialektlər qrupu formasında mövcud olur.
2.Ədəbi fiksasiya (yazı) dilin tədrci inkişafını (təkamülünü) ləngidərək onu konservləşdirir.
3.Ədəbi dillərdən fərqli olaraq dialekt və şivələr sərhəd tanımır.
4.Analiz üçün dildə olan bütün dialektlər (komparativlik) müqayisə üçün mühümdür.

Dialekt və şivələrin bütün bölgələrdə öyrənilməsi vacibdir. Çünki dialekt və şivələr tədqiq olunan bölgə və regionda yaşayan yerli əhalının tarixini, milli mənsubiyyətini, məişətini öyrənmək üçün ən qiymətli və əvəzsiz mənbədir. A.Bakıxanov yazmışdır: ”Əgər ölkənin qəbilələri, kəndləri, binaları və qədim hasarı geniş bir surətdə tədqiq edilərsə, əhalinin mənşəyini təyin etmək mümkün olacaqdır” [3, 11]. Müasir dövrdə dialekt və şivələrin öyrənilməsi və tədqiqi Qərbi Azərbaycanda müvəqqəti itirdiyimiz torpaqlar üçün böyük mənəvi əhəmiyyət kəsb edir. Buna görə də məqalədə Qərbi Azərbaycanın Qaraqoyunlu bölgəsində istifadə olunmuş dialekt və sivələrə aid olan sözlərin leksik – semantik mənalarının əlifba sırası ilə tərtibi və izahının verilməsi əsas götürülmüşdü:

***A***

**A**ba – böyük bacı, bəzi kəndlərdə anaya müraciət
Aqa – qardaş və ya kişi cinsinə aid müraciət forması
Ağlovu – araba növü ( ağır, nəhəng ağacları daşımaq üçün)
Ağnağaz – təcili üyüdülən taxıl
Ambılma – ləngərlənmə
Ambıla – ambıla –ləngərlənə -ləngərlənə, sağa-sola əyilərək yerimə
Ayıboğan –ağcaqanad növü(əsasən meşədə olur, ağcaqanaddan çox kicik, dəstə halında)
Alağazdamaq – başdansovdu iş görmək
Alısın – payızda bitən yaşıl ot
Anşırmaq –tanımaq - Mən onu anşıra bilmədim (tanıya bilmədim)
Atlama – qatıq və sudan çalxalanma yolu ilə hazırlanan yüngül yay içkisi
Azaylanmaq/azaylamaq – xəstəlikdən və ya hər-hansı bir səbəbdən sayıqlamaq

***B***

Bambalamaq –qaşıq olmadıqda duru xörəyin yuxa parçası ilə yeyilməsi
Bazdaşmaq/bazlaşmaq – bəhsə girmək (Sən mənimlə bazdaşa bilməzsən)
Bılıq – yeni doğulmuş inək və ya camış balası
Bitirici – kuryer (İdarə kağızlarını paylayan işçi,buyruqçu)

***C***

Ceydax – arıq, sağlam
Cəycüy – xırda,lazımsız
Cinis - yaxşı
Cıvraq/cıvrıq – cəld
Cərqoy – xüsusi formada doğranmış kartofun yağda qızardılması
Cəryoy – arabada ağır yük olarkən əlavə qosulmuş öküzlər

***Ç***

Çalası – qatıq mayası ( südü çalmaq üçün)
Çalası – aravuran, ara qarışdıran adam
Çarpana – tikan və ya ağacdan qopmuş iti, kiçik parça
Çəvərən – yaylaqda qoyun-quzunun gecə saxlanıldığı yer.Hasar gərməşov çubuqlarından hazırlanır
Çıntır – arıq, yağsız ət
Çırnöyx - kişik şəlalə
Çıtırıx – sıx ( tərəvəz kolları və meyvə ağacları bol məhsul verərkən)
Çümrük – qaynadılmış ayran

***D***

Dağarcıxlanmaq – özündən razı, özünü üstün tutmaq,saymaq
Dəmgül – seyrək
Dərəçay – çox duru
Dəsvaha – həmin an, dərhal
Dəsdir/dəsdiri – onun kim
Dib öküzü –arabanı dartmaq üçün qoşulan əsas öküz

Dincimalı – yağış
Dinşimək/dinşəmək – diqqətlə qulaq asmaq
Dzman – nəhəng, iri heyvan (əsasən xırdabuynuzlu heyvana aid)

***E***

Eryatı – nizamsız,səliqəsiz, işi yerinə yetirə bilməyən

***Ə***

Əlləmayax – nadinc uşaq
Ərəmşimək – gözünün odunu almaq,bacarmaq
Əryən –evlənməmiş gənc oğlan
Əfçi-əfçi – boş - boşuna
Ərcə-çilingağacı oynunda çiling havada olarkən işlənən söz

***F***

Fasıx – hiyləgər
Fısqırmaq – hirslənmək,razı olmamaq
Fırıtdamaq – tovlamaq,qızışdırmaq,üstünə salmaq

G

Gav – böyük yarğan
Gəj -umacın iri dənəsi (halva hazırlanarkən)
Giryal – mal – qaranı bağlamaq üçün çubuqdan, ağacdan hazırlanmış ip
Gırdınlamaq – ağacı iri formada pazla yarmaq, doğramaq
Gırdın – nəhəng ağacın pazla yarılmış iri hissələri
Gordahat – iri,nəhəng
Gortdaşmaq – məxfi söhbət aparmaq
Gumanaşərt – təxmini
Göyəzə - acgöz,doymayan
Güməşmək – qorxudan əl -yağı tutulmaq
Güzəm- payız yunu, güz –payız deməkdir
Gullaflamaq – içmək

***H***

Həsi – un və sudan hazırlanan xörək,horra
Höysər – taxıl təmizləyən alət

***X***

Xəmərək – boş-boşuna danışmaq, gəzmək. Xəməyir xəməyir danışma.
Xəryə -dağ aşırımında düz yer
Xırça – balaca,alçaq boylu adam
Xiper – hiyləgər adam, balaca boylu hiyləgər adam.
Xotma – qurumuş otu bir yerə yığmaq,ağırlığı təqribən 500 – 600 kq olan quru ot kütləsi
Xuylanmaq – şübhələnmək. Sənin danışığın mən xuylandırır.
Xopana getmək – pul qazanmaq üçün yaşadığın yerdən uzaqlqra getmək
Xorramaq – xoşu gəlməmək,istəməmək. Çəkilən xörəyi niyə xorluyursan?
Xotazlanmaq – öyünmək. Qardaşın oğlu dünən yaman xotazdanırdı.

***İ***

Iddələmək – bir - biri ilə yola getməmək,verilən iş bir birinin üstünə atmaq
İdiləmək – qızışdırmaq. Onu gərək idiliyəsən ki, o işi tez yerinə yetirə. Onu idiləmə.
İnrik – qaranlıq və ya agır əşya. Bu ki, lap qara inrik imiş!
İrzikmək – irzikdirmək- bezikmək, bezdirmək. İş tutanda sən adamı lap irzikdirirsən.
İsvaha –rahat, səliqəli. Xanım ana çox isvaha xanımdır.
İşgələ - hündür yerdə işləmək üçün xüsusi hazırlanmış qurğu
İfləmə - sarsaq,ağıldan kəm. Kərəmin oğlu lap ifləmə imiş!
İfləmək –aldatmaq. Öz aramızdır qonşunu yaman iflədin.

**K**

Kağan – boyunduruğu arabaya bağlamaq üçün göndən hazırlanmış çənbərə
Keyfət – alıx, əsasən yük heyvanlarının belinə qoyulan keçə,çul
Kövər – yeni tikilmiş evin və ya tövlənin himində qalmış artıq torpaq
Közdəmə - kömbə növü
Kütmük – qısa,gödək
Kiğ – ot növü. Kığın məskəni Qaraqoyunlu dərəsində Göytalanın meşəlıyidir.

***Q***

Qaraxamur –içindən yetişən və qaralan armud növü
Qavqarmaq – yerləşdirmək
Qaj - əkin yerində pomidor,xiyar və s.əkmək üçün xətt çəkilməsi
Qarqara – itin zəncirinə əsasən həyətdə hər iki tərəfi mıxla yerə çalınmış 10 – 15 metrlik məftil
Qançırğa – xurcunun ağzını bağlamaq üçün xüsusi hazırlanmış ip
Qarnax – çökək yer,qışda ən çox qar yığılan yer
Qaraçanaq – görülən işin mənasızlığı
Qartdamaz – quru
Qaxarlıq – qıtlıq,quraxlıq
Qəysəvə - quru meyvədən hazırlanmış xörək
Qıfçımaq – sürətlə hara isə getmək
Qırramaq - əl ilə qarğamaq
Qızdırbas– tələsik
Qoj - əyri
Qozdanmaq – özündən razı qalmaq,şişmək
Qonqumaq – oturmaq
Qujoy – çayın iti axan hissəsi
Qurdağzı – heyvan çöldə qalarkən həmin heyvanı vəhşi heyvanlar yeməmək üçün xüsusi adamlar tərəfindən həyata keçirilən ayin, mərasim

***L***

Laqqıtax –boş.Yem üçün gedən yük avtomobilləri sahədən laqqıtax qayitdılar.
Lejan –bol
Ləmbə -yaş. Ay bala, bu yayın istisində harada belə ləmbə olmusan?
Lıkləmək –yukləmək
Löyün – növ. Biz onlara qonaq gedəndə neçə löyün xörək hazırlanmış, gözəl süfrə açılmışdı.

***M***

Mağmın – sakit, rahat adam
Maqqal – tonqal
Majara hay – imkanı olmadan nəyisə təcili istəmək
Majal/macal – vaxt, imkan. Mənim majalım yoxdu ki, sizə də kömək edəm.
Mandıxmaq –təntimək,özünü itirmək
Mezər – önlük
Mərz – bir-neçə tarlanın dalbadal yerləşdiyi sahə
Mətəris – daldalanacaq yer,ev

***N***

Nay – deyib – gülən,zarafatcıl adam
Namqınmaq – cəhd etmək
Nəmi – qatığın tuluğa yıığılıb saxlandığı yer
Nif –qarğış
Nor – pendirin suyunu qaynatdıqdan sonra alınan ağ məhsul
Nöydərəmət – nəhəng,iri
Nışqıllamaq – nişan almaq
Nüvəy – kiçik dərə

***Ö***

Öc /öj – tərs

***P***

Pənsinmək – qorxmaq
Poppurramaq – bitmək,üzə çıxmaq
Poralanmaq – bir-birinin ardınca çıxmaq
Popuşdanmaq – kökəlmək,böyümək
Pürüzdənmək – qızarmaq
Püsərəng – dağınıq
Püfə - ot qırıntısı
Püş – yazda heyvanın altını qurulamaq üçün əvvəlcədən qurudulmuş qoyun peyini

***S***

Seloy – selin əmələ gətirdiyi dərə
Silvi – dağın uzunsov bel yeri
Səllimi – boş-bekar,heç bir iş görməyən
Sıprıxmaq - gizlicə qaçmaq
Sıfqarmaq – nəyi isə tamamilə boşaltmaq
Sürüntək – kotanın yerlə sürünən hissəsi
Südlü – bitki növ

***Ş***

Şampır – nəm,yaş,sulu
Şeyrannanmaq – meyillənmək,razılaşmaq
Şəbbə/şəbbə çalmaq – nadinc olmaq
Şəhlənmək – şübhələnmək
Şıppır – ot növü
Şıvırtı – qamətli

***T***

Tar- arabanın bir hissəsi
Tapıl - 100-200 kq quru otun bir yerə toplanması
Tatoy – Novruz bayramında hazırlanan xörək
Telimək –quzu doğulduqda keçirilən xüsusi mərasimlə bağlı işlədilən söz
Təfərinc – diqqət
Tərk- atın, eşşəyin belinə minərkən arxada oturan adam
Təlisvət –nizamsız,əksinə
Toğlubaşı – hörgüdə istifadə olunan daş növü
Töstəmək – aşağı getmək
Tösvər – alçaq,gödəkboylu, eybəcər adam

***U***

Uzdamaq/uzlamaq –bələdçilik etmək
Ulama salmmaq –tanıdığın adama öz əlinlə verdiyin hər-hası bir əşyanı və ya malı onun icazəsi olmadan başqasına verərək itirilməsi
Urvalamaq – toplanmış məhsul yerini bir daha nəzərdən keçirmək
Urcah etmək – tanış etmək
Usdufca –ehmalca

***Ü***

Üjdənmək –gizlicə aradan çıxmaq
Üjüləmək – deyinmək
Üryə - miniyə hazır olan at

***V***

Vərəngalan –xalça,palaz,gəvə toxunan zaman istifadə olunan ağac
Vəsilləşmək –hər hansı bir məsələni məsləhət yolu ilə həll etmək
Vıncıxmaq//vıcıxmaq–narahat olmaq

Vızıllıq –meşə içində sıx kolluq

***Y***

Yıqval//yıqbal – tale,bəxt
Yalağadüşən – kəsilmiş heyvanın boğaz hissəsində yer
Yelisimək – iylənmək

***Z***

Zağarlanmaq –öyünmək
Zağarqarın – yekəqarın
Zıvırd –tam,bütöv

***Elmi yeniliyi*:** Məqalədə ilk dəfə olaraq Qərbi AzərbaycanınQaraqoyunlu bölgəsinin dialekt sözlərinin izahlı lüğəti verilir və bəzi toponimik vahidlərin tərkibində dialekt sözlər işlənərkən, onların məna çalarlığını dərk etməyə köməklik göstərir.

***Tətbiqi əhəmiyyəti*:** Məqalədən Azərbaycan dilinin dialektoloj atlası və arealı tərtib, tədqiq olunarkən tədqiqatçılar, tarixçilər,tələbələr istifadə edə bilərlər.

**ƏDƏBIYYAT**

1. Kərimov Şövkət.Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri.Bakı: Nurlan, 2004, 362 s.
2. Ələkbərli Əziz. Qədim türk-oğuz yurdu-“Ermənistan”. Bakı: Sabah, 1994, 204 s.
3.Budaqov B.Ə.,Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 1998, 454 s.
4. Qaraqoyunlu Sabir. Qaraqoyunlu ləhcəsi “Dədə Qorqud” ləhcəsidir.Bakı: Oğuz eli, 2013, 168 s.

**РЕЗЮМЕ**

**ТОЛКОВЫЙ СЛОВАРЬ ДИАЛЕКТНЫХ СЛОВ РЕГИОНА ГАРАГОЮНЛУ ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА**

***Ахмедов Н.Ш.***

***Ключевые слова:*** *Западный Азербайджан, Гарагоюнлу, диалектные слова, говоры, литературный язык.*

В данной статье дается толкование диалектных слов региона Гарагоюнлу Западного Азербайджана. Раскрывается значение каждого диалектного слова в виде толкования.

**SUMMARY**

**DIALECTOLOGICAL LEXICS OF QARAQOYUNLU REQION IN THE WESTERN AZERBAIJAN.**

***Akhmedov N.Ş.***

***Key words****: Westren Azerbaijan,Garaqoyunlu,dialectological words,dialects,literary language.*

In the paper areqiven explanations of dialectological words available in Garaqoyunlu reqion of Western Azerbaijan Meanings of all dialectological words are presented in the form of definitions.

Daxil olma tarixi: Ilkin variant 14.07.2015
Son variant

**UOT**

# MÜƏLLİM SÖZÜ MÜRACİƏT FORMASI KİMİ

**EMİNLİ BÖYÜKXANIM İBRAHİM qizi**
*Sumqayıt Dövlət Universiteti , baş müəllim*
*e-mail:*

***Açar sözlər***: *müraciət, xitab, müəllim, nitq mədəniyyəti, davranış qaydaları*

İnsanlar arasında ünsiyyət vasitəsi olan dil məhz sözlərin seçilməsi əsasında ortaya çıxır. Ədəbi dildə və eləcə də adi danışıq dilində fikrin səlis, təsirli, nəzakətli ifadəsi üçün sözlərin seçilməsi və yerində işlədilməsi əsas şərtlərdəndir. Bədii əsər ancaq o zaman müvəffəqiyyətli olur ki,bütün ədəbi-bədii priyom və vasitələrin bacarıqla işlədilməsi ilə yanaşı onun dili də gözəl və axıcı olur, oxucunu həyəcanlandıra bilir, onu cəlb edir. Bütün bu deyilənlərin hamısında söz əsas yer tutur. Məhz buna görədir ki, böyuk sənətkarlar xalqın mənəvi xəzinəsinin – doğma dilinin qiymətli incisi olan sözə böyük ehtiram və ehtiyatla yanaşmış, ondan xüsusi diqqət və məharətlə istifadə etmişlər.

Cəmiyyətdə yaşayan hər bir fərd cəmiyyət üzvləri ilə daim ünsiyyətdə olur. Bir fərdin sözü başqa bir fərdə necə təsir edir, onda hansı psixoloji durumu yaradır? Bu, birbaşa ünsiyyətin xarakterindən, tutumundan və qarşılıqlı münasibətin formasından asılıdır. Çünki ünsiyyət həm də psixoloji aktdır və burada hər şey psixolinqvistik amillərə tabedir.

Necə danışmağımız, deyiliş tərzimiz haqqında daim düşünməyimiz lazımdır. Əgər adam söylədiyi fikri məqsədyönlü müraciətlə, təbii bir intonasiya ilə zənginləşdirirsə, analoji olaraq, onun həmsöhbəti də eşitdiyi nitqdə təkcə mətni deyil, məqsədi, başqa sözlə, son nəticəni də qavrayır. Məşhur sənətçi Stanislavski bu məsələni – «mətn və mətləb» ifadəsi ilə çox dəqiq müəyyənləşdirmişdir [8, 68]. Burada mətn tələffüz edilən bütün sözlər, mətləb isə hər cür ifadə vasitələrindən istifadə edərək bildirmək istədiyimiz fikirdir. Teatr təcrübəsindən məlumdur ki, mətləb mətndən zəngin, dolğun və mürəkkəb olur. Eyni bir mətn tamamilə müxtəlif mətləbləri (fikirləri) ifadə edə bilər. Təkcə «bəli» sözündən ibarət adicə bir mətn müxtəlif mənaları – həm sual, həm inamsızlıq, həm təsdiq, həm də etiraf mənasını bildirir.

Qeyd edək ki, bu məsələdə heç də hər şey öz yerində deyildir. Köhnə qaydalar bizə yaramır, elmi cəhətdən əsaslandırılmış yeni qaydalar isə yoxumuzdur. Biz isə tez-tez belə bir vəziyyəti görüb təəssüflənirik ki, qabaqcıl cəmiyyətimizin əsasını təşkil edən yaxşı insanlar heç də həmişə bir-biri ilə bizim istədiyimiz qədər yaxşı rəftar etmirlər. Bu mühüm ictimai məsələdə nəyi isə əldən vermişik, indi özümüz onun əziyyətini çəkirik [7, 52].

Daim inkişafda olan cəmiyyət üçün davranış qaydaları yaratmaq o qədər də asan deyil. Belə bir kompleksi formalaşdırmaq üçün ilk növbədə mövcud ünsiyyət formalarını qaydaya salmaq, normal cəmiyyətin mühüm atributlarından biri olan davranış qaydalarını sistemləşdirmək lazımdır.

İnsanın gündəlik davranışı onun, ümumiyyətlə, dünyaya, adamlara, müasir cəmiyyətə necə baxmasından asılıdır.

Nitq mədəniyyəti hər hansı bir xalqın ümumi mədəniyyətinin qırılmaz, üzvi bir hissəsidir.Ədəbi dil problemləri nitq mədəniyyəti məsələləri ilə üzvi vəhdət təşkil edir. Bu, təsadüfi deyil. Seçmə və əvəzetmə prinsipləri əsasında müəyyənləşən normalar ədəbi dili ümumxalq danışıq dilindən ayırır, sistem daxilində sistem yaranır ki, bu da dildən şüurlu istifadənin yeni mərhələsi kimi meydana çıxır. Əlbəttə, bu proses uzun,mürəkkəb bir əməliyyatın, kortəbii və şüurlu, obyektiv və subyektiv amillərin dialektik əlaqəsi zəminində yaranır.

Xalqın tarixi kökləri onun mədəniyyətində və eləcə də dilində, bəlkə də, elə ilk növbədə dilində öz əksini tapır. Məhz mədəniyyət vasitəsilə biz dilimizin, ədəbiyyatımızın inkişaf tarixini

öyrənir, tarixi şəxsiyyətlərin həyat və fəaliyyətilə tanış olur, milli dəyərlərimizi yaşadır və mənimsəyirik. Bütün bunları isə əsas ünsiyyət vasitəsi kimi cəmiyyətdə fəaliyyət göstərən dil özündə əks etdirir, bugünkü və gələcək nəsillərə çatdırır.

Sivilizasiyanın müasir inkişafı dövründə, vətəndaş cəmiyyəti quruculuğunun möhkəmləndiyi bir zamanda mədəniyyət məsələlərinin öyrənilməsinə diqqət daha da gücləndirilməlidir.

Millətin və bəşəriyyətin xilası mədəniyyətdədir. Milli mədəniyyətimizin təcəssümü kimi ortaya çıxan və eləcə də milli dəyərlərimizin daşıyıcısı və ötürücüsü sayılan Azərbaycan ədəbi dili uzun tarixi inkişaf yolu keçməsinə baxmayaraq, praktik cəhətdən bügünkü nitqimizlə reallaşan, bəzi araşdırmalara ehtiyacı olan müxtəliflikləri, çoxvariantlıqları, çoxmənalıqları özündə əks etdirir.

Dil cəmiyyətdə ilk növbədə insanlar arasında ünsiyyətə xidmət edir. Münasibətlərin formalarından asılı olaraq ünsiyyətin səviyyələri də müxtəlif olur. Ünsiyyətin məna səviyyəsi ilə anlam səviyyəsi arasında, informasiya və təsir aspektləri arasında kontekslə, bütün anlam şəraiti ilə müəyyən edilən sıx qarşılıqlı əlaqə vardır. Bu əlaqəni informasiya və bu informasiya ilə necə hərəkət etmək haqqında göstəriş, əmr arasındakı əlaqə kimi təsəvvür etmək olar.Beləliklə, əgər məna özündə ümumi informasiya daşıyırsa, anlam ünsiyyətə girənlər arasında əlaqəni göstərir, nitq davranışını təşkil edir və istiqamətləndirir, çoxvariantlı, çoxmənalı, konkret, təsirli səciyyə yaradır.

Nitq insana məxsusdur. İnsan öz nitqini unikal fərdi şəxsiyyət kimi, özünəməxsus səciyyəvi əlamətlərin daşıyıcısı kimi, emosiyaların və temperamentin, fərdi ifadə keyfiyyətlərinin sahibi kimi ifadə edir.

Həm fərdi və səs xüsusiyyətləri, həm də psixoloji durum, zahiri görkəm və davranış keyfiyyətləri – səciyyəvi şəxsiyyətin təzahür etməsi üçün vacib olan bütün bu keyfiyyətlər insana təbiətdən verilir.

Müxtəlif fəaliyyətlərdə bir-biri ilə eyni olan, bir-birini təkrar edən nitq mümkün deyildir. Nitqin xarakteristikaları mütəhərrikdir. Nitqin formaları və strukturu nitq şəraitindən və nitqin motivindən, insanın psixoloji və fiziki vəziyyətindən, tərəf-müqabillər arasındakı münasibətlərin səciyyəsindən asılı olaraq dəyişir.

Azərbaycan dili inkişaf edib zənginləşdikcə onun lüğət tərkibində digər söz qrupları ilə yanaşı, müəyyən müraciət formaları da meydana gəlmişdir. Hələ qədim dövrlərdən dilimizdə şəxs adlarını, qohumluq münasibətlərini, insanların cəmiyyətdəki mövqeyini, sənət və peşəsini, məşğuliyyətini, dərəcəsini, rütbəsini, həmçinin, adamların milli, yaxud yaş mənsubiyyətini, qarşılıqlı əlaqəsini bildirən sözlərdən müraciət forması kimi istifadə olunduğu məlumdur.

Təbii ki, müəyyən zaman keçdikcə qarşılıqlı ünsiyyət üçün zəruri sayılan nitqin aydınlığını, dəqiqliyini təmin edən bu müraciət formaları daha da təkmilləşmişdir. Burada bir ailə üzvləri, qohum-əqrəba arasında müraciətdə işlədilən adi, ənənəvi sözləri deyil, ilk növbədə geniş məna tutumuna malik, artıq rəsmi şəkil almış müraciət vasitələri nəzərdə tutulur. Belə sözlər həm cəmiyyətin, həm də dilin inkişafının nisbətən sonrakı mərhələlərinin məhsuludur. Buna görə də tarixi hadisələr, ictimai həyatda baş verən dəyişikliklər bu sözlərin də dəyişməsinə səbəb olmuşdur. Bu baxımdan, müraciət vasitələrində çoxvariantlılıq, müxtəliflik, pərakəndəlik yaranmışdır. Bu, hamı tərəfindən qəbul edilib istifadə olunan vahid müraciət formalarının tarixi kateqoriya səciyyəsi daşıdığına əsaslanır. Müraciət formaları, eyni zamanda, termin mahiyyəti daşıdığına görə də onları vaxtaşırı nəzərdən keçirmək, dilimizin müasir inkişaf səviyyəsi, nitq mədəniyyətinin tələbləri baxımından götür-qoy etmək zərurəti qarşıya çıxır.

Müraciət nitqdə emosional təsir vasitəsidir. İnformasiya vasitələrinin sürətlə artdığı bir zamanda yazı dilinə nisbətən şifahi dilin, yaxud danışıq dilinin işləkliyi yüksəlir. «Əgər bir zamanlar Azərbaycan danışıq dili Azərbaycan yazı dilinin təsirinə məruz qalırdısa, bu gün əksinədir: danışıq dili yazı dilinə əhəmiyyətli təsir göstərir. Təsadüfi deyildir ki, hər hansı informasiya, adətən, mətbuat səhifələrinə çıxmamışdan əvvəl radioda, televiziyada, müxtəlif xarakterli, miqyaslı yığıncaqlarda və s. (çox zaman məhz birinci şəxsin dilindən) səslənir. Azərbaycan dilində danışan radioların, televiziyaların sayı bu dildə yazan qəzetlərin, jurnalların

sayını keçməsə də, etiraf etməliyik ki, dinləyənlərin auditoriyası oxuyanların auditoriyasından çox-çox genişdir» [3, 4].

Dilimizdə müraciət forması kimi çox geniş yayılmış «*müəllim*» sözünə diqqət yetirək. Əvvəlcə bu ərəb mənşəli sözün leksik mənasına nəzər salaq. Ümumiyyətlə, «*müəllim*» sözü elmli deməkdir. Azərbaycan Sovet Ensiklopediyasında müəllim anlayışı belə şərh edilir: «Müəllim – ümumtəhsil, texniki peşə, orta ixtisas məktəblərində və ya ali məktəbdə hər hansı fənni tədris edən pedaqoji işçi» [2, 120].

Burada müəllimlik yalnız hər hansı fənnin tədrisi ilə məhdudlaşdırılır. Halbuki müəllimlik hər hansı fənn üzrə biliklərin öyrədilməsi ilə bitmir. Müəllimin başlıca vəzifələrindən biri həm öyrətdiyi biliklər vasitəsi ilə, həm də pedaqoji prosesin digər imkanlarından istifadə edərək şagirdlərə (tələbələrə) hərtərəfli tərbiyəvi təsir göstərməkdən ibarətdir. İkincisi, təhsil müəssisələrində çalışan bəzi mütəxəssislərin baza təhsili pedaqojidir, bəziləri isə heç pedaqoji təmayüllü kurslardan da keçməmişlər. Mənbələrdən bəziləri müəllimliyi bu və ya digər fənnin tədrisi ilə məhdudlaşdırır; bəziləri müəllimləri ümumtəhsil çərçivəsinə salır; bəziləri müəllim anlayışında pedaqoji təhsilin vacibliyinə məhəl qoymur; «Azərbaycan dilinin izahlı lüğəti»ndə «*müəllim*» sözünün izahına diqqət yetirək:

«Müəllim, is. [ər]. 1. Məktəbdə hər hansı bir fəndən dərs deyən adam…// Nəsihət verən, öyüd verən, öyrədən, ağıl verən. 2. Hörmət üçün adlara qoşularaq deyilir. 3. Hər hansı sahədə nüfuz sahibi olan, başqalarına nümunə ola bilən adam, ustad.» [1, 356].

Hazırda *müəllim* sözü çox geniş məna tutumuna malikdir. Hamımıza məlumdur ki, peşəsindən asılı olmayaraq layiqli hörmət qazanan şəxsə müraciət edəndə xalq arasında dilə gətirilən ilk söz müəllim olur. Etiraf edək ki, indi bu söz daha çox müraciət forması kimi işlənir. Məsələn:

*– Xatircəm olun, Əhməd müəllim, – dedi və düşündü ki, bu vədiylə vəzifəyə təyin olunacağı gümanının dürüstlüyünü təsdiq edir bir növ...* [5, 329]. *-Dadaş müəllim, neçədən bağlayırsınız?* [5, 27]. *Əziz Teymur müəllim, bu təmtəraqlı və pafoslu sözlər üçün məni bağışlayın* [5, 46]. *Dadaş müəllim, mən belə şeylərdə yaman vasvasıyam* [5, 113]. *Nə var, nə yox, ay Muxtar müəllim?* [5, 293]. *– Nə zəhməti var, Bəhlul müəllim, – deyə o, ahəngindən zərrəcə belə narahatçılıq hissi olunmayan həlim səslə cavab verib, geri döndü* [6, 188].

Deməli, peşə və sənətindən, ümumiyyətlə, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq, müxtəlif təbəqələrin nümayəndələrinə də müraciətdə bu sözdən istifadə olunur. Onu da qeyd etmək lazımdır ki, dünyada belə bir xalq yoxdur ki, orada böyük nüfuzu olan hər hansı şəxsə müraciət edəndə *müəllim* sözü işlədilsin. Bu xüsusiyyət yalnız Azərbaycan xalqına məxsus olduğundan milli mənəvi dəyərə çevrilmişdir. Lakin bundan sui-istifadə etmək olmaz. Müraciət zamanı *müəllim* sözünün də yerini bilmək lazımdır.

«Ara-sıra yumoristik səhnəciklərdə də «müəllim» sözünün hallandırılması təsadüfi deyildir. Bu, bir tərəfdən gülüş doğurmaq məqsədini güdürsə, digər tərəfdən həmin sözün yerli-yerində işlədilməməsinə işarədir, daha doğrusu etiraz əlamətidir.» [4, 4].

Çox güman ki, müəllim sözünün bir çox peşə, sənət sahiblərinə, böyük nüfuz sahiblərinə müraciət kimi işlənməsinin əsas səbəbi müəllimlik sənətinin digər peşə və sənətlərdən, müəllimin isə digər peşə, sənət sahiblərindən uca tutulmasıdır. Nəzərə alınmalıdır ki, müəllimin bilikləri və mənəvi keyfiyyətləri xalqımızın və bəşəriyyətin əldə etdiyi başlıca nailiyyətlərdir. Müəllim əxlaqi cəhətdən qüsursuz olur, dediyi sözün və atacağı addımın nə ilə nəticələnəcəyini əvvəlcədən ölçüb-biçir. Müəllim şəxsiyyətində tələbkarlıqla hörmət vəhdətdə olur. Müəllim vətəncanlı olduqda təbliğ etdiyi biliklər və mənəvi keyfiyyətlər milli və bəşəri xarakter daşıyır.

Beləliklə, *müəllim* – gənc nəsli sistemləşdirilmiş milli və bəşəri dəyərlərlə məqsədyönlü, planlı və mütəşəkkil şəkildə silahlandırmaq yolu ilə nəsillər arasında mənəvi əlaqə yaradan, xalq təsərrüfatının, elmin, mədəniyyət və incəsənətin sonrakı inkişafına güclü təkan verən pedaqoji

təhsilli işçidir. Müəllim sənətinin bütün sadalanan müsbət xüsusiyyətləri *müəllim* sözünün müraciət forması kimi işlənməsinin əsas səbəbidir. Dahi bəstəkar və dramaturq Ü.Hacıbəyov yazırdı: «Müəllimlik vəzifəsi çox çətin və ən məsuliyyətli bir vəzifədir. Hər adam onun öhdəsindən gələ bilməz və hər adama müəllim deyib, uşaqları ona tapşırmaq böyük xatadır… Tərbiyə işində cüzi bir səhlənkarlıq uşağın gələcəyini pozub evini yıxar.»

1960-cı illərdə *müəllim* sözü qeyri-rəsmi, 1980-ci illərdə isə rəsmi və qeyri-rəsmi müraciət forması kimi istifadə edilirdi. Təbii ki, ayrı-ayrı şəxslərə *müəllim* sözü ilə yox, peşə, sənət və ya vəzifəsinə uyğun sözlərlə müraciət etmək daha münasibdir. Məsələn, *həkim, şair, rəssam, müəllim* və s. Müxtəlif peşəli və vəzifəli şəxslərə *müəllim* sözü ilə müraciət konkretlik yox, ümumilik yaradır. Müxtəlif peşəli, vəzifəli şəxslər eyniləşdirilir, onlar arasında fərq qoyulmur. Belə ki, müəllimi şairdən, həkimdən, mülki şəxsdən, hərbiçidən və başqalarından ayırmağa imkan vermir.

Bu gün müraciət formaları içərisində daha geniş yayılmış *müəllim* sözü radio və televiziyada, mətbuatda daha çox ziyalılar tərəfindən istifadə olunur.

Dilimizdə hörmət, sayğı mənasında müraciət forması kimi işlənən *müəllim* sözü yerini sabitləşdirmişdir. Bu da təbii ki, bu sözün mənbə dildəki mənası ilə əlaqədardır.

Təbii ki, Azərbaycan dilinin hər bir cəhətdən imkanları genişdir. «Dilimiz lüğət tərkibinin zənginliyi, ifadə vasitələrinin səlisliyi baxımından dünyanın bir çox dillərindən, o cümlədən, türk dillərindən xeyli fərqlənir. Odur ki, müraciət forması kimi, yerinə görə *vətəndaş* sözündən də, *həkim* sözündən də, *hakim* sözündən də, hətta *tamaşaçı, dinləyici, oxucu, sürücü, sərnişin, alıcı, satıcı* və s. sözlərindən də istifadə edilməsi mümkündür və məqsədə uyğundur. Əsas məsələ odur ki, hər bir söz yerini tapsın, nitqin ümumi ahəngi pozulmasın» [4, 4].

## ƏDƏBIYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti: 4 cilddə, III c., Bakı: Elm, 1983, 556 s.
2.Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə, VII c., Bakı: Elm, 1984, 544 s.
3. Cəfərov N.Q. Danışıq dili: «Mən»in müraciət mədəniyyəti. // Ədəbiyyat qəzeti, 2000, 8 dekabr, s. 4
4.. Qasımov M.K. Dilimizdə işlədilən bəzi müraciət formaları haqqında// Azərbaycan, 1998, 25 sentyabr, səh. 6
5. Anar. Seçilmiş əsərləri. Bakı: Lider, 2004, 416 s.
6. Xəzri N.Ə. Seçilmiş əsərləri. 2 cilddə, I c., Bakı: Lider, 2004, 264 s.
7. Формановская Н.И. Вы сказали «здравствуйте». // Речевой этикет в нашем общении. 3-е издание, М.: Знание, 1989, 156 с.
8. Чихачев В.П. Культура речи и стиль устного выступления. М.: Знание, 1977, 138 с.

## РЕЗЮМЕ
## СЛОВО «МУЭЛЛИМ» КАК ФОРМА ОБРАЩЕНИЯ

***Эминли Б.И.***

***Ключевые слова:*** *обращение, муэллим (учитель), культура речи, правила поведения.*

В статье рассмотрено слово «муэллим» (учитель) как форма обращения. Указаны цель и место употребления этого слова в качестве формы обращения, так как формы обращения оказывают большое влияние на общую культуру речи.

**SUMMARY**

**THE WORD "TEACHER" AS AN APPLİCATİON FORM**

***Eminli B.İ.***

***Key words**: appeal, address, teacher, speech habits,norms of behavior.*

In the article the word "teacher" has been looked through as an application form. The aim and place of the use of the word was indicated as an application form. So the application form influences greatly and directly on every person's speech habits.

.

Daxil olma tarixi: Ilkin variant 14.05.2015
Son variant

**UOT**

# MAHMUD KAŞĞARİNİN “DİVANÜ LÜĞAT-İT TÜRK” ƏSƏRİNDƏ ATALAR SÖZLƏRİ VƏ ZƏRB MƏSƏLLƏRDƏ İŞLƏNƏN İSMİ BİRLƏŞMƏLƏR

**ZEYNALOV RAMİL SAMƏDDİN oğlu**
*Sumqayıt Dövlət Universiteti, doktorant*
*e-mail: ramil-zeynalov-1982@mail.ru*

**Açar sözlər:** *Mahmud Kaşğari, söz birləşmələri, ismi birləşmələr, təyini söz birləşmələri, atalar sözü, zərbi-məsəl.*

Söz birləşmələrinin daha doğru izahı üçün ilk növbədə onların təsnif prinsiplərini müəyyənləşdirmək lazımdır. Y.Seyidov yazır: “Hər bir elm sahəsində, hər bir problematik məsələnin tədqiqində olduğu kimi, söz birləşmələrinin hərtərəfli və düzgün izahı üçün onların təsnif edilərək qruplaşdırılması mühüm əhəmiyyətə malikdir. Təsnifat tədqiqat obyektini əhatə etmək, dəqiqləşdirmək və düzgün başa düşmək üçün ən əhəmiyyətli vasitələrdən biridir” [1, 142].

Söz birləşmələrini müxtəlif prinsiplər əsasında qruplaşdırmaq və təhlil etmək olar. “Söz birləşmələrinin bu və ya başqa şəkildə qruplaşdırılaraq öyrənilməsi tədqiqatın ümumi istiqamətindən, məqsədindən, tədqiqatçının üslubundan çox asılıdır. Bununla yanaşı, burada söz birləşmələrinin təbiətinə və tələbinə də fikir vermək lazım gəlir. Söz birləşmələrini qruplaşdırarkən ən əhəmiyyətli, ən mühüm əlamətlər nəzərə alınmalıdır” [1, 142]. Bu mənada dilçilik ədəbiyyatında söz birləşmələrini sintaktik əlaqələrə görə, predikativliyə görə, sərbəst və sabit olmasına görə, əsas tərəfin ifadə vasitəsinə görə və s. prinsiplərlə bölünür. Fikrimizcə, söz birləşmələrinin əsas tərəfə görə təsnifi daha məqsədəuyğundur və biz bu prinsipi əsas götürürük. Bu birləşmələrin sayı məsələsində də dilçiliyimizdə müəyyən fikir ayrılığı vardır. Belə ki, dilçilərin bir qismi söz birləşmələrindən danışarkən zərfi birləşmələri də ayrıca qrup kimi qeyd etsə də, bəzi dilçilər bunu qəbul etmir. Buna səbəb isə dilimizdə zərfi birləşmələrin nisbətən az işlənməsidir. Lakin qeyd olunmalıdır ki, əgər vahid prinsip tətbiq etsək, zərflər də özlərinə bir qrup sözü tabe edə bilir və birləşmə yaradır. Bu səbəbdən onların sayı az olsa da, zərfi birləşmələr da dilimizdə ayrıca qrup kimi tədqiq olunmalıdır. “Söz birləşmələrinin formalaşmasında birləşmələrin hər iki komponenti rol oynayır, lakin söz birləşməsinin ümumi mənsubiyyəti, əsas xüsusiyyəti birləşmədəki tabe edən, mərkəzləşdirici sözlə müəyyənləşir. Bu cəhətdən söz birləşmələrini, adətən, üç qrupa ayırırlar:

1) ismi birləşmələr;
2) feili birləşmələr;
3) zərfi birləşmələr [1, 180].

“İsmi birləşmələrin əsas aparıcı sözü isimlərdən, feili birləşmələrinki isə feillərdən ibarət olur. Məsələn, *məktəb direktoru, kolxoz sədri, gələn adam* və s. birləşmələr ismi, *məktub yazmaq, kitaba baxmaq, “gələcək gün” romanını oxumaq, mən gələndə, dərsə gəlmək* və s. feili birləşmələrdir. Zərf birləşmələri, ümumiyyətlə, dildə az işlənsə də hər halda onların da müəyyən rolu vardır. Belə birləşmələrin bir tərəfi zərf, o biri tərəfi başqa sözlərdən ibarət olur; məsələn: həyətdən uzaq, evdən aşağı, məktəbdən kənar, səhər tezdən və s.” [2, 209-210].

Söz birləşmələrinin mühüm bir qismini ismi birləşmələr təşkil edir. “Əsas tərəfi adlardan (isim, sifət, say və əvəzliklərdən) ibarət olan birləşmələrə ismi birləşmələr deyilir” [3, 47]. Bəzi müəlliflərin fikrincə, ismi birləşmələrin əsas tərəfi ya isim, ya da isimləşmiş digər sözlər olur. Fikrimizcə, bu yanaşma heç də doğru deyil. Məsələn, N.Məmmədov yazır: “Qeyd olunduğu kimi, ismi birləşmələr onlarda olan əsas aparıcı sözlə, yəni ikinci tərəfdə işlənən sözlə müəyyənləşdirilir. Belə olduğu halda ismi söz birləşmələrində birinci tərəfdə işlənən söz və ya sözlərin hamısı nitq hissəsi ilə işlənməsindən asılı olmayaraq, ikinci tərəfdə işlənən söz ya isim ya da isimləşmiş

(substantivləşmiş) söz olmalıdır" [4, 296]. Lakin qeyd olunmalıdır ki, bəzi ismi birləşmələr vardır ki, onlardakı əsas tərəf sifətlə ifadə olunur, amma bu sözlər substantivləşmir. Məsələn, *əlləri bağlı, gözləri yaşlı* və s. Bu mənada, fikrimizcə, Q.Kazımovun bölgüsü daha məqsədəuyğundur. Belə ki, tanınmış dilçi alim ismi birləşmələrin substantivə və atributiv modellər əsasında formalaşdığını qeyd edir. İsmi birləşmələrin bir qismi substantiv, bir qismi atributiv model əsasında qurulur. Ona görə də ismi birləşmələri iki qrupa ayırmaq olar:

a) İsmi birləşmələrin əksər modellərində əsas tərəf (baş söz, tabe edən tərəf) isimlərdən və isimləşmiş nitq hissələrindən (sifət, say və əvəzliklərdən) ibarət olur; məs.: *daş* ***divar****, şüşə* ***qab****, yaşıl* ***çəmən****, uca* ***çinar****, iki* ***il****, xeyli* ***adam****, dağlarda* ***döyüş****, ellərə* ***yaraşıq****, uzaqdan* ***məktublar****, vətəndaşləq* ***borcu****, çiçəyin* ***ətri****, axan* ***su****, çağlayan* ***bulaq****; almanın* ***qırmızısı****, meyvənin* ***yetişmişi****, uşaqların* ***bir neçəsi****, cərgələrdən* ***ikincisi*** və s.

Bu cür birləşmələrə M.Kaşğarinin əsərində də tez-tez rast gəlmək olur. Məsələn: *Alp adam* düşmən qarşısında, *ağciyər adam* isə döyüşdə bəlli olar [7, 115]; *Yaxşı paltarı* özün gey, *dadlı yeməyi* başqalarına yedirt, qonağa yaxşı hörmət elə ki, adını-sanını el-obada yaysın [7, 119]; *Adamın alası* içində, *heyvanın alası* çölündədir [7, 155]; Zülm *evin qapısından* girsə, ədalət və insaf bacadan çıxar [8, 46]; Pişik *asılı yağa* əli çatmayanda deyər: *elin malı* mənə yaraşmaz [8, 134]. "Divanü lüğat-it türk" əsərində işlənən atalar sözləri və məsəllərdən seçilmiş bu nümunələrdə ismi birləşmələr işlənmişdir. Bu birləşmələrin əsas tərəfi isə isimlərdən ibarətdir.

Əsas tərəfi isimlər və ya isimləşmiş nitq hissələri ilə ifadə olunan bu cür birləşmələr *substantiv* birləşmələr adlanır.

Substantiv birləşmələrin asılı tərəfi isim, sifət, say əvəzlik, feili sifət və zərflə ifadə olunur.

b) ismi birləşmə modellərinin bir qismində əsas tərəf sifətlərlə (sadə və ya *-lı, -li, -lu, -lü; -ıq, -ik, -uq, -ük* və s. şəkilçili düzəltmə sifətlərlə) ifadə olunur. Yuxarıdakı birləşmələrdən fərqli olaraq, bu cür birləşmələr *atributiv* birləşmələr adlandırılır. Məsələn, durna **gözlü**, gözləri **bağlı**, qapısı **örtülü**, ağzı **açıq**, qolları **kəsik**, hamıya **məlum**, dağlardan **uca** və s. Bu cür birləşmələr cümlə daxilində adverbiallaşa da bilər [3, 47].

Bu tip birləşmələrə isə dilimizdə az rast gəlinir. M.Kaşğarinin əsərində də biz bu tipli birləşmələrə rast gəlmədik.

İsmi birləşmələrdə isimlər aparıcı rola malik olur. Birləşmənin birinci tərəfi hansı nitq hissəsi ilə ifadə olunursa olunsun, aparıcı ikinci tərəfdir. Belə birləşmələrdə ismin aparıcılıq xüsusiyyətindən, hakim mövqeyindən asılı olaraq ismi birləşmələr adlanır: *daş ev, alma ağacı, gülən adam*. İsmi söz birləşmələrinin başlıca əlaməti ondan ibarətdir ki, birləşmənin ikinci tərəfi əsasən isimlə ifadə olunur [5, 90].

Azərbaycan dilində olduğu kimi digər dillərində də ismi birləşmələr iki yolla: analitik və sintetik yolla yaranır. Analitik yolla əmələ gələn ismi birləşmələrdə xüsusi şəkilçilərdən istifadə olunmur. Bu tip birləşmələrin yaranmasında şəkilçilər deyil, söz sırası və intonasiya əsas rol oynayır. Məsələn, *Yaxşı paltarı* özünə al, *Dadlı aşı* başqasına ver, Qonağı əzizlə, ağırla ki, Yaysın ününü elə [7, 119] misalında *yaxşı paltar, dadlı aş* birləşmələri bu yolla yaranan ismi birləşmələrdir. Bu cür birləşmələr arasındakı sözlər yanaşma əlaqəsi ilə bir-birinə bağlanmış olur. İsmi birləşmələrin əksəriyyəti isə sintetik yolla, yəni şəkilçilər vasitəsi ilə yaranır. Misallara diqqət edək: *Qışın qonağı*, oddur [7, 344]; Satıcının malı təzə olsa, elə yoldaca yeyər [7, 136]; *pişik balası* miyoldayaraq doğular [8, 42-43].

Türkologiyada ismi birləşmələrin tədqiq tarixi söz birləşmələrinin tədqiq tarixi ilə üst-üstə düşür. Y.Seyidov bu barədə yazır: "Yuxarıda qeyd etdiyimiz kimi, türkologiyada, o cümlədən Azərbaycan dilçiliyində söz birləşmələrinin tədqiq tarixi, əslində, ismi birləşmələrin tədqiq tarixi olmuşdur. Burada bunu bir qədər də məhdudlaşdırmaq istərdik. Bu tarix bütövlükdə ismi birləşmələrin yox, ismi birləşmələrin bir qisminin, əsas qisminin tarixi olmuşdur" [1, 184]. Doğrudan da, türkologiyada ismi birləşmələr daha çox izafət tərkibi, daha sonralar isə təyini söz

birləşmələri adı altında öyrənilmişdir ki, bu da ismi birləşmələrin bir qismini əhatə edir. Digər tərəfdən isə feili birləşmələr, demək olar ki, nəzərdən qaçırılırdı. Klassik şeirdə ərəb və fars tərkiblərinin geniş istifadəsi ismi birləşmələrin izafət tərkibi adı ilə öyrənilməsini şərtləndirən əsas amillərdən biri idi. Sonrakı mərhələdə Azərbaycan dilinin daha çox milli zəmində inkişafı ilə şərtlənir və nəticədə izafət tərkibləri dilimizdən çıxır. "Uzun zaman ədəbi dilimizdə özünə yer salmış olan bu birləşmələri əslində olduğu kimi, Azərbaycan dilində də "izafət" adlandırmaq vacib idi. Bu ad həmin birləşmələrin gəlmə olduğunu, Azərbaycan dilində deyil, ərəb və fars dillərinin qaydalarına əsaslandığını göstərirdi. Buna görə də türk dillərinə aid yazılmış bəzi qrammatika kitablarında bu birləşmələr ayrıca olaraq qeyd edilmişdir" [1, 185-186]. Maraqlı cəhət isə bundan ibarətdir ki, sonradan izafət tərkibi adı təyini söz birləşmələri adı ilə əvəzlənsə də formala olaraq eyni birləşmə əsasında formalaşan birləşmələrin bölgüsü aparılmışdır. Bu isə bu birləşmə formasında olmayan birləşmələrin tədqiqatdan kənar qalması ilə nəticələnmişdir. ""İzafət" türk dillərində, eləcə də Azərbaycan dilində söz birləşmələrinin tədqiq tarixində ciddi bir məhdudiyyət də yaratmışdır. Tədqiqatçılar dilin materiallarına nəzər yetirmək, dilin zəngin birləşmə formalarını araşdırmaq əvəzinə fars dilinə aid olan izafət formalarının türk dillərində qarşılığını axtarmış, bunlara uyğun gəlməyən birləşmələr isə nəzərdən qaçırılmışdır" [1, 186].

"İzafət" anlayışı bir sıra türk dillərində indiyə qədər qalsa da, Azərbaycan dilində bu anlayış, yəni ismi birləşmələr anlayışı son zamanlar təyini söz birləşməsi adı ilə sabitləşmişdir. Doğrudur, ismi birləşmələr adı təyini söz birləşməsi anlayışından daha genişdir və bu cür birləşmələrin hamısını əhatə edir. Təyini söz birləşməsi anlayışı isə bu tip birləşmələrdə birinci tərəflərin ikincisini təyin etməsi ilə əlaqədardır. İsmi birləşmələr isə təyini və təyini olmayan birləşmələr olmaqla iki yerə bölünür. "Azərbaycan dilində bir sıra ismi birləşmə formalarından istifadə edilir ki, bunların bir qismi indiyə qədər diqqəti heç cəlb etməmiş, bir qismi isə başqa məqsədlərlə ötəri olaraq toxunulmuşdur. Bunlar həm məna, həm də forma etibarı ilə yuxarıda qeyd olunan və dilçiliyimizdə geniş dairədə tədqiq olunmuş birləşmələrdən fərqlənir.

Bunları nəzərə alaraq ismi birləşmələri şərti olaraq iki qrupa ayırırıq: 1) təyini söz birləşmələri; 2) təyini söz birləşmələrinə daxil olmayan ismi birləşmələr" [1, s. 189].

Təyini söz birləşmələri müxtəlif nitq hissələrindən, müxtəlif sintaktik əlaqələr əsasında və müxtəlif morfoloji əlamətlər hesabına düzəlir. Bu tip birləşmələrin bir qismi morfoloji əlamətə malik olmadan, ancaq sözlərin sıralanması ilə, digər qismi isə sözdəyişdirici şəkilçilərin köməyi ilə əmələ gəlir. Bu əlamətlərinə görə təyini söz birləşmələrini üç yerə bölürlər:

1. birinci növ təyini söz birləşmələri;
2. ikinci növ təyini söz birləşmələri;
3. üçüncü növ təyini söz birləşmələri.

Birinci növ təyini söz birləşmələri morfoloji əlamətə malik olmur, yəni bu qrupa daxil olan birləşmələrin tərəfləri heç bir morfoloji əlamət qəbul etmədən yaranır. Bu tip birləşmələrin yaranmasında əsas vasitə yanaşma əlaqəsidir və birləşmənin birinci tərəfi atributiv, ikinci tərəf isə substantiv xüsusiyyət daşıyır.

"Birinci növ təyini söz birləşmələrinin ikinci tərəfi, bir qayda olaraq, isimlə və ya substantivləşmiş hər hansı bir sözlə, birinci tərəfi isə isimlə, sifətlə, sayla, əvəzliklə və feili sifətlə ifadə olunur" [6, 48]. Misallara diqqət edək: Pişik *asılı yağa* əli çatmayanda deyər: el-aləmin malını yemək mənə yaraşmaz [8, 134]; *Tatsız türk* olmaz, başsız börk olmaz [8, 277]; *İki burğa* çarpışır, ortada *göy milçək* qırılır [8, 222]; Ovçu bezməsə *boz quş* tutar, tələsməsə *ağ quş* tutar; *çaşqın qonaq* ev yiyəsini əzizlər, ağırlar [7, 168]; *Beş barmaq* bir olmaz [7, 181]; *Varlı adam* tez qocalmaz [7, 203]; *Əmzikli qadın* iştahlı olar [7, 208]; Tələdən *qorxan quş* qırx il haça ağac ustünə qonmaz [8, 318].

Misallardan da göründüyü kimi, birinci növ təyini söz birləşmələrinin birinci tərəfi müxtəlif nitq hissələri ilə ifadə oluna bilir. Məsələn: *asılı yağa, tatsız türk, göy milçək, boz quş, ağ quş,*

*çaşqın qonaq, varlı adam, əmzikli qadın* birləşmələrində birinci tərəf, yəni asılı söz sifətlərlə ifadə olunur. *İki burğa,* b*eş barmaq* birləşməsində asılı söz sayla ifadə olunmuşdur. *qorxan quş* birləşməsində isə asılı söz feli sifətdir.

Birinci növ təyini söz birləşməsinin əsas tərəfi, yəni ikinci tərəf isə həmişə isimlə ifadə olunur. Birinci növ ismi birləşmələrdə digər ismi söz birləşmələrin növlərindən fərqli olaraq, keyfiyyətcə münasibət ifadə olunur. İkinci və üçüncü növ ismi birləşmələrdə isə keyfiyyət münasibəti ifadə edilmir. Bunlarda əsasən, maddi (əşyavi) münasibət ifadə olunur [5, 94].

İsmi birləşmələrin digər bir növü isə ikinci növ təyinin söz birləşmələri adlanır. Bu birləşmələrin birinci tərəfi heç bir morfoloji əlamət qəbul etməsə də, ikinci tərəf mənsubiyyət şəkilçisi ilə işlənir. Bu tip birləşmələr dilimizdə geniş yayılıb. Mahmud Kaşğarinin “Divanü lüğat-it türk” əsərində işlənən atalar sözləri və zərb məsəllərdə də bu tip birləşmələrə tez-tez rast gəlinir. Sintaksislə bağlı yazılan əsərlərdə bu növ birləşmələrin bir neçə məna növü qeyd edilir. İkinci növ təyini söz birləşmələrinin əsas xüsusiyyətlərindən biri isə bu birləşmələrin ümumilik və mücərrədlik bildirməsidir. Digər tərəfdən bu birləşmələrdə mürəkkəb ismə doğru güclü bir inkişaf meyli vardır. Birinci növ təyini söz birləşmələrindən fərqli olaraq ikinci növ təyini söz birləşmələrinin tərəflərinin ifadə vasitələri məhduddur. Onların hər iki tərəfi, əsasən, isimlə ifadə olunur. Digər nitq hissələri isə, yalnız isimləşərək bu tip birləşmənin tərəfi kimi çıxış edə bilir. Misallara diqqət edək: *Adəm oğlu* əzabda qalmaz, *it küçüyü* ağnamaz [8, 118]; *Ağac ucuna* yel dəyər, gözəl qıza söz gələr [7, 336] ; *Kişi sözü* bir olar, *yəhər bağı* üç [8, 279]; *Ev sahibi* qonağı doyursa, gözü yola dikilər [8, 186].

Verilən misallardan da görünür ki, ikinci növ təyini söz birləşmələrinin tərəfləri, əsasən, isimlərdən ibarət olur. Lakin bəzi istisna hallarda əvəzliklər də asılı tərəf kimi iştirak edə bilər. Məsələn: Kim *öz ulusunu* ulu saysa, qut tapar [7, 315] atalar sözündə işlənən *öz ulusunu* söz birləşməsində işlənən birinci tərəf təyini əvəzlikdir.

İsmi birləşmələrin digər bir növü isə dilçilik ədəbiyyatında üçüncü növ ismi birləşmələr və ya üçüncü növ təyini söz birləşmələri adı ilə verilir. Bu tip birləşmələrin hər iki tərəfi şəkilçi ilə işlənir. Birinci tərəf yiyəlik hal şəkilçisi, ikinci tərəf isə mənsubiyyət şəkilçisi ilə işlənən üçüncü növ təyini söz birləşmələri ikinci növ təyini söz birləşmələrindən fərqli olaraq, konkretlik bildirir və tərəflərinin ifadə vasitələri genişdir. Misallara diqqət edək: Günəşə *baxanın gözü* qamaşar [7, 350]; Atası turş alma yesə, *oğulun dişi* qamaşar [8, 303]; *Keçəlin gələsi yeri* papaqçı dükanıdır [8, 64]; *Tazının yüyrəyini* tülkü sevməz [8, 43-44]; *Çiyin yağırı* övlada qalar [7, 136; *Qoçağın dodağı* yağlı, *tənbəlin başı* qanlı [7, 138-139]; Axta *dəvənin yükü* tamam yemək olsa belə, ac adama yenə də az görünər [7, s. 143].

İsmi birləşmələrin nisbətən az yayılan formaları da vardır ki, dilçilik ədəbiyyatında onlar təyini olmayan söz birləşmələri adı altında öyrənilir. Bu tip birləşmələrə Mahmud Kaşğarinin “Divanü lüğat-it türk” əsərində istifadə olunan atalar sözləri və zərb məsəllərində də rast gəlmədik.

Nəticə olaraq qeyd olunmalıdır ki, Mahmud Kaşğarinin “Divanü lüğat-it türk” əsərində işlənən atalar sözləri və zərb məsəllərdə ismi birləşmələr geniş şəkildə işlənir və xüsusən təyini söz birləşmələrinin hər üç növünə rast gəlinir.

## ƏDƏBIYYAT


1. Seyidov Y. Əsərlər. 15 cilddə. I cild, Bakı: Bakı Universiteti, 2006.
2. Məmmədov N., Axundov A. Dilçiliyə giriş. Bakı: Maarif, 1980.
3. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Elm və təhsil, 2010.
4. Məmmədov N. Azərbaycan dilçiliyinin nəzəri əsasları. Bakı: Maarif, 1971.
5. Müasir Azərbaycan dili. Üç cilddə. III cild, Bakı: Elm, 1981.
6. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Şərq-Qərb, 2007.
7. Kaşğari M. Divanü lüğat- it türk: 4 cilddə, I c., Bakı: Ozan, 2006.
8. Kaşğari M. Divanü lüğat- it türk: 4 cilddə, II c., Bakı: Ozan, 2006.



## РЕЗЮМЕ
## ИМЕННЫЕ СЛОВОСОЧЕТАНИЯ УПОТРЕБЛЯЕМЫЕ В ПОСЛОВИЦАХ И ПОГОВОРКАХ В ПРОИЗВЕДЕНИИ МАХМУДА КАШГАРИ "ДИВАНИ ЛУГАТ-ИТ ТУРК"

***Зейналов Р.С.***

***Ключевые слова:*** *Махмуд Кашгари, словосочетания, именные словосочетания, атрибутивные словосочетания, пословица, поговорка*

В статье, впервые в Азербайджанской лингвистике исследованы именные словосочетания, употребляемые в пословицах и поговорках в диване Махмуда Кашгари и даны конкретные примеры относительно каждой из атрибутивных словосочетаний.

## SUMMARY
## NOUN PHRASES USED IN PROVERBS AND SAYINGS IN THE WORK OF MAHMUD KASHGARI «DIVANI LUGAT-IT-TURK»

***Zeynalov R.S.***

***Key words:*** *Mahmud Kashgari, "Divani Lugat-it-Turk", word combination, noun phrases, proverbs, sayings*

In the article for the first time in Azerbaijan linguistics noun phrases used in proverbs and sayings in divan of Mahmud Kashgari are investigated and concrete examples concerning each of the attributive phrases are given.



Daxil olma tarixi: Ilkin variant 23.07.2015
Son variant

**UOT 316.35**

# MƏHBUSLARLA SOSİAL İŞİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

**MƏMİYEV CAVİD MƏHƏRRƏM oğlu**
*Sumqayıt Dövlət Universiteti, dosent*
**BÜNYADOV ZAHİD VAHAB oğlu**
*Sumqayıt Dövlət Universiteti, müəllim*
*e-mail: bunyadov82@mail.ru*

***Açar sözlər:*** *məhbus, hüquq, sosial, qanun, cəza*

Müstəqillik əldə etdikdən sonra hüquqi dövlət quruculuğu yolunu seçmiş Azərbaycan Respublikasıinsan hüquq və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi qəbul edərək bu sahədə bir sıra hüquqi islahatlar həyata keçirməyə başladı. Sosial xidmət sahəsində bu islahatların əhatə dairəsi daha genişdir. Sosial işin obyekti sahələri arasında ən geniş yayılmış kateqoriyalardan biri də məhbuslara yönəlmiş sosial xidmətdir. 1995-ci il 12 noyabr tarixində qəbul edilmiş Azərbaycan Respublikasının ilk Konstitusiyasında insan hüquqlarına dair beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azədlıqları tam və əhatəli şəkildə təsbit olunmuşdur. İnsan və vətəndaş hüquqlarının daha effektiv təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti bu sahədə mühüm fərman və sərəncamlar imzalamışdır.

Məhbuslarla aparılan sosial işin əsas istiqaməti onlara hüquqi və psixoloji yardımların göstərilməsidir. Bu proses, əsasən, cəzaçəkmədən azad edilmiş şəxslərə aiddir. Burada əsas məqsəd onların cəmiyyətə adaptasiya olunmasıdır. Bu məqsədlə 2004-cü ildə Pentensiar sistemdə "cəzaçəkmədən azad olunmuş şəxslərin cəmiyyətə adaptasiyası haqqında" qanun layihəsi hazırlanmışdır. Qanunun qüvvəyə minməsi üçün təbliğat işləri aparılmışdır. 2007-ci il 31 may tarixində Milli Məclis tərəfindən həmin qanun qəbul olunmuşdur [1, 157]. Elə həmin ildə qanunun proqramı hazırlanmış və çap olunmuşdur. Məhbuslarla hüquqi, psixoloji, sosial xidmətlə bağlı müxtəlif qurumlar, birliklər tərəfindən müəyyən işlər həyata keçirilir. Həbsdən azad olunmuş insanlara qarşı cəmiyyətdə mövcud olan münasibət birmənalı deyil. Bütün bunlar onları yenidən cinayət törətməyə sövq edir. Bunun qarşısını almaq üçün məhbuslarla maarifləndirmə işləri aparılmalıdır. Bu baxımdan, hər bir demokratik cəmiyyətdə pentensiar siyasət həyata keçirilir. Bu siyasətin əsas prinsipləri aşağıdakı kimidir: 1) Azadlıqdan məhrum edilmiş bütün şəxslərlə davranış zamanı onların hüquqlarına hörmət edilməlidir; 2) Azadlıqdan məhrum edilmiş bütün şəxslərə tətbiq olunan məhdudiyyətlər onun tətbiqinin əsas məqsədinə uyğun olmalıdır; 3) Məhbusların insan hüquqlarının pozulması ilə müşayiət edilən şəraitdə saxlanması vəsaitin çatışmaması ilə şərtləndirilə bilməz; 4) Azadlıqdan məhrumetmə yerlərində həyat, imkan daxilində cəmiyyətdəki həyatın müsbət cəhətlərinə yaxın olmalıdır; 5) Xarici sosial xidmətlərlə əməkdaşlığı və imkan daxilində vətəndaş cəmiyyətinin məhbusların həyatında iştirakını həvəsləndirmək məqsədəuyğundur; 6) Pentensiar müəssisənin bütün ərazisi təmiz və səliqəli olmalıdır; 7) Məhbusların pentensiar müəssisəyə qəbulu zamanı onların yerləşdirildikləri kameralar və digər otaqlar təmiz olmalıdır; 8) Münasib paltarı olmayan məhbuslar iqlimə uyğun paltarlarla təmin olunmalıdır. Bu paltar rüsvayedici və alçaldıcı olmamalıdır; 9) Məhbuslar onların yaşı, səhhəti, dini, mədəniyyəti və işin xarakteri nəzərə alınmaqla qidalarla təmin edilir [2, 137].

Məhbusların fikir, din və vicdan azadlığına hörmətlə yanaşılmalıdır. Dinin və etiqadın nümayəndələri məhbuslara baş çəkmək və onlarla gizli şəkildə təmasda olmaq imkanına malikdir. Azad edilən məhbuslar yaşayış üçün, habelə ilin fəslinə və hava şəraitinə uyğun paltarla, təyinat yerinə çatmaq üçün kifayət qədər vəsaitlə təmin olunurlar. Penitensiar müəssisələrin tibb xidmətləri dövlətin və ya icmanın mülki səhiyyə təşkilatları ilə sıx əlaqədə təşkil edilir.

Məlumdur ki, məhkumların hüquqi vəziyyəti onların hüquq və azadlıqlarının, qanuni mənafelərinin və vəzifələrinin məcmusundan ibarətdir. Məhkumların əsas hüquqlarının bilavasitə qanunverici tərəfindən müəyyən edilməsi heç də təsadüfi deyildir. Qanunverici bununla məhkumları cəzaların icrası prosesində iştirak edən əsas subyektlər sırasına daxil etmiş və islah olunma prosesində onların iştirakının vacibliyini bir daha göstərmişdir. Qeyd olunanlarla əlaqədar son illərdə məhkumlarn bu hüququnun həyata keçirilməsi, yəni onlara öz hüquq və azadlıqları, vəzifələri barəsində məlumat verilməsi sahəsində istər dövlət, istərsə qeyri-hökumət təşkilatları tərəfindən müəyyən işlər görülsə də, bu tədbirlərin fəal şəkildə davam etdirilməsinə yenə də ehtiyac duyulur. Bu ehtiyacı nəzərə alaraq, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı "Məhkumların hüquqi vəziyyəti" adlı kitab hazırlamışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikası vətəndaşlığından məhrum edilə bilməz [3, 189]. Azərbaycan Respublikasının vətəndaşı heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz. Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir. Məhkum-barəsində cəza təyin edən məhkəmə hökmü qanuni qüvvəyə minmiş şəxsdir. Azərbaycan dövləti məhkumların hüquq və azadlıqlarına, qanuni mənafelərinə hörmət edir və onları qoruyur, məhkumlara islah edilmə vasitələrinin tətbiq edilməsinin qanuniliyini, cəzaların icrası zamanı onların hüquqi müdafiəsini və şəxsi təhlükəsizliyini təmin edir. Cəzaların icrası və çəkilməsi zamanı məhkumların qanunvericiliklə nəzərdə tutulmuş hüquq və azadlıqları təmin olunur. Məhkumların hüquq və azadlıqları yalnız qanunvericiliklə müəyyən olunmuş qaydada məhdudlaşdırıla bilər.

Cəzaların icrası və çəkilməsi zamanı məhkumların əsas aşağıdakı hüquqları vardır:1) Cəzanı insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə çəkmək; 2) İctimai faydalı əməklə məşğul olmaq; 3) İstirahət etmək; 4) Pensiya və ya sosial müavinət almaq; 5) İlk tibbi yardım daxil olmaqla, tibbi rəydən asılı olaraq ambulator və ya stasionar şəraitdə tibbi yardım almaq; 6) Öz hüquq və vəzifələri barədə, o cümlədən, məhkəmə tərəfindən təyin edilmiş cəzanın icrası qaydası və şərtləri barəsində məlumat almaq; 7) Tərcüməçi xidmətindən istifadə etmək; 8) Dini ayinlərin icra edilməsində iştirak etmək; 9) Hüquqi yardım almaq; 10) Təhsil almaq və peşə hazırlığı keçmək; 11) Əcnəbi, vətəndaşlığı olmayan və ya qaçqın statusuna malik olan məhkumların hüquqları; 12) Məhkumların müraciət etmək hüququ; 13) Məhkumların şəxsi təhlükəsizlik hüququ [4, 301].

**Cəzanı insan şəxsiyyətinə hörməti təmin edən şəraitdə çəkmək hüququ -** Məhkumların qanunla təsbit olunmuş bu hüququ onlarla rəftara həsr olunmuş beynəlxalq sənədlərin tələblərində də nəzərdə tutulmuşdur. Cəzaları icra edən müəssisə və ya orqanın işçi heyəti məhkumlara qarşı münasibətdə nəzakətli olmalıdır. Məhkumlar qəddar və ya insan ləyaqətini alçaldan rəftara məruz qalmamalıdırlar. Məhkumlara məcburetmə tədbirləri yalnız qanuna əsasən tətbiq edilə bilər. Məhkumlar onların həyat və sağlamlıqlarını təhlükə altına qoya bilən tibbi və ya başqa təcrübələrə məruz qala bilməzlər.

**İctimai faydalı əməklə məşğul olmaq hüququ -** Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən, hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır [5, 248]. Bu hüquq məhkumlara da aiddir. Hər bir məhkum cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən müəyyən edilmiş yerdə və işlərdə əmək fəaliyyəti ilə məşğul olmalıdır.

Cəzaçəkmə müəssisəsinin müdiriyyəti məhkumların cinsini, yaşını, əmək qabiliyyətini, sağlamlığını, imkan daxilində ixtisaslarını nəzərə alaraq onları faydalı əməyə cəlb etməlidirlər. Məhkumlar bir qayda olaraq, cəzaçəkmə müəssisələrinin istehsalat sahələrində və cəzaçəkmə müəssisələrindən kənar digər istehsalat obyektlərində müəyyən olunmuş qaydada mühafizə, təcrid olunmaqla əməyə cəlb olunurlar. Məhkumlar cəzaçəkmə müəssisəsində müdiriyyətin icazəsi ilə fərdi əməklə məşğul ola bilərlər. Altmış yaşından yuxarı kişi, əlli beş yaşından yuxarı qadın

məhkumlara, birinci və ikinci qrup əlilliyi olan məhkumlara, hamiləliyi dörd aydan çox olan və ya cəzaçəkmə müəssisələri nəzdindəki uşaq evlərində uşaqları olan qadın məhkumlara könüllülük əsasında işləməyə icazə verilir.Yetkinlik yaşına çatmayan məhkumlar əmək qanunvericiliyinə uyğun işə cəlb edilirlər. Həbsxanada cəza çəkən məhkumların əməyi ancaq həbsxana ərazisində təşkil olunur.

**İstirahət etmək hüququ -** Azərbaycan Respublikası Konstitusiyasının 37-ci maddəsinə əsasən, hər kəsin, o cümlədən, məhkumların istirahət hüququ vardır. Məhkumların iş vaxtının müddəti, əməyin mühafizəsi və istehsalat sanitariya qaydaları əmək qanunvericiliyinə uyğun olaraq müəyyən edilir. Məhkumlara istirahət günləri verilir və onlar əmək qanunvericiliyində nəzərdə tutulmuş qaydada bayram günlərində işdən azad edilirlər.Məhkumların ödənişli əməyə cəlb edildikləri vaxt ümumi əmək stajına daxil edilir. Əmək stajının hesablanması təqvim ilinin yekununa əsasən, cəzaçəkmə müəssisəsinin müdiriyyəti tərəfindən aparılır. Ardıcıl olaraq əmək vəzifələrini yerinə yetirməyən, yaxud digər hallarda işdən boyun qaçıran məhkumların müvafiq dövrdəki iş vaxtları cəzaçəkmə müəssisəsinin müdiriyyətinin təqdimatına əsasən məhkəmənin qərarı ilə onların ümumi əmək stajından çıxarıla bilər.

**Dini etiqad azadlığı -** Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinə əsasən, hər kəsin vicdan azadlığı vardır. Hər kəsin dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, yaxud heç bir dinə etiqad etməmək, dini münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Dini mərasimlərin yerinə yetirilməsi ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyildirsə, sərbəstdir. Dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır. Məhkumların vicdan və dini etiqad azadlığına təminat verilir. Onlar istədikləri dinə etiqad etmək və ya etməmək hüququna malikdirlər. Məntəqə tipli cəzaçəkmə müəssisələri və xüsusi müəssisələrdə məhkumların xahişi ilə onlara cəzanın icra edildiyi yerin inzibati ərazi hüdudları daxilində ibadət yerlərinə getməyə icazə verilə bilər.

Məhkumlar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş vəzifələr daşıyırlar. Məhkumların əsas vəzifələri aşağıdakılardır:

- Məhkumlar Azərbaycan Respublikasının vətəndaşları üçün qanunvericiliklə müəyyən olunmuş vəzifələri yerinə yetirməli və cəmiyyətdə qəbul edilmiş davranış normalarına riayət etməlidirlər.
- Məhkumlar Cəzaların İcrası Məcəlləsinin, habelə ona uyğun qəbul edilmiş digər normativ hüquqi aktların tələblərinə riayət etməlidirlər.
- Məhkumlar cəzanı icra edən müəssisə və ya orqanın işçi heyətinin qanuni tələblərini yerinə yetirməlidirlər.
- Məhkumlar cəzanı icra edən müəssisənin işçi heyətinə və cəzaçəkmə müəssisəsinə baş çəkən şəxslərə, habelə digər məhkumlara qarşı nəzakətlə davranmalıdırlar.

Məhbuslar müvafiq kateqoriyalara bölünürlər. Müxtəlif kateqoriyalardan olan məhbuslar onların cinsi, yaşı, əvvəllər məhkum olunması, həbs edilməsinin hüquqi səbəbləri və onlarla davranışa dair sərəncam nəzərə alınmaqla, ayrı-ayrı müəssisələrdə, yaxud eyni müəssisənin müxtəlif hissələrində saxlanırlar. Beləliklə:

1) Kişilər və qadınlar mümkün qədər ayrı-ayrı müəssisələrdə saxlanmalıdır; kişilər və qadınlar eyni müəssisədə saxlanırsa, tamamilə ayrı-ayrı binalarda yerləşdirilməldir; 2) Məhkum edilməmiş məhbuslar məhkum edilmişlərdən ayrı yerləşdirilməlidir; 3) Borc öhdəliklərini yerinə yetirmədiyinə görə məhkum edilmiş şəxslər və mülki işlərə görə həbs edilmiş məhbuslar cinayət törətmiş şəxslərdən ayrı yerləşdirilməlidir; 4) Azyaşlı qanun pozucuları yaşlılardan ayrı saxlanmalıdır.

**Məhbusların məlumatlandırılması və onların şikayət verməsi -** Hər bir məhbusa həbsxanaya qəbul edilərkən mənsub olduğu kateqoriyaya aid məhbuslarla davranış qaydalarına, müəssisənin intizam tələblərinə, habelə yol verilən informasiyanı almaq və ərizə vermək vasitələrinə, həmçinin onu hüquq və vəzifələri barədə özünə hesabat verməsinə və həmin müəssisənin həyat şəraitinə uyğunlaşmasına imkan yaradan bütün digər məsələlərə dair yazılı

informasiya verilir. Savadsız məhbuslar şifahi qaydada məlumatlandırılmalıdır.Hər bir məhbus iş günlərində müəssisənin direktoruna yaxud onun vəkil etdiyi əməkdaşa ərizə vermək və şikayət etmək imkanına malik olmalıdır.

Son dövrlərdə Azərbaycan Respublikasının ədliyyə sahəsində həyata keçirilən islahatlar məhbuslarla sosial işin təşkilində mühüm perspektivlər vəd edir. Cənab Prezident İlham Əliyevin məqsədyönlü şəkildə həyata keçirdiyi hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin tərkib hissəsi olan ədliyyə sistemi bu fikirləri söyləməyə bizdə böyük inam yaradır. Bu inama əsaslanaraq qeyd etmək istəyirik ki, cəzaçəkmə müəssisələrində islah olunan məhbuslar azadlığa çıxdıqdan sonra cəmiyyətimiz üçün faydalı olacaq vətəndaşlara çevriləcəkdir.

***Elmi yeniliyi***: Məqalədə sosial cəmiyyətdə məhbusların həyatı, dövlət tərəfindən onlarla aparılan sosial işin təşkili açıqlanmışdır.

***Tətbiqi əhəmiyyəti***: Məqalə çox aktual mövzunu əhatə etdiyi üçün həm ali məktəb tələbələri, həm də ayrı-ayrı vətəndaşlar yararlana bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsi. Bakı: Hüquq ədəbiyyatı, 2013, 220 s.
2. Əfəndiyev E. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (ümumi və xüsusi hissə) qısa şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2013, 150 s.
3. Quliyev C., Hümbətov M., Mustafayev N. Azərbaycan Respublikasının Cəza-icra hüququ. Bakı: Hüquq ədəbiyyatı, 2010, 255 s.
4. Sosial işin əsasları. Müntəxəbat. I hissə. Bakı: Bakı Universiteti, 2006, 359 s.
5. Sosial işin əsasları. Müntəxəbat. II hissə. Bakı: Bakı Universiteti, 2006, 455 s.


## РЕЗЮМЕ
## ОСОБЕННОСТИ ОРГАНИЗАЦИИ СОЦИАЛЬНОЙ РАБОТЫ С ЗАКЛЮЧЕННЫМИ

***Мамиев Д.М., Буньядов З.В.***

***Ключевые слова:*** *заключенный, право, социальный, закон, наказание*

В статье отмечается, что основные направления социальной работы с заключенными заключаются в оказании им правовой и психологической помощи. Необходимо с уважением относиться к свободе мысли и вероисповедования заключенных. Права и свободы заключенных могут быть ограничены лишь в порядке, определенном законодательством.

## SUMMARY
## SPECIFICATIONS OF ORGANIZATION OF SOCIAL WORK WITH PRISONERS

***Mamiyev J.M., Bunyadov Z.V.***

***Key words:*** *prisoner, right, social, law, penalty*

Main direction of social work with prisoners is legal and psychological assistance to them. Freedom of thought, freedom of religion and freedom of conscience of prisoners will be approched with respect. Rights and freedoms of prisoners can be limited only by rules defined in legislation.

Daxil olma tarixi: Ilkin variant 17.06.2015
Son variant

**UOT 338**

# ELEKTRİK ENERJİSİNİN QİYMƏTİNİN ƏMƏLƏ GƏLMƏSİ İLƏ BAĞLI OLAN MƏSƏLƏLƏR

**HÜSEYNOV QALİB SİRAC oğlu**
*Sumqayıt Dövlət Universiteti, dosent*
*e-mail: qalib.huseynov.1969@mail.ru*

***Açar sözlər:*** *Qiymət, tarif, elektrik enerjisi, istifadəçi, tənzimlənmə, xərc, subsidiya*

Son dövrlərdə Azərbaycanın elektroenergetika sənayesində əhəmiyyətli dəyişikliklər baş verməkdədir. Prezident İlham Əliyevin sərəncamı ilə elektrik enerjisinin paylanması “Azərişıq” Açıq Səhmdar Cəmiyyətinə - “Bakıelektrikşəbəkə” artıq belə adlanır - verilib. “Azərişıq” ASC elektrik enerjisini satın almaqla istehlakçıları etibarlı, təhlükəsiz və səmərəli şəkildə elektrik enerjisi ilə təchizatını həyata keçirəcək. Bütün hallarda əksər istifadəçilər üçün keyfiyyətli və optimal qiymətə elektrik enerjisi əldə etmək əsas məsələ olaraq gündəmdədir. Əvvəla, onu qeyd eədk ki, tariflər, zaman və məkandan asılı olaraq, işlərin vəziyyəti barədə elektrik enerjisi bazarına pozitiv siqnallar gətirməlidir. Qiymət strateji məqsədləri həyata keçirməklə bərabər real vəziyyətlə sıx bağlı olmalıdır. Bizdə hazırda fəaliyyət göstərən üçpilləli tarif sistemi bu incəliklərin hamısını nəzərdə tutmur. Yanacağın və enerjinin istifadəsinin effektivliyinin artırılması və itkilərin azaldılması, enerji sektorunun effektivliyinin artırılmasının əsasını təşkil etməlidir.

Elektroenergetikada qiymətin əmələ gəlməsi böyük əhəmiyyətə malik olan bir sıra spesifik xüsusiyyətlərlə xarakterizə olunur ki, onları da bazar şəraitində enerji şirkətlərinin qiymətinin əmələ gəlməsi və qiymət strategiyalarının formalaşması prosesində nəzərə almaq lazımdır:

1. Elektrik enerjisinin qiyməti enerji şirkətlərinin normal və fasiləsiz fəaliyyətinin təmin edilməsi üçün istehsalçıların bütün xərclərinin ödənməsini təmin etməlidir.

2. Elektrik enerjisi (gücü) bazarının liberallaşdırlmasından asılı olmayaraq, sahədə dövlət (tarif) tənzimlənməsi, bir qayda olaraq, qiymətlər səviyyəsinin məhdudlaşdırılması və yaxud qiymətin əmələ gəlməsinin qanunvericiliklə müəyyən edilmiş əsasları mövcuddur.

3. Belə ki, elektrik enerjisi əmtəə olaraq müəyyən xüsusiyyətlərə (eynilik, saxlanmanın qeyri-mümkünlüyü, müxtəlif istehsalçı şirkətlərin əmtəəsinin eyniliyinin qeyri-mümkünlüyü, məhsulun möhkəm standartlaşdırılması və s.) malkidir. Qiymət sahəsindəki rəqabəti daha aşağı qiymət təklif edən istehsalçı udur, belə ki, bu əmtəəni əvəz etmək mümkün deyil, ona tələb mütləq şəkildə qeyri-elastikdir, elektrik enerjisi (güc) üzrə tariflərin (qiymətlərin) artımı praktiki olaraq istehlakın həcminə təsir göstərmir.

4. Elektrik enerjisinin qiyməti, eyni zamanda, potensial investorları cəlb etmək və verilmiş rentabellik norması ilə qoyulmuş vəsaitlərin qayıtmasını təmin etmək üçün kifayət qədər yüksək olmalıdır.

5. Elektrik enerjisi qiymətinin səviyyəsi yanacağın (istilik stansiyaları üçün) qiyməti səviyyəsi ilə bağlıdır.

6. Elektrik enerjisi qiymətinin dinamikası bütövlükdə illik, aylıq və sutkalıq nöqteyi-nəzərdən öz spesifik xüsusiyyətlərinə malikdir.

7. Keçid dövrü şəraitində tənzimləyici müqavilələr və balanslaşdırıcı bazarda şirkətlərin işinin nəticələri tənzimlənməyən bazarda (“bir sutka irəli” bazarda) qiymətin əmələ gəlməsi və qiymətlərin strategiyasının formalaşması prosesində nəzərə alınmalıdır.

Ümumi şəkildə belə demək olar ki, bazar şəraitində enerji şirkətlərinin qiymətinin əmələ gəlməsi və qiymət strategiyasının formalaşmasının mürəkkəbliyi sahədə qiymətin əmələ gəlməsi xüsusiyyətləri arasındakı “kompromis” axtarışından, bazar şəraitində qiymətlərin səviyyəsinə təsir

edən daxili və xarici mühit amilləri, bazarda konkret enerji şirkətlərinin məqsədləri və başqa amillərdən ibarətdir. Beləliklə, qiymətlərin müəyyən edilməsi və qiymət strategiyasının işlənib hazırlanması məsələləri aktual, mürəkkəbdirlər və enerji şirkətlərindən müvafiq metodik təminat tələb edir.

Enerji qiymətinin optimal səviyyəsini müəyyən edərkən bir neçə əsas amili nəzərə almaq lazımdır: iqtisadi səmərəlilik; xərclərin ödənməsi; səmərəli tənzimlənmə; sadəlik və şəffaflıq; ayrı-seçkiliyin olmaması; sosial məqbulluq və siyasi cəhətdən əlverişlilik; makroiqtisadi məhdudiyyət. [1, 160].

Qiymətin əmələ gəlməsinin səmərəli strukturu istifadəçiləri onların tənzimlənən fəaliyyətə xərclədiyi və operatoru öz aktivlərindən optimal istifadə etməyə həvəsləndirdiyi xərclər haqqında məlumatlandıracaq.

Deməli, iqtisadi səmərəlilik bir sıra ölçülərlə müəyyən olunur, tarif strukturlarına münasibətdə ən mühüm amil "allokasiya effektidir", yəni sistemin fərdi istifadəçilər tərəfindən optimallaşdırılmış şəkildə istifadə edilməsidir. Bu, o deməkdir ki, qiymətlər fəaliyyətin son hədd xərcləri və gələcək investisiyalar haqqında siqnal verərək, həm də artıq mövcud infrastruktur ilə əlaqədar itirilmiş xərcləri əks etdirərək iqtisadi məsrəfləri göstərməlidir. Son hədd xərcləri tələb nəzərə alınmaqla bütün istifadəçilər tərəfindən sistem üzərinə qoyulan mövcud məhsula tələbin cüzi artımının təmin edilməsi ilə bağlı meydana çıxan tam iqtisadi məsrəflər (və yaxud tələbin cüzi azalmasını təmin etmək üçün təchizatın azalması ilə bağlı qənaət edilmiş xərclər) kimi müəyyən edilə bilər. Tənzimlənən xidmətlərdən səmərəli istifadə etmək üçün siqnallar qismində son hədd xərclərinə əsaslanan qiymətlərdən istifadə edilməsi metodu rəqabət bazarında nəticələri təkrarlamaq cəhdləri məqsədi ilə tətbiq edilir ki, orada da istehsalçılar öz məhsulunu onun son hədd xərclərinə bərabər və ya ondan çox olduğu hər dəfə rəqabər bazarının qiyməti ilə satırlar. Əsas kapitalın daimi olub-olmaması və yaxud onun investisiyalar hesabına arta bilməsindən asılı olaraq, son hədd xərcləri qısamüddətli və uzunmüddətli son hədd xərclərinə bölünə bilər. Qısamüddətli son hədd xərcləri müəyyən olunmuş gücün daimi qalması şərti ilə bir əlavə kilovat-saat elektrik enerjisi istehlakının tələb olunduğu zaman meydana çıxan əlavə xərclər kimi müəyyən edilir. Digər tərəfdən, uzunmüddətli son hədd xərcləri bir əlavə kilovat-saat elektrik enerjisinə tələb yarandığı zaman tənzimlənən şirkət üçün tələb olunan kapital investisiyasını da nəzərə alır [2, 35].

Fərdi istifadəçilərə son hədd xərclərinin müvafiq siqnallarını verərək, onların sistem tərəfindən istifadə edilməsi ilə əlaqədar öz mənfəətini maksimumlaşdıran istifadəçilər özlərini elə aparacaqlar ki, o, xalis mənfəəti maksimuma çatdıra və bütövlükdə bütün sistem xərlcərini minimuma endirə bilsin.

Energetika sisteminə investisiyalar istehsalın miqyası və həcminin artması ilə şərtləşən qənaətlə xarakterizə olunur və adətən, irimiqyaslı hesab olunur, buna görə də izafi güclərin qurulması çox vaxt ən ucuz alternativ kimi qəbul olunur. Şəbəkə fəaliyyəti halında şəbəkə infrastrukturunun bu xarakteristikaları bazar qüvvələrinin bu cür xidmətlərin xüsusi investisiyalara da göstərilməsi üçün hərəkətə gətirilə bildiyi dərəcəni xeyli məhdudlaşdırırlar. Mərkəzləşdirilmədən kənar investisiyalar daha böyük ümumi perspektiv nöqteyi-nəzərindən qeyr-kafi və yaxud qeyri-optimal olan şəbəkəyə investisiyaları ifadə etmiş olardı. Energetika texnologiyaları üçün xas olan istehsalın miqyasının artımı ilə şərtləşən qənaət bildirir ki, daimi xərclərin böyük hissəsi səbəbindən son hədd xərcləri əsasında müəyyən edilən qiymət kommunal müəssisənin öz xərclərini tam ödəyə bilməsi üçün, adətən, kifayət etməyəcəkdir. Buna görə də qiymətəmələgəlmə rejimi elə qurulmalıdır ki, kommunal müəssisə səmərəli fəaliyyətə, kapital məsrəflərinə və səmərəli mənfəət norması daxil olmaqla xidmət üzrə xərclərə sərf edilən xərcləri ödəməyə imkan verən lazımi qədər gəliri qazana bilsin.

Qiymətəmələgəlmənin metodologiyası kiçik tənzimlənmə yükünü saxlamaqla yanaşı operatorun səmərəli fəaliyyətini həvəsləndirməlidir. Operatora xidmət göstərəndə isə çox böyük və yaxud lazımsız xərclərin baş verməməsi əhəmiyyətlidir.

Qiymətəmələgəlmə qaydasının aydın olması vacibdir. Tənzimlənən tariflər sadə və şəffaf olmalıdır ki, istifadəçi öz hesabını ödəməli olacağı tarifi asan müəyyənləşdirə bilsin. İlk baxışdan tariflərin müəyyən edilməsinin hədsiz mürəkkəb metodları operatorun fəaliyyətinin səmərəliliyinin artmasını həvəsləndirən metodlar, istifadəçilər üçün isə onlar "qara qutu" kimi görünə bilər. Bu cür şəraitlərdə istifadəçilər müvafiq iqtisadi siqnallara, ümumiyyətlə reaksiya verməyə bilərlər. Halbuki tənzimlənən şirkət bütün istifadəçilər üçün əlverişli olan öz tarif modeli və metodologiyasını düzəldə bilər (və düzəltməlidir), əgər operatorun tariflərinə münasibətdə istifadəçinin qərarı səmərəli hədlərdə intuisiyaya əsaslanan qərar olacaqdırsa, istifadəçilər ümumilikdə siqnallara hamıdan yaxşı reaksiya verəcəklər. Başqa sözlə, tariflər proqnozlaşdırılan olmalıdır [3, 107].

Sadəlik və şəfafflığın ilkin qiyməti də ikinci dərəcəli məqsədlər sırası ilə bağlıdır. Birincisi, uzunmüddətli investisiyalar haqqında qərar istənilən iqtisadi siqnala yalnız qiymətəmələgəlmə rejimi kifayət qədər uzun müddət ərzində stabil qalacağı halda əsaslanacaqdır. İkincisi, daha sadə tarif strukturu inzibati yükü azaldacaq və beləliklə həyata keçirməni sadələşdirəcək. Bundan başqa, mübahisələrdən qaçmaq üçün tarif rejimi aydın olmalı və maksimal mümkün dərəcədə aydın qaydalara əsaslanmalıdır. Nəhayət, şəffaflıq ilkin şərt kimi nəzərdən keçirilməlidir ki, tarif rejimi istifadəçilər və ictimaiyyət tərəfindən ümumi şəkildə bəyənilsin.

Təqdim edilən xidmətlərin bütün istifadəçiləri üçün bərabər şərait yaradılmasından ötrü qiymətin əmələ gəlməsinin əsas elementi təminatın tələb edilməsidir. Bu, onu bildirir ki, bütün istifadəçilərə onların sayından, mülkiyyət forması və digər amillərdən asılı olmayaraq eyni baxılmalıdır, yəni bütün istifadəçilərə qarşı, ancaq onlar xərclərin müxtəlif baza nümunələrini generasiya etmədikləri halda qeyri-diskriminasiyalı münasibət təmin edilməlidir.

Praktik olaraq, bu onu göstərir ki, bütün istifadəçilərə qarşı tariflərin - ancaq həmin tariflərin hökmən özünün yox - müəyyən edilməsinin eyni metodologiyası tətbiq edilməlidir. Bu, bütün istifadəçilərin eyni tariflər üzrə ödəmə edəcəklərini bildirmir, məsələn, böyük və mürəkkəb birləşdirici şəbəkə tələb edən böyük elektrostansiya şəbəkəyə birləşməyə görə, kiçik elektrostansiya və yaxud kiçik müştəri kimi eyni cür ən mütləq ödəməni etməyəcəkdir. Ancaq onlar üçün tariflər eyni qayda ilə hesablanmalıdır.

Mikroiqtisadiyyatın aşkar prinsiplərinə uyğun olaraq hesablanan yeni stildən olan tarif sxemlərinin səmərəli iqtisadi, sosial və siyasi cəhətdən əlverişliliyi haqqında danışmaq yerinə düşər. Yaxşı məlumdur ki, səmərəliliyin mikroiqtisadi prinsipləri sosial bərabərlik və ədalətliliyə heç də həmişə uyğun gəlmir. Məsələn, iqtisadi səmərəlilik prinsipləri nəzərdə tuta bilərdi ki, qiymətin əmələ gəlməsi "allokasiya effekti"ni (məsələn, Ramsey üzrə qiymətin əmələ gəlməsindən istifadə edərək) təmin edərdi. Təəssüf ki, bu, bir sıra hallarda nəticə etibarilə sosial qeyri-bərabərliyin baş verə bilməsi deməkdir. Nəhayət, iqtisadi səmərəlilik xərclərin əksetmə qabiliyyətinə nail olması vacibliyini bildirir, bu isə faktiki olaraq, daha yoxsul müştərilər üçün subsidiya və digər güzəştlərin dayandırılması deməkdir. Ənənəyə görə, bir çox ölkələrdə sənaye müştəriləri uzun müddət məişət istifadəçilərini subsidiyalaşdırmışlar. Böyük əsasla demək olar ki, dəyişikliyə məruz qalmış tarif sxemlərinin siyasi və sosial cəhətdən əlverişliliyi öz tənzimlənmə sistemlərini təkmilləşdirmək yolunda bir çox ETORA (Energetikanın tənzimlənməsi orqanlarının regional assosiasiyası) ölkələri qarşısında meydana gələn əsas çağırışlardan birini özündə əks etdirir.

Bu, qiymətin əmələ gəlməsinin müasir mühitində getdikcə az yerinə yetirilən çağırışdır. Bunun nəticəsində əhalinin bəzi daha yoxsul təbəqələri energetika aclığı şəraitinə düşə bilərlər. Ölkələr bu problemi sosial tariflərin (məsələn, pilləli-proporsional tarifləri tətbiq edərək) və daha yoxsul istehlakçılar üçün digər güzəştlərin köməyi ilə həll etməyə çalışırlar. Bu cür güzəştlər "gəlirlilik üzrə yoxlanılmış" olmalıdır, yəni onlar istehlakçıların gəlirləri üzrə yoxlanılmalıdır, belə ki, əks halda onlar həmin istehlakçılar (məsələn, aşağı enerji istehlakına malik varlı insanlar, ikinci mənzilə sahib olanlar və başqaları) üçün tətbiq oluna bilərlər və onlar qiymətlərin iqtisadi cəhətdən səmərəli təbiətini təhrif etməməlidirlər. Bu, onu bildirir ki, qiyməti energetika sahəsində qiymətəmələgəlmənin bütün iqtisadiyyatını gələcəkdə təhrif etməklə daha yoxsul ev təsərrüfatları

üçün məqbul səviyyəyə qədər azaltmaqdansa, qiymətləri onların olmalı olduğu səviyyədə (yəni xərclərin əks olunduğu səviyyədə) saxlamaq və daha yoxsul insanlara əlavə (müntəzəm tariflər daxil olmayan) ayrı-ayrı subsidiyaları (ödəmələri) nəzərdən keçirmək daha səmərəli olardı. Ancaq hamıya məlumdur ki, əlavə subsidiyaların istiqamətləndirilməmiş təbiəti, məsələn, elektrik və yaxud qazla heç bir əlaqəsi olmayan başqa məqsədlər üzrə əldə edilmiş pulların "israfcıl xərclənməsi" məsuliyyətsiz davranışa səbəb olur.

Bir sıra hallarda makroiqtisadi mahiyyətin məhdudiyyəti tənzimləyici orqan və şirkətlərin qiymətəmələgəlmə strategiyalarının tətbiqi cəhdlərini məhdudlaşdıraraq öz rolunu oynaya bilər.

Başqa hallarda digər məhdudiyyətlər (inflyasiya, ümumi daxili məhsulun artımı, işsizlik səviyyəsinin minimuma endirilməsi) tənzimləyici orqanlar və şirkətlərin qiymətlərin yenidən təşkili və yenidən baxılmasının mükəmməl siyasətini tətbiq etmək cəhdlərini də məhdudlaşdırır.

Bir çox ölkələrdə makro və mikroiqtisadi siyasət qiymətləri mötədil səviyyədə saxlamaq və əhali arasında geniş yayılmış narazılıq və yaxud hətta energetika aclığına səbəb olmayaraq, bazara giriş üçün investora imkan yaratmaq məqsədi ilə bir–birinə təsir göstərirlər.

Qiymətin əmələ gəlməsinin bütün prinsiplərinin tətbiqinə onlardan birinə üstünlüyü mexaniki şəkildə verməklə deyil, onların qarşılıqlı asılılığı nöqteyi-nəzərindən baxılmalıdır. Bu prinsiplərə üstünlüyün hansı şəkildə verilməsinin universal cavabı yoxdur. Səmərəlilik və xərclərin ödənməsi qiymətin əmələ gəlməsinin əsas məqsədləridir, ancaq onlar bazarın müəyyən iştirakçılarına münasibətdə qeyri-diskriminasiya, tətbiqdə sadəlik və istifadəçilər üçün şəffaflıq, uzunmüddətli investisiyalar haqqında qərarlara kömək etmək üçün sabitlik və bazarın dəyişməkdə olan şərtlərinin saxlanmasında çeviklik daxil olmaqla digər məqsədlərlə balanslaşdırılmalıdır. Bu məqsədlər səmərəlilik və xərclərin ödənməsi məqsədlərinə nail olmaq üçün müxtəlif tariflərin tətbiq edilə bilməsinin həlli zamanı əsas meyarlardır [4, 25-32].

Xüsusilə, istehlak nöqteyi-nəzərdən enerji tariflərini işləyib hazırlayarkən hökmən qarşıya çıxan qiymətin əmələ gəlməsi siyasətinin formalaşması kompromislərini nəzərdən keçirmək faydalı olardı. Bu kompromis həm seçki, həm də sırf sosial səbəblər üzrə və iqtisadi cəhətdən səmərəli olan, ancaq bəzi hallarda siyasi cəhətdən yolverilməz və sosial cəhətdən qeyri-məqbul olan xərcləri əks etdirən tariflər üzrə istifadə oluna bilən sosiallaşmış xərclər arasında baş verir. Bu cür kompromis sosial və siyasi qavrayışlardan asılı olaraq, xərclərin bu cür əks olunmasına (tarif səviyyəsində və tarif strukturunda) və xərclərin şəffaflığına görə kimin ödəməli olması və kimin bundan müdafiə olunmuş olması cəhətdən sərt hesab edilir.

Hərçənd sosial ideyaları əhatə etmək cəhdləri tamamilə aydındır, tarif formuluna və yaxud qiymət strukturunun özünə "biçilmiş" sosial məqsədlər sahənin ortamüddətli inkişafı üçün mənfi təsirə malik ola bilər. İdeal halda sosial məqsədlər tariflərin müəyyən edilməsi səviyyəsində izlənilməməli, deməli, onlar qiymətin əmələ gəlməsi sxemindən kənarda nəzərdən keçirilməlidir.

Belə nəticə çıxır ki, bu məqsəd qısa müddətdə bir sıra ETORA ölkələrində dəyişə bilər, ETORA üzvü olan bütün ölkələrin uzunmüddətli siyasəti bu subsidiyaların tədricən ləğv edilməsinə və mümkün olduqca şəfaf və qeyri-subsidiyalı qiymətlərə keçidə istiqamətləndirilməlidir. Şirkətlərin sərbəst qiymətlərin tətbiqinə qədər onların fəaliyyətinin istənilən az şəfaf növlərini meydana çıxarmağa məcbur edilməsi ETORA üzvü olan ölkələrə uzunmüddətli perspektivdə, yəni bu həyata keçmə üçün, nəhayət, əlverişli siyasi və sosial şərait yaradılacağı zaman tam şəffaf və xərcləri əks etdirən qiymətlərə asan keçməyə imkan verər.

***Elmi yeniliyi*:** Azərbaycanda elektrik enerjisi tarifləri müəyyən edilərkən istinad edilməsi məqsədəuyğun olan amillər araşdırılmışdır.

***Tətbiqi əhəmiyyəti:*** Məqalədə şərh olunan amilləri nəzərə almaqla enerji qiymətinin optimal səviyyəsini müəyyən etmək mümkündür.

## ƏDƏBİYYAT

1. Романова С.И. Диссертация на соискание ученой степени кандидата экономических наук. Формы ценового регулирования российских естественных монополий (на примере электроэнергетики). Москва: 2006.

2. Трачук А.В. Реформирование естественных монополий: цели, результаты и направления развития. Москва: 2011.

3. Hüseynov Q.S. Elektroenergetika sənayesində tarif siyasətinin təkmilləşdirilməsi məsələləri // AMEA-nın Xəbərləri, iqtisadiyyat seriyası. 2011, №4.

4. Процедуры и правила для изучения документов по утверждению тарифов. Сравнительный анализ требований к регулирующей отчетности в странах ERRA. Система аудита. Комитет по тарифам и ценообразованию ERRA, 2007

## РЕЗЮМЕ
## ВОПРОСЫ ЦЕНООБРАЗОВАНИЯ ЭЛЕКТРОЭНЕРГЕТИЧЕСКОЙ ЭНЕРГИИ

***Гусейнов Г.С.***

**Ключевые слова:** *Цена, тариф, электрическая энергия, пользователь, регулирование, затраты, субсидия*

В процессе формирования цены и формирования стратегии цен энергетических фирм необходимо учитывать некоторые особенности. В статье изложены эти особенности. При определении оптимального уровня цен учитываются и такие факторы как экономическая эффективность, затраты, отсутствие ценовой дискриминации, социальная удовлетворенность и политическая выгода, макроэкономическая ограниченность

## SUMMARY
## PROBLEMS CONNECTED WITH THE FORMATION OF ELECTRIC ENERGY PRICES

***Huseynov Q.S.***

***Key words:*** *price, tariff, electrik energy, user, regulation, cost, subsidy.*

It is necessary to consider some features in the process of forming price strategies and prices of the energy companies. They have been commented on the article. While determing the optimal standards of energy prices a take following basic factors as economical efficiency; indemnification of the expenses; efficient regulation; simplicity and transparency; discrimination; social convenience and suitableness from the political side; macroeconomic restriction are considered.

Daxil olma tarixi: Ilkin variant 24.04.2015
Son variant

**UOT 334.72**

# AZƏRBAYCANDA LOGİSTİKANIN TƏTBİQİ VƏ İNKİŞAFI

**ABDULLAYEV LOĞMAN İMRAN oğlu**
*Sumqayıt Dövlət Universiteti, dosent*
**OSMANOV İLQAR OSMAN oğlu**
*Sumqayıt Dövlət Universiteti, tyutor*
*e-mail: Elnare Memmedova @ box.az*

***Açar sözlər:*** *logistika, bazar iqtisadiyyatı, istehsal, müəssisə, xammal və material*

Logistika resursların və məhsulların həm istehsal, həm də tədavül sferasında hərəkətinin təşkilində yeni istiqamətdir. Logistika üzrə mütəxəssislər maddi-texniki təchizat, nəqliyyat, anbar, maliyyə və məhsulların hərəkəti haqqında informasiyaları qəbul edən və ötürən sistemlər arasında inteqrativ keyfiyyətə nail olunmasına çalışırlar. Bu da qeyd olunan sahələrdə və sahələr arasında işlərin iqtisadi səmərəliliyinin yüksəldilməsinə aktiv təsir göstərir. Ona görə də firma və müəssisələr tədavül xərclərinin azaldılması və vaxtının qısaldılması baxımından logistikadan özlərinin praktiki fəaliyyətində geniş istifadə edirlər.

Bazar münasibətləri şəraitində bazar islahatları mövcud iqtisadi sistemdə köklü dəyişikliklərin həyata keçirilməsinə, iqtisadiyyatda bazar mexanizminin tətbiqi və gücləndirilməsinə, mülkiyyətin dövlətsizləşdirilməsinə və müxtəlif bazar subyektlərinin sərbəst təsərrüfat fəaliyyətinin təminatına istiqamətlənmişdir. Lakin bir iqtisadi sistemin keyfiyyət baxımından daha təkmili ilə əvəz edilməsi, ölkə iqtisadiyyatının yenidən qurulması ilə əlaqədar iqtisad elmləri qarşısında bir çox problemlər meydana çıxmışdır. Bunlar isə nəzəri təhlil və əsaslandırılmış üsullarla həll olunmalıdır. Belə problemlərdən ən başlıcası ayrı-ayrı bazar subyektlərinin tələb olunan kəmiyyətdə və keyfiyyətdə, lazımi vaxtda və zəruri yerdə xammal, material, dəstləşdirici məmulatlar və hazır məhsullarla təmin etməkdən ibarətdir. Onu da qeyd etmək lazımdır ki, bazar münasibətləri sisteminin dinamikliyi və mürəkkəbliyi, çevik istehsal sisteminin yaradılması, istehsalçılara yüksək səviyyəli xidmət işinin təşkili, istehsalın maddi-texniki təminatı, hazır məhsulun satışı, ehtiyatların optimal idarə edilməsi və s. bu kimi məsələlərin əlverişli formada əlaqələndirilməsi və həlli heç də ilk baxışda göründüyü kimi o qədər də asan iş deyil. Odur ki, mövcud iqtisadi şəraitə uyğun olaraq bu vəzifələri logistika yerinə yetirir.

Bazar iqtisadiyyatı və onun genetik əsasları sübut edir ki, bu iqtisadi sistemdə mühüm rol oynayan və onun əsas həlqələrindən biri olan sahibkarlıq firmaları özlərinin korporativ missiyalarının həyata keçirilməsi və qarşılarına qoyduqları məqsədlərə nail olması üçün marketinq və menecment bazası əsasında güclü təsərrüfat mexanizminə malik olmalıdır. Bundan başqa, bazar uğrunda rəqabət mübarizəsinin getdikcə kəskinləşdiyi bir mərhələdə - resurs mərhələsində hər bir təsərrüfat subyekti material, maliyyə, informasiya, kadr və digər resursların həm istehsal, həm də tədavül sferasında səmərəli idarəedilməsini həyata keçirmək üçün elm və praktiki fəaliyyət sferası hesab edilən logistikaya böyük ehtiyac duyur [1].

Logistikadan aktiv istifadə edən Qərb ölkələrinin praktiki təcrübəsi göstərir ki, xammal, material, yarımfabrikat və dəstləşdirici məmulatların ilkin mənbədən son təyinat məntəqəsinə qədər ümumi hərəkətinin 93 %-i onların müxtəlif maddi-texniki təchizat kanallarından ötüb keçməsinə, daha doğrusu, əsasən tədavül kanallarında yığılıb qalması və saxlanmasına sərf edilir. Ümumi vaxtın yerdə qalan hissəsinin 2 % - ni xüsusi istehsal (hazır məhsul istehsalı), 5% - ni isə nəqletmə əməliyyatları təşkil edir. Bu ölkələrdə məcmu milli məhsulun 20 % - i bazara malyeridilişi ilə əlaqədar xərclərdən ibarətdir. Buna görə də belə xərclərin quruluşunda xammal, yarımfabrikat və hazır məhsulların saxlanılmasına çəkilən xərclər 44 %, saxlanma və ekspedisiya xərcləri - 16 %,

yüklərin magistiral və texnoloжi daşınmasına çəkilən xərclər 23 və 9 %, hazır məhsulların satışının təmin edilməsinə sərf edilən xərclər isə 8 % təşkil edir.

Həmçinin nəzərə alınmalıdır ki, hazır və onlara bərabər tutulan məhsulların beynəlxalq bazarlar çərçivəsində yerdəyişməsi ilə əlaqədar icra olunan əməliyyatlar milli bazarlarda analoji əməliyyatların yerinə yetirilməsi ilə müqayisədə daha mürəkkəb və çox xərc tutumludur. Başqa sözlə, əgər milli bazarlar səviyyəsində bu əməliyyatlara sərf olunan xərclər idxal-ixrac məhsullarının satış dəyərinin 8-10 %-ni təşkil edirsə, beynəlxalq bazarlar üzrə bu rəqəm müvafiq olaraq 25-35 % - dir [2].

Rəqabət mübarizəsi şəraitində fəaliyyət göstərən milli və beynəlxalq bazarların subyektləri təbii ki, qiymət və keyfiyyət parametrləri əsasında özlərinin bazar mövqelərinin möhkəmləndirilməsi, satış paylarının artırılması, daha çox istehlakçıların cəlb edilməsi və son nəticədə bazar liderliyinə sahib olmaq üçün bütün birbaşa və dolayı xərclərinin dəqiq uçotunu aparmalı və onun azaldılması yollarını müəyyənləşdirməlidirlər. Bu konteksdən çıxış edən hər bir bazar subyekti material, maliyyə və informasiya axınlarının idarəedilməsinə istiqamətlənən logistik prinsip və metodlardan mütləq istifadə etməlidir.

Logistik yanaşma bazar münasibətlərinin inkişaf etdiyi şəraitdə dövlət idarəetmə orqanlarının funksiyalarına hərtərəfli təsir göstərir.

Birincisi, bu bir tərəfdən son zamanlar təsərrüfat əlaqələrinin qurulmasında dövlət idarəetmə orqanlarının rolunun zəifləməsi və əmtəə bazarında xüsusi çəkisi yüksək olan ayrı-ayrı firma və müəssisələrin təşəbbüsünün artması ilə əlaqəlidirsə, digər tərəfdən müasir avadanlıqlarla təmin edilmiş geniş anbar şəbəkəsinə malik vasitəçi strukturların sayının artması ilə bağlıdır. Lakin hər iki halda material axınlarının iqtisadi cəhətdən tənzimlənməsi və əlaqələndirilməsi zəruridir. Ona görə də inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, regional səviyyədə material axınlarının əlaqələndirilməsi funksiyasını yerli hakimiyyət orqanları yerinə yetirməlidirlər.

İkincisi, regional idarəetmə orqanları logistik strukturlara dövlət təminatının göstərilməsi forması kimi məsləhət və elmi-metodiki xarakterli fəaliyyət növünə daha çox üstünlük verirlər. Çünki idarəetmə orqanlarının özləri regionda nəqliyyat - anbar əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi, anbar yük daşımaların və nəqliyyat xərclərinin azadılması üçün və ümumiyyətlə material axınlarının regional idarəedilməsi prosesində material, maliyyə və əmək resurslarına qənaət edilməsi üçün bu strukturların təklif etdiyi xidmətdən istifadə olunmasında maraqlıdırlar. Daha doğrusu, yerli idarəetmə orqanları logistik metodların tətbiqinə büdcənin imkanlarının yaxşılaşdırılmasına yönəldilmiş əlavə mənbə kimi baxırlar. Məsələn, logistik xidmətlər üzrə qiymətlərin tənzimlənməsi nəticəsində müəssisələrin bu xidmətə çəkəcəkləri məsrəflər azalır və ümumi yekunda dövlət büdcəsinin gəlirlərinin artmasına şərait yaranır.

Üçüncüsü, logistik metodlardan istifadə sənaye, nəqliyyat, ticarət müəssisələrinin sahələrarası əlaqələrinin genişlənməsinə köməklik göstərir.

Dördüncüsü, logistik idarəetmə metodları dövlətlərarası iqtisadi münasibətlərin qurulmasında da böyük rol oynayır. Buna görə də transmilli sənaye-maliyyə qruplarının yaradılması zamanı Azərbaycan Respublikasının digər yaxın və uzaq ölkələrlə xarici iqtisadi əlaqələri sistemində onların nəzərə alınması və intensiv istifadə olunması lazımdır [3].

Fikrimizi ümumiləşdirmiş olsaq, logistikanın inkişafı bir tərəfdən firma və şirkətlərin malyeridilişi ilə əlaqədar vaxt və maliyyə məsrəflərinin azaldılmasına səy göstərmələri ilə əsaslandırılırsa, digər tərəfdən isə aşağıdakı iki:

- bazar münasibətlərinin mürəkkəbləşməsi və məhsulların bölüşdürülməsi prosesinə kəmiyyət və keyfiyyət baxımından yüksək tələbkarlıq;
- çevik istehsal sistemlərinin yaradılması kimi amillərlə müəyyənləşir.

Deməli, logistikanın inkişafı əhəmiyyətli dərəcədə istehsal strategiyasında və malyeridilişi sistemində mühüm dəyişikliklərlə müşahidə olunan satıcı bazarından alıcı bazarına keçidlə əlaqələndirilir.

Ölkəmizdə logistik konsepsiyaların tətbiqi və logistikanın inkişafı ilə bağlı problemlər özünəməxsus xarakterik xüsusiyyətlərə malikdir. Müasir iqtisadiyyatda logistikanın tətbiq imkanları və inkişaf xüsusiyyətlərinə ölkəmizdə bu gün mövcud olan sosial-iqtisadi, siyasi vəziyyət, eləcə də iqtisadi islahatların həyata keçirilməsi mexanizmindən kənarda deyil, logistik sistemlərin tətbiq xüsusiyyətlərinə prinsipial üstünlük verməklə tam olaraq iqtisadiyyatın müasir vəziyyəti və inkişaf ənənələrilə əlaqədar şəkildə nəzərdən keçirilməlidir. Bu baxımdan Azərbaycan Respublikasında logistikanın tətbiqi və inkişafı yolunda mövcud prinsipial çətinlikləri ümumi şəkildə aşağıdakı kimi formalaşdırmaq mümkündür.

Birincisi, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq iqtisadiyyatın ayrı-ayrı sahələrində mövcud ağır vəziyyət və uyğun geriliklər, habelə cəmiyyətin bütün təbəqələrini əhatə edən sosial gərginliklər, məmləkətdaxili sahibkarlıq mühitinin formalaşması və biznesin inkişaf etdirilməsi üçün prinsipcə yeni logistik ideyalara malik sahibkarların, menecerlərin, mühəndis-texniki işçilərin yetişməsinə maneə törədir:

- ümumdaxili məhsulda özəl sektorun xüsusi çəkisinin artması;
- büdcə kəsirlərinin Milli Bankın kəsirləri hesabına maliyyələşdirilməsinə yol verilməməsi,
- manatın alıcılıq qabiliyyətinin möhkəmləndirilməsi;
- iqtisadiyyatın aparıcı sahələrinə əsaslı vəsait qoyuluşunun həcminin prioritet əsaslar üzrə artırılması;
- əhalinin pul gəlirlərinin artırılması və məşğulluq səviyyəsinin yüksəldilməsi;
- yeni istehsal strukturlarının yaradılması;
- iqtisadiyyatın struktur təkmilləşdirilməsi yolu ilə əsas aparıcı sahələrin ÜDM-də xüsusi çəkisinin artırılması;
- istehsalın artım tempi və istehsal intizamının təmin edilməsi, investisiya mühitinin formalaşmasına aktiv təsir göstərə bilən maliyyə bazarının yaradılması;
- institusional infrastruktur sahələrinin yaradılması;
- resurslardan istifadə sahəsində dövlətin apardığı xammal siyasəti;
- ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrində istehsal olunan məhsulların enerжi və material tutumlarının azaldılması istiqamətində tədbirlər paketinin işlənib hazırlanması;
- bu gün hasil edilən təbii resurslardan istifadədə qənaət rejiminin gözlənilməsi;
- respublikanın getdikcə daha intensiv surətdə beynəlxalq əmək bölgüsü proseslərinə inteqrasiya olunması;
- emaledici sahələrin modelləşdirilməsi;
- bütün istifadəsiz qalan ehtiyat mənbələrinin iqtisadi proseslərə aktiv cəlb edilməsi və digər sosial-iqtisadi problemlər logistikanın tətbiqi və inkişafını şərtləndirən və xarakterizə edən ən mühüm amillərdir.

İkincisi, Qərb ölkələrində logistika sahəsində fundamental mövqeyə malik mübadilə sferasının rolu ölkə iqtisadiyyatında, demək olar ki, qiymətləndirilməyib. Tarixi baxımdan, ölkəmizdə mübadilə sferası, xüsusi olaraq, məhsulların satışı və xidmətin təşkili nöqteyi-nəzərindən istehsal sferasından çox geri qalır. Hazır məhsulların istehlakçılara çatdırılması müddətinin uzunluğu, ödənilməyən tələbin yüksək səviyyəsi, istehlakçılara göstərilən ayrı-ayrı xidmət növlərinin qeyri-qənaətbəxş və kifayət qədər olmaması, tədavül kanallarında tələbatı ödəməyən izafi məhsul bolluğunun yaradılması, bu sferanın «qalıq» prinsipi ilə maliyyələşdirilməsi və iqtisadiyyatın inkişafında onun rolunun düzgün qiymətləndirilməməsi və ya qiymətləndirmə prosesində idarəetmə heyətinin psixoloji maneələri və bu səpgidən olan digər amillər mübadilə sferasında mövcud çətinlikləri xarakterizə edir.

Üçüncüsü, bu gün Azərbaycan Respublikasında istehsal olunan məhsulların mübadiləsi sahəsində mövcud bazar iqtisadi infrastrukturalar və onların əlahidə götürülmüş hər bir elementi inkişaf baxımından dünya ölkələri üzrə orta səviyyədən çox geri qalır.

Göstərilən və qeyd olunmayan bir sıra mənfi faktorlar əhəmiyyətli dərəcədə bütövlükdə ölkə

iqtisadiyyatı və onun ayrı-ayrı sahələri üzrə logistik konsepsiyaların tətbiqini çətinləşdirir.

Lakin bazar iqtisadiyyatına keçidin ilk illərindən Azərbaycan Respublikasında müxtəlif iqtisadi fəaliyyət sahələrinin hər birisində logistik ideyaların inkişafı üçün müəyyən addımlar atılmışdır. Bunları əsasən elmi-nəzəri və istehsal-texniki istiqamətlər üzrə qruplaşdırmaq olar.

Elmi-nəzəri tədbirlər sistemi logistika ilə birbaşa və ya dolayı münasibətdə olan geniş əhatə dairəsinə malik ali təhsilli mütəxəssislərin hazırlanması, eləcədə logistikanın bu və ya digər problemlərinin həll edilməsinə yönəldilmiş və onun nəzəri, nəzəri-metodoloжi əsasını təşkil edən bir sıra elmi-tədqiqat işlərinin yerinə yetirilməsi və metodik göstərişlərin hazırlanması ilə əlaqədardır. Logistikanın nəzəri və nəzəri-elmi əsasını sistemli təhlil, iqtisadi kibernetika, əməliyyatların tədqiqi, ehtiyatların idarəedilməsi, kütləvi xidmət nəzəriyyəsi, əlaqələr nəzəriyyəsi və digər elmlər təşkil edir. Eyni zamanda maddi-texniki təchizat və satış, istehsalın əməli idarəedilməsi, material resurslarına tələbatın optimal planlaşdırılması, məhsulların mübadiləsi sferasında nəqliyyatın səmərəli fəaliyyətinin təşkili, anbar təsərrüfatının təşkili və s. sahələrin bu və ya digər aspektlərinin tədqiq edilməsi sahəsində respublika alim və mütəxəsislərinin, eləcə də praktiki işçilərin əldə etdikləri nailiyyətlər də logistikanın nəzəri - elmi əsaslarının formalaşmasına böyük töhvədir [4].

Logistikanın Respublika iqtisadiyyatında rolu bir-birilə sistemli şəkildə qarşılıqlı əlaqədə olan beş əsas: iqtisadi, təşkilatı-iqtisadi, informasiya, texniki və təsərrüfat proseslərinin bilavasitə tənzimlənməsini həyata keçirən spesifik faktorla müəyyənləşdirilir.

Beləliklə, bir tərəfdən bazar münasibətlərinin tələbi və nəticəsi logistik yanaşmaların tətbiqinə artan intensiv maraq və tələblə müəyyənləşirsə, digər tərəfdən logistik idarəetmənin sürətlənməsi, təsərrüfat həyatında geniş tətbiqi isə bazar münasibətləri sisteminin təkmilləşdirilməsinə və dövlətin iqtisadi siyasət kursuna əsaslı təsir göstərir.

***Elmi yeniliyi:*** Logistika təchizat, istehsal, marketinq, bölüşdürmə və satışın təşkli kimi firmanın baza funksiyaları arasında qarşılıqlı əlaqələrə vəhdət halında yanaşmaq və bu əlaqələri yaxşılaşdırmaq üçün həm aktiv, həm də inteqrativ potensiala malikdir. Təchizat, istehsal və satış mərhələlərində material resursları və hazır məhsul ehtiyatlarının rasional idarə edilməsini həyata keçirən logistika ümumi məsrəfləri azaldır, hazır məhsulun qiymətini aşağı salır və nəticədə firmanın bazardakı mövqeyini möhkəmləndirir.

***Tətbiqi əhəmiyyəti:*** Dövlət strukturlarının yerinə yetirdikləri logistik funksiyaların inkişaf etdirilməsi, təsərrüfat praktikasında logistik idarəetmə metodlarından istifadə olunması dövlətin iqtisadi siyasətinin təkmilləşdirlməsinə və həyata keçirilən iqtisadi islahatların səmərəliliyinin yüksəldilməsinə təsir göstərər.

## ƏDƏBİYYAT


1. İsayev A.S. Maddi istehsalda fəaliyyət göstərən təsirlər, yaxud texniki-iqtisadi inkişafın yeni tələbləri. Bakı: Azərnəşr, 2009, 256 s.
2. Ələkbərov Ə.H., Əlizadə A.Ə. Beynəlxalq marketinq: ali məktəblər üçün dərslik. Bakı: İqtisad Universiteti, 2008, 461 s.
3. İmanov T.İ. İstehlak vasitələri bazarı: problemlər və perspektivlər. Bakı: İqtisad Universiteti, 2008, 341 s.
4. İsayev A.S. Neft və qaz sənayesində istehsalın təşkili, planlaşdırılması və idarə edilməsi. Dərs vəsaiti. Bakı: Azərnəşr, 2005, 277 s.

**РЕЗЮМЕ**
**ПРИМЕНЕНИЕ И РАЗВИТИЕ ЛОГИСТИКИ В АЗЕРБАЙДЖАНЕ**
***Абдуллаев Л.И., Османов И.О***

***Ключевые слова:*** *логистика, рыночная экономика, производство, предприятие, сырье и материалы*

Логистика – это новое направление в организации движения ресурсов и продукции в сфере производста и обращения. Логистика активно влияет на повышение экономической эффективности производства. Поэтому с точки зрения уменьшения производственных затрат и сокращения рабочего времени на промышленных предприятиях республики одной из основных задач является применение логистики.

**SUMMARY**
**APPLICATION AND DEVELOPMENT OF LOGISTICS IN AZERBAIJAN**
***Abdullayev L.I., Osmanov I.O.***

***Keywords:*** *logistics, market economy, production, business, raw material*

Logistics is a new trend in the orqanization of resoueces and products in the field of production and circulation. Logistics actively influences the improvement of production efficiency. Therefore, due to the shortening the working time in terms of circulation and reducing the production costs at the industrial enterprises of the republic the use of logistics is one the main problems.

Daxil olma tarixi: Ilkin variant 22.05.2015
Son variant

**UOT 911.63**

# ABŞERON İQTISADİ RAYONUNUN TƏBİİ SƏRVƏTLƏRİNDƏN TƏSƏRRÜFATDA İSTIFADƏ İMKANLARI

**AĞAYEV TAHİR DÖVLƏT oğlu**
*Sumqayıt Dövlət Universiteti, professor*
**ALMƏMMƏDLİ MƏSUD GÜLALI oğlu**
*Sumqayıt Dövlət Universiteti, baş müəllim*
**HÜSEYNOVA LALƏ İSMAYIL qizi**
*Sumqayıt Dövlət Universiteti, laborant*
*e-mail: Aqayev_Tahir@mail.ru*

***Açar sözlər:*** *təbii sərvətlər, iqlim amilləri, hava kütlələri, günəş radiasiyası*

*Məqalədə Abşeron iqtisadi rayonunun təbii sərvətlərindən təsərrüfatda istifadə imkanları araşdırılmışdır. Abşeron iqtisadi rayonu təbii şəraitinin xüsusiyyətlərinə, təbii sərvətlərin kəmiyyət və keyfiyyət göstəricilərinə görə respublikanın digər iqtisadi rayonlarından xeyli fərqlənir.Onun ərazisində zəngin neft, təbii qaz, müxtəlif tikinti materialları, müalicə əhəmiyyətli mineral su ehtiyatları vardır. Bu təbii sərvətlərdən səmərəli istifadəyə ümumdövlət səviyyəsində yanaşılması iqtisadi və sosial, elmi və praktiki əhəmiyyət kəsb edir.*

İnsan fəaliyyətinin artması ilə təbii mühitə göstərilən təsir də artır, onu dəyişdirir, yeni süni mühit yaradır, yeni antropogen və ya texnogen landşaftlar yaranır.Təbii landşafftların bu cür antropogenləşdirilməsi bütün dünyada hər il artır. Buna gıorə də müasir dövrdə təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə münasibətin köklü surətdə dəyişməsi tələb olunur. Mövcud problemə kompleks şəkildə ümumdövlət səviyyəsində yanaşılmalıdır [5,6]. Məlum olduğu kimi istehsal artdıqca təbii sərvətlərdən istifadə səviyyəsi, ətraf mühitə atılan tullantıların miqdarı da artır. Bu problemin həllini istehsal həcminin azaldılmasında görmək olmaz, çünki, insan cəmiyyətinin inkişafı ilə təbii sərvətlərə tələbatda artır. Buna görə də müasir dövrdə hər hansı bir ökənin təbii sərvətlərindən təsərrüfat sahələrində daha səmərəli istifadəsi aktual məsələlərdən biridir. Bu mühüm iqtisadi və sosial, elmi və praktiki əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası ərazisində təbii sərvətlərdən istifadə məsələsində hər bir regionun öz problemləri vardır. Bu problemin səmərəli həllində Azərbaycan Respublikası Prezidenti tərəfindən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının (2004-2008-ci və 2009-2013 illər) böyük əhəmiyyəti olmuşdur[5]. Yuxarıda deyilənləri nəzərə alaraq təqdim edilən məqalədə Abşeron iqtisadİ rayonunun mövcud təbİİ sərvətlərindən təsərrüfatda istifadə imkanları araşdırılmışdır

**Materiallar və üsullar.** İşdə verilənlərin statistik təhlil metodları tətbiq edilmiş və Xəzərin qərb sahilində yerləşən aeroloji və yerüstü meteoroloji stansiyaların, eləcədə Dövlət Statistika Komitəsinin məlumatlarından istifadə edilmişdir.

**Təcrübi hissə.** Abşeron iqtisadi rayonun ərazisinə Sumqayıt şəhəri, Abşeron və Xızı inzibati rayonları daxiıldir. Bu iqtisadi rayonun sahəsi 5,5 min $km^2$ olaraq respublika ərazisinin 6,3%-ni təşkil edir.

Abşeron iqtisadi rayonu təbii şəraitinin xüsusiyyətlərinə, təbii sərvətlərin kəmiyyət və keyfiyyət göstəricilərinə görə respublikanın digər iqtisadi rayonlarından xeyli fərqlənir.Onun ərazisində zəngin neft,təbii qaz, müxtəlif tikinti materialları, müalicə əhəmiyyətli iqlim və mineral su ehtiyatları vardır.

**Təbii sərvətlərdən təsərrüfatda istifadə imkanları.** Bu iqtisadi rayonun böyük hissəsi Abşeron yarımadasında, $40^0 11'$ ilə $40^0 37'$ şimal enliyi və $49^0 30'$ ilə $50^0 22'$ şərq uzunluğu arasında yerləşir.Yarımadanın qərbdən-şərqə maksimal uzunluğu 75 km-ə bərabərdir. Ərazinin orta

hissəsində eni 20 km ilə 40 km arasında dəyişir. Şərq qurtaracağında eni 10 km, qərb hissədə isə eni 60 km-ə yaxındır. Ərazi şimal, cənub və şərq hissədən Xəzər dənizi ilə əhatə olunmuşdur.Abşeron yarımadasının ətrafında Abşeron arxipelaqını təşkil edən bir sıra adalar vardır. Cənubda Bakı buxtasının girəcəyində Nargin, Qum və Plita adalarını göstərmək olar. Şərq hissəsində isə Pirallahı, Çilov, Neft daşları və bir sıra xırda adalar yerləşmişdir. Bu adalar içərisində ən böyüyü Pirallahı adası olub, sahəsi 14,4 $km^{2}$-ə bərabərdir. Oroqrafik cəhətdən yarımada Baş Qafqaz silsiləsinin cənub-şərq qurtaracağının davamıdır.Abşeron yarımadasının şimal və şərq hissəsində düzənliklər yayılmışdır. Şimal hissəsinin yastı düzənlik səthini palçıq vulkan konusları, Böyük-Şor, Masazır və s. duzlu çalalar pozur. Abşeron iqtisadi rayonunun iqlim resursları, Xəzər dənizinin və yarımsəhra şəraitinin təsiri və Xızı rayonunun dağlıq ərazisi spesifik xüsusiyyətlərə malikdir. Bu iqtisadi rayonun iqlim şəraiti mülayım və qurudur. Orta aylıq temperaturu yanvarda 3-$4^{0}$, iyulda isə 28-$30^{0}$ təşkil edir.

Abşeron iqtisadi rayonu və ona yaxın rayonların ərazisinin fiziki-coğrafi xüsusiyyəti hava kütlələri sirkulyasiyasına təsir edir və onların qarşısını alaraq istiqamətini dəyişdirir [4]. Buna misal olaraq, Baş Qafqaz silsiləsini göstərmək olar. Kiçik Qafqaz da bu hava kütlələrinin qarşısını almaqda az rol oynamır. Kiçik Qafqaz sistemi cənub-qərb və cənubdan hərəkət edən hava kütlələrinin əraziyə daxil olmasına mane olur. Hava kütlələri dağları aşıb keçdikdə fyon hadisəsi müşahidə edilir. Fyonlar ətraf düzənlik rayonları əhatə edir. Bəzi hallarda isə Abşeron yarımadasına kimi gəlib çatır.

Ərazidə küləkli günlərin çox olması və küləyin gücünün yüksək göstəricilərə malik olması külək enerji ehtiyatlarından istifadə olunmasını tələb edir. Bazar iqtisadiyyatı şəraitində bu cür alternativ təbii ehtiyatlardan istifadə sahibkarlıq üçün ucuz enerji alınmasında əsas vasitələrdən biri ola bilər. Bu nöqteyi nəzərdən, küləkli günlərin sayı 300-dən çox olan Abşeron ərazisində külək enerji ehtiyatlarından istifadə etmək iqtisadi və ekoloji cəhətdən faydalıdır.




***Şəkil 1.*** *Ərazi üzrə günəş şəfəqlənməsi saatlarının illik miqdarı*

Başqa iqliməmləgətirici amil günəş radiasiyasıdır. Abşeron iqtisadi rayonunun yerləşdiyi enliyə böyük miqdarda günəş enerjisi düşür. Ümumi günəş radiyasiyasının miqdarı 125-135 kkal/sm$^2$-ə bərabərdir. Müəyyən edilmişdir ki, Abşeron yarımadasında günəş şəfəqlənməsinin müddəti 2200 – 2500 saat arasında tərəddüd edir (şəkil 1.1). Günəş şəfəqlənməsi saatlarının miqdarının belə çox olması buludluluq rejimi ilə sıx əlaqədardır. Illik gedişdə günəş şəfəqlənməsinin ən böyük hissəsi yay fəslində olub, bu da qış dövründəki günəş şəfəqlənməsi saatlarından təxminən 3 dəfə çoxdur[1-3]. Yay dövründə müşahidə edilən günəş şəfəqlənməsinin mümkün şəfəqlənmənin 75–80 % - ni təşkil edir (cədvəl 1).

***Cədvəl 1***

*Mümkün qiymətə nisbətən günəş şəfəqlənməsinin davamiyyəti (%-lə)*

| Məntəqə | I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | Il |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Maştağa | 30 | 33 | 37 | 54 | 69 | 79 | 79 | 80 | 67 | 51 | 34 | 34 | 56 |
| Mərdəkan | 32 | 32 | 44 | 61 | 73 | 79 | 77 | 79 | 70 | 58 | 37 | 30 | 59 |
| Pirallahı | 30 | 31 | 40 | 50 | 66 | 77 | 75 | 78 | 69 | 52 | 38 | 30 | 56 |
| Bakı obs. | 35 | 34 | 39 | 52 | 68 | 78 | 77 | 79 | 68 | 58 | 38 | 34 | 58 |
| Neft daşları | 30 | 34 | 44 | 53 | 71 | 79 | 80 | 80 | 73 | 60 | 39 | 31 | 59 |

***Cədvəl 2.***

*Günəşsiz günlərin və günəşli saatların miqdarı*

| Məntəqələr | Kəmiyyətlər | | | | | |
|---|---|---|---|---|---|---|
| | Illik | | Yay | | Qış | |
| | Günəşli saat. Miq. | Günəşsiz saat. miq. | Günəşli saat. miq. | Günəşsiz saat. miq. | Günəşli saat. miq. | Günəşsiz saat. miq. |
| Maştağa | 2387 | 55 | 939 | 0 | 266 | 29 |
| Mərdəkan | 2366 | 58 | 953 | 0 | 244 | 33 |
| Pirallahı | 2360 | 51 | 971 | 0 | 254 | 29 |
| Bakı obs. | 2244 | 54 | 933 | 0 | 260 | 29 |
| Neft daş. | 2482 | 46 | 1009 | 1 | 263 | 28 |

Il ərzində günəşsiz günlərin miqdarı olduqca azdır və 46 – 58 gündən artıq deyildir. Günəşsiz günlərin ən böyük miqdarı qış dövründə (28 – 33 gün) ən azı isə (yayda 1 gündən az) yay fəslində müşahidə edilir (cədvəl 2). Burdan aydın olur ki, tədqiq edilən ərazi bol günəş enerjisinə malikdir. Bu günəş enerjisi isə ərazidə helioterapiyanın keçirilməsi üçün geniş imkanlar yaradır. Helioterapiya ərazidə bütün il boyu keçirilə bilər, çünki ilin xarakterik dövrlərində (qış və yay) günəşsiz günələrin miqdarı azdır, bunun əksinə günəşin şəfəqlənməsi saatlarının miqdarı (yayda 933 – 1009 saat, qışda 244 – 266 saat) olduqca çoxdur. Iqlimterapiyanın bir növü olan helioterapiyanın keçirilməsi insanların daha möhkəm və fiziki cəhətdən daha davamiyyətli olmasına səbəb ola bilər.

Kurort rekreasiya baxımından Abşeron iqtisadi rayonu dənizkənarı yaşayış məntəqəlri çox-çox əvvəldən fəaliyyətdə olan sanatoriya-kurort müəssisələrinin vahid mərkəzinə çevrilmişdir [2-3]. Son illərdə Abşeronun dənizkənarı çimərliklərindən istifadə etmək məqsədilə gələnlərin sayı xeyli artmaqdadır. Bunu nəzərə alaraq, bir sıra xarici ölkələrdə olduğu kimi, Xəzər dənizinin bu təbii ehtiyatlarından səmərəli istifadə, yeni-yeni müalicə və istirahət mərkəzlərinin müasir normalara uyğun yaradılması dövlətimizin iqtisadi inkişafına çox müsbət təsir göstərə bilər.

Xəzər dənizinin Abşeron iqtisadi rayonun sahillərində mövcud iqlim amillərindən əhəmiyyətli istifadə ilə yanaşı, dəniz həmçinin balıq sərvətlərindən istifadə də əhalinin zəruri istehlak məhsullarına olan tələbatının təmin edilməsi üçün böyük imkanlar açır. Belə ki, bizim

dəniz akvatoriyasında olan sularda duzluğun nisbətən az olması burada özünə məxsus flora və faunanın inkişafı üçün şərait yaratmışdır. Xəzər dənizi ərazisində olan qırmızı və nərə balıqları dünyada ən keyfiyyətli balıq növü hesab olunur. Abşeron yarımadasında əvvəllər mövcud olan balıqçılıqla məşğul olan müəssisələrin fəaliyyətinin bərpa edilməsi respublikamızın iqtisadi inkişafına çox böyük səmərə verə bilər. Bununla yanaşı Abşeron iqtisadi rayonunda Xəzər dənizindən bir nəqliyyat vasitəsi kimi, istifadənin genişləndirilməsi də ölkənin istehsal sahələrinin inkişafı üçün iqtisadi cəhətdən çox əhəmiyyət kəsb edə bilər.

**Nəticə.** Göründüyü kimi, ərazidə təbii sərvətlərin, o cümlədən, iqlim amillərinin (külək və günəş enjisi) yüksək göstəricilərə malik olması enerji ehtiyatlarından hərtərəfli istifadə olunmasını tələb edir. Bazar iqtisadiyyatı şəraitində bu cür alternativ təbii ehtiyatlardan istifadə sahibkarlıq üçün ucuz enerji alınmasında əsas vasitələrdən biri ola bilər. Dənizin sərvətlərindən səmərəli istifadə isə həm iqtisadi və sosial, həm də elmi və praktiki əhəmiyyət kəsb edir.

## ƏDƏBIYYAT


1. Агаев Т.Д. Воздействие глобального изменения климата на жизнедеятельность городского населения Апшеронского полуострова // Безопасность жизнедеятельности. Москва: 2010, №6, с.53-54.
2. Ağayev T.D., Alməmmədli M.G., Cəfərov Ş.T. Abşeron yarımadasında ekvivalent-effektiv temperarurların paylanma xüsusiyyətləri // SDU-nun Elmi xəbər.Təbiət və texniki elmlər bölməsi. Sumqayıt, 2012. №1, cild 12.
3. Ağayev T.D., Eldarov N.Ş. Abşeronun helioresursları və onların rekreasiya üçün əhəmiyyəti / Ekologiya və HF mühafizəsi,VIII Beynəlxalq Elmi konfrans, Sumqayıt. dekabr 2014, s.467-471.
4. Климат Азербайджана. // Под ред. Э.М.Шихлинского, А.А.Мадатзаде и др. Баку: 1969.
5. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci və 2009-2013 illər), Bakı, 2004, 2009.
6. Məmmədov Z.S. Regionların iqtisadi inkişaf problemləri. Bakı: Elm, 2007, 465 s.


## РЕЗЮМЕ

## ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ ПРИРОДНЫХ РЕСУРСОВ В ХОЗЯЙСТВЕ АПШЕРОНСКОГО ЭКОНОМИЧЕСКОГО РАЙОНА

***Агаев Т.Д., Алмаммадлы М.Г.,Гусейнова Л.И.***

***Ключевые слова:*** *природные ресурсы, климатические факторы, воздушные массы, солнечная радиация*

В статье рассматриваются возможности использования природных ресурсов в хозяйстве Апшеронского экономического района. Этот экономический район по особенностям природных условий и по количеству и качеству природных ресурсов сильно отличается от других экономических районов. На территории этого экономического района имеется нефть, природный газ, различные строительные материалы, полезные лечебные минеральные воды. Использования этих природных ресурсов на общегосударственном уровне имеет экономическую – социальную, научно-практическую значимость.

**SUMMARY**

**THE POSSIBILITY OF USING NATURAL RESOURCE IN THE OF ABSHERON ECONOMIC REGION**

***Agayev T.D., Almammadli M.G.,Huseynova L.İ.***

***Keywords:*** *natural resources, climatic factors, air masses, solar radiation*

The article examines the possibility of using natural resources in the Absheron economic region. This economic region due to its particular natural conditions the quantity and quality of natural resource is very different from other economic areas. The approach to this natural resource at the national level has an economic, social, scientific and practical significance.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | Ilkin variant | 09.06.2015 |
| | Son variant | |

**UOT 372.8**

# ƏDƏBİYYAT MÜƏLLİMİ HAZIRLIĞI VƏ TƏDRİS PROBLEMLƏRİ

**ASLANOV YUSİF YUSUBƏLİ oğlu**
*Sumqayıt Dövlət Universiteti, dosent*
**RƏFİYEVA AFƏT İLYAS qızı**
*Sumqayıt Dövlət Universiteti, müəllim*
*e-mail: afat.rafiyeva@gmail.com*

***Açar sözlər:*** *ədəbiyyat təlimində inteqrasiya, idarəetmə modeli, kadr hazırlığı, informasiya kommunikasiya texnologiyaları, testlər, qəbul imtahanları, mühazirə və seminarların təşkili*

Ölkəmizin və eləcə də qloballaşan dünyanın sosial-iqtisadi istiqamətlərində davamlı və dinamik inkişafa uyğun yeni təhsil sisteminin qurulması, təhsil islahatı işinin müasir tələblər səviyyəsində təkmilləşdirilməsi çox ciddi və aktual məsələlərdən biridir. Birləşmiş Millətlər Təşkilatının XXI əsri “Təhsil əsri”, “İntellekt əsri” adlandırdığı bu epoxoda təfəkkürə əsaslanan, müstəqil, yaradıcı və tənqidi düşüncə tərzini formalaşdıran iş üsullarından istifadə etmək, kreativ keyfiyyətləri aşkara çıxarmaqla neft kapitalını intellekt kapitalına çevirmək tələb olunur. Inkişafın sürətlə getməsi yeni baxış, təfəkkür tərzi, hadisələrə çevik və fəal münasibət bildirmək bacarığı tərbiyə etməkdə böyük rolu olan yeni pedaqoji texnologiyaların, fəal (interaktiv) təlim metodlarının, milli təhsil sistemimizin dünya təhsil sisteminə inteqrasiya olunması, müasir üsul və vasitələrin təlimdə tətbiqi nəticəsində reallaşır. Müasir dövrdə Azərbaycanın yeni mərhələyə - modernləşmə dövrünə daxil olması da əldə edilən nəticələri dünyanın təhsil sistemi, idarəetmə modeli, kadr potensialı, infrastrukturu və qabaqcıl dünya təcrübələrinin öyrənilməsi istiqamətində təkmilləşdirməyə istiqamətləndirilir, fərdin, cəmiyyətin, dövlətin təlabatlarına uyğunlaşdırılır.

Tədqiqatçıların fikrincə, XXI yüzillikdə proqramlaşdırmanın və kompüterləşdirmənin nəzəri və praktik cəhətdən təlim prosesinə tətbiqi imkanlarını müəyyənləşdirmək, dərsin hər mərhələsində irəliləyişləri diaqnozlaşdırmaq, təlim texnologiyalarının mövzunun dərindən və maraqla öyrənilməsinə göstərdiyi təsiri aşkara çıxarmaq da tədrisin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Müasir dövrdə informasiya – kommunikasiya texnologiyaları öyrənənin fəallığı və tədqiqatçı qabiliyyətinin inkişaf etdirilməsində imkan və bacarıqların aşkara çıxarılmasına yönəldilir. Qarşıya qoyulan məqsədə çatmaq üçün dərsdə elə bir şərait yaradılmalıdır ki, İKT nəzəri və praktik biliklərə yiyələnməkdə öyrədici mühitin, psixoloji gərginliyin aradan qaldırılmasının, estetik - emosional vəziyyətin, xoş ovqatın yaranmasının inkişafına müsbət təsir göstərsin. Müəllim dərsin əvvəlindən sonuna qədər yalnız dərslikdəki materialları fasilə vermədən göstərməklə, fraqmentlər nümayiş etdirməklə təlimdə müvəffəqiyyət qazana bilməz. Nəzərdə saxlamaq lazımdır ki, şagirdlərə - tələbələrə mövzu ilə bağlı veriləcək tədqiqat sualları, problem mövzu elektron lövhədə canlandırılsın və onlar düşündüklərini əsaslandırmağı bacarsın, tədqiqat işi aparsın, cavablar müzakirə olunsun, nəticə çıxarılıb, yaradıcı tətbiqetmə mərhələsində görülən işlər yerinə yetirilsin.

İnteraktiv dərsin mərhələləri müasir pedaqoji ədəbiyyatlarda geniş tədqiqata cəlb olunsa da, yenə də bu sahədə mübahisə doğuran məsələlər qalmaqdadır. Ali məktəblərdə işin bu istiqamətlərdə təkmilləşdirilməsi, mühazirə və məşğələlərin bu tələblər üzərində qurulması təhsildə müsbət nəticələr qazanmağa imkan yaradır.

Təhsil strategiyasının əsas istiqamətlərində də yer tutan bu məsələləri uğurla davam etdirmək, bir sözlə, təhsili beynəlxalq təcrübəyə uyğunlaşdırmaq və bunun əsasında gələcəyin pedaqoji fəaliyyət proqramını müəyyənləşdirmək yeni yanaşma, yeni pedaqoji təfəkkür tələb edir. Müasir

dövrdə humanist və demokratik prinsiplərə əsaslanılması, müəllim-tələbə əməkdaşlığının yenidən qurulması, yüksək elmi-nəzəri hazırlıq, metodik ustalıq, peşəkarlıq səriştəsi, ünsiyyət mədəniyyətinin formalaşdırılması, təlim fəaliyyəti və əldə olunan nəticələrə görə qiymətləndirmənin aparılması konkret standartlar hazırlanması nəticəsində reallaşdırıla bilər. Bu yanaşma mövqeyi müəllim hazırlığını bu tələblərə uyğun aparmaq, tədris problemlərini həll etməyin müasir metod, üsul və vasitələrini müəyyənləşdirmək zərurətini ortaya qoyur.

Mövcud təhsil sistemi kurikulumun mahiyyəti və məzmunundan irəli gələn vəzifələrin yerinə yetirilməsini ədəbiyyat təlimində də fəaliyyət proqramına çevririr, yeni ideyaların, innovasiyaların təhsilə gətirilməsi və tətbiqini aktuallaşdırır. Bu gün Azərbaycan dili təlimində dinləyib - anlama, oxu, yazı və dil qaydaları, ədəbiyyat dərslərində isə ədəbiyyat və həyat həqiqətləri, şifahi və yazılı nitq standartları istiqamətlərində aparılan işlər təhsillə bağlı bütün fəaliyyətlərin səmərəli təşkilinə, məqsədyönlü və ardıcıl həyata keçirilməsinə imkan yaradır.

Müasir dövrdə təhsil müəsisələrində avtoritar metodikanın yerini əməkdaşlıq, dialoji təlim metodikası tutur. Müasir yanaşmalara görə dərsdə müəllimin rolu dəyişir, onun bilikləri hazır şəkildə vermək funksiyası özünü doğrultmur. O, fasilitator-bələdçi, yol göstərən, öyrənməyi öyrədən mövqeyində çıxış edir, şagird-tələbə isə əməkdaşlıq edir, tədqiqat aparır, fikirlərini əsaslandırır.

Dərsin mərhələlərinin köklü formada dəyişməsi metodikanın təkmilləşdirilməsi problemlərini pedaqoji fikrin müasir yeniliklərinə uyğun aparmağı, qabaqcıl təcrübənin nəticələri ilə əlaqələndirməyi tələb edir. Müasir dövrdə həm də təhsildə aparılan ciddi islahatlar, metodik fikirdə yaranan yeniliklər, pedaqoji texnologiyalar, innovasiyalar müəllimi fərqli metod və üsullarla işləməyə yönəldir. Həlli vacib hesab edilən bu problemlərin müvəffəqiyyətlə yerinə yetirilməsində yaradıcı müəllimlərin əməyini düzgün qiymətləndirmək,fəaliyyətini, maraq və ehtiyaclarını ödəmək məqsədi ilə onların əməyi stimullaşdırılmalı, səriştəyə və qabiliyyətə görə fərqləndirmək prinsipi həllini tapmalı, eyni dərəcəli alimlər arasında gördükləri işin nəticəsinə görə fərq qoyulmalıdır.

Təhsil strategiyasanını əsas istiqamətlərində də təlimin məqsədi, məzmunu, standartları, texnologiyalar, son məqsədə çatmağın yolları, vasitə və üsulları, həmçinin bu sahədə aparılan işin nəticələrini yoxlamağın metod və vasitələri müəyyənləşdirilir. Bununla yanaşı, bir məsələ də düzgün olaraq vurğulanır ki, ədəbiyyat təlimində ənənəvi üsullardan tamamilə imtina etmək düzgün mövqe hesab edilə bilməz: "Yaddan çıxarılmamalıdır ki, uzun illər ərzində ənənəvi təlim üzrə pedaqoji və metodik aspektdə ciddi tədqiqatlar aparılmış, şagirdin müstəqilliyi, fəallığı, təşəbbüskarlığının əhəmiyyəti, idrak fəallığı, fərdi xüsusiyyətlərinin, maraq və qabiliyyətlərinin nəzərə alınmasının zəruriliyi dönə-dönə göstərilmiş, müvafiq metodik göstərişlər işlənmişdir" [1, 124]. Buna görə də təhsilimizin milli - mənəvi və ümumbəşəri ənənələr üzərində qurulması və yeni yanaşma mövqeləri ilə əlaqələndirilərək ədəbiyyatın öyrədilməsi, dərslərin təşkili, metod, üsul və vasitələrin tətbiqi, ümumiyyətlə, təlim prosesləri ilə bağlı bütün fəaliyyətlərin səmərəli nəticələrinin icrası əsas məqsəd kimi seçilməli və həllini tapmalıdır.

Ümummilli lider Heydər Əliyev milli təhsilin bu məzmunda yeniləşdirilməsini diqqət mərkəzində saxlamış və tövsiyələrini vermişdi: "Təhsilin özündə aparılan islahatlar çox vacibdir... Mənim sizə tövsiyəm ondan ibarət olar ki, islahatları düşünülmüş qaydada aparasınız, formalizmə, konyukturaya yol verməyəsiniz, Azərbaycanın milli ənənələrinin üzərindən keçməyəsiniz. Bunlar, həqiqətən, həm Azərbaycan təhsilini dünyanın inkişaf etmiş ölkələrinin təhsili səviyyəsinə ardıcıl surətdə çatdırsın, həm də burada səhvlər buraxılmasın, mövcud yaxşı işlər pozulmasın" [2, 454].

Tam orta və ali təhsil səviyyələrində apardığımız müşahidələr göstərir ki, müəllimlər arasında ənənəvi üsulla dərs keçənlərin sayı qabaqcıl müəllimlərlə müqayisədə üstünlük təşkil edir. Bu iş üsulunu seçən müəllimlər şagirdlərə mümkün qədər çox bilik verməyə çalışırlar. Nəticədə şagirdlər onlara həyatda lazım olmayan anlayışlarla, fakt və hadisələrlə yüklənirlər. Ancaq kurikulumun əsaslarına uyğun dərslərin təşkilinə üstünlük verən qabaqcıl müəllimlərin iş təcrübəsində həyat üçün, şəxsiyyət üçün lazım olan bilik və idraki, sosial və praktik bacarıqların inkişaf etdirilməsinə,

məzmunun nəticələr formasında öyrədilməsinə daha çox diqqət yetirilir. Burada həm də müxtəlif siniflər üçün bu bacarıqlar üzrə təlim nəticələri göstərilir və idraki - bilmə, anlama, tətbiqetmə, təhliletmə, sintezetmə, dəyərləndirmə, affektiv-emosional (ünsiyyətin) - səviyyə, məqbul saymaq, reaksiya vermək, dəyərləndirmək, təşkil etmək, dəyər və ya dəyərlər sistemini xarakterizə etmək, psixomotor-hissetmə, hazırolma, təqlidetmə, mexanizmin mənimsənilməsi, mükəmməl icra, uyğunlaşma, yaradıcılıq kimi bacarıqlar şəxsiyyətin inkişafına yönəldilir, müəllimləri yaradıcılığa, tədqiqat aparmağa, bir- birindən fərqli dərs modelləri yaratmağa şərait yaradır.

Bədii əsərlərin məzmun və təhlili ayrı-ayrı siniflər üzrə nəzərdə tutulan təlim nəticələri və məzmun standartları, əsas və alt- standartlara uyğun öyrədilir. Əgər ənənəvi dərslərdə əvvəlcə dərsin məqsədi yazılıb və fəaliyyətin istiqaməti bunun həllinə yönəldilirdisə, "amma indi biz dərsin məqsədi əvəzinə dərsdə gözlənilən təlim nəticələrini qeyd etməliyik. Həmin təlim nəticələri alt-standartlar əsasında formalaşır" [3, 71]. Sual yarana bilər ki, nə üçün müəllimlərin müəyyən hissəsi təlim-tərbiyə prosesinin gedişini və nəticələri qiymətləndirməkdə yeni yanaşmaları qəbul etməkdə çətinlik çəkir, kurikulumun əsaslarına uyğun dərsləri təşkil etməyi baçarmırlar. Bu, bir tərəfdən təhsildə yeni inkişaf meylləri və ideyalarının öyrənilməsinin, elmi fikirlərin qabaqcıl məktəb təcrübəsindəki yeniliklərdən geri qalmasının metodik təminatının kifayət qədər olmaması, müəllimlərə çap olunan yeni ədəbiyyatları öyrənməyə imkanın yaradılmaması, vaxtlı-vaxtında yeni ideyaların onlara çatdırılmaması ilə bağlıdırsa, digər tərəfdən ali məktəblərdə müəllim hazırlığı səviyyəsinin dövrün tələblərinə uyğun aparılmaması ilə əlaqədardır.

Daha ciddi problemlərdən biri də ali məktəblərdə ədəbiyyat müəllimliyi ixtisasına müəllim peşəsini sevməyən, ədəbiyyata və həmçinin baçqa fənlərə marağı aşağı səviyyədə olan tələbələrin qəbul olunmasıdır. Bu tələbələr bəzən yaxşı oxuyan, ünsiyyət qurmağı və davranış mədəniyyəti ilə fərqlənən tələbələri də asanlıqla öz təsiri altına salmağı bacarırlar. Fikrimizcə, şəxsiyyət- vətəndaşa məxsus xüsusiyyətləri özündə ehtiva etməyən, dünyagörüşü geniş olmayan, milli kimliyi və yenilməzliyini, soykökünü dərk etməyən, söz xiridarı olmayan, sözə dəyər verməyi bacarmayan, zövq və duyum qabiliyyəti formalaşmayan, insanlara ürəyinin hərarətini vermək istəməyən tələbə filologiya fakültəsində təhsil ala bilməz, ədəbiyyat müəllimi olmağa mənəvi haqqı çatmaz. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası Azərbaycan dili və ədəbiyyat müəllimliyi və eləcə də başqa ixtisas fənn müəllimliyinə qəbul imtahanı aparmazdan əvvəl qabiliyyət imtahanı, yaxud müsabiqə keçirilməsini təşkil etmək, bundan sonra müəllim peşəsini sevənlərə seçdikləri ixtisaslara imtahan vermək hüququ vermək haqqında düşünməlidir.

Ali məktəblərdə daha çox mübahisə doğuran məsələlərdən biri də testlərin tərtibi, tələbələrin öyrənmə səviyyələrinin qiymətləndirilməsində onlardan istifadənin təlimə verdiyi müsbət nəticələrin olub-olmaması ilə bağlıdır. Testlər "Şəxsiyyətin inkişafının və formalaşmasının müxtəlif tərəflərini diaqnozlaşdırmaq üçün psixoloji və pedaqoji sınaq növlərindən biridir" [4, 279]. Testlə imtahan aparılması şəffaflığın yaradılmasında, cavabların obyektiv qiymətləndirilməsində ən düzgün yanaşma mövqeyi olsa da, test tələbələri daha çox əzbərçiliyə alışdırır, dərslik və dərs vəsaitlərinin oxunmasına, proqram materiallarının dərindən öyrənilməsinə imkan yaratmır, mütaliəyə marağı azaldır. Bunun nəticəsi də mühazirə və seminar məşğələlərinin dinlənilməməsinə, müəllim şəxsiyyəti və nüfuzuna xələl gətirən məqamların ortaya çıxmasına şərait yaradır. Müşahidələr də göstərir ki, semestr müddətində zəif oxuyan, mühazirə və seminarlarda fəallıq göstərməyən tələbə imtahan zamanı testlərə düzgün cavab verib yüksək qiymət almağı bacarır. Əzbərçiliyin qarşısını almaq üçün testlər mürəkkəbləşdirilməli, ya da testlər əvvəlcədən tələbələrə verilməməlidir. Proqram materiallarını tam əhatə edən suallar hazırlamaq, tələbələrə paylamaq, amma imtahanı testlə aparmaq təlimin keyfiyyətini yüksəldə bilər. İkinci bir yol tam obyektiv mövqe gözlənilməklə imtahanın yazılı formada aparılması təcrübəsidir. Testlə imtahan verən tələbənin aldığı qiyməti yenidən artırmaq üçün onlara yazılı imtahan vermək hüququnun nəzərdə tutulması məqsədəuyğun olardı.

Müasir dövrün əsas xüsusiyyəti olan dinamizm təhsil, təlim-tərbiyə işini təkmilləşdirməyə və modernləşdirməyə daha çox diqqət yetirməyi tələb edir. Bu sahədə dönüş yaratmaq, tələbələri təlim prosesinin bərabərhüquqlu iştirakçısına, müstəqil tədqiqatçısına çevirmək, mühazirə və seminar dərslərini diskussiya və qarşılıqlı əməkdaşlığa əsaslanan dialoq üzərində qurmaq müəllimin bilik səviyyəsi, pedaqoji ustalığı, yeni texnologiyalarla işləməyi bacarması, yaradıcı fəaliyyəti ilə ölçülür. Ali məktəblərdə dərs deyən professor-müəllim heyətinin müəyyən hissəsində bu keyfiyyətlər və müasir yanaşmanın metod, üsul və vasitələrindən istifadə etmək bacarığı aşağı səviyyədədir, yaxud mühazirə və seminar dərslərini daha çox müəllimin hazır bilik verməsi, informasiya ötürücüsü mövqeyində çıxış etməsi üzərində qurulur.

Müşahidələr və aparılan sorğuların nəticələri göstərir ki, müəllimlərin mühazirə və seminar dərslərini aparmasına münasibəti dəyişməli, dəqiq desək, mühazirədə ancaq öyrədənin fəallığı, mühazirə oxuması və öyrənənlərin hamısının dinlədiklərini yazmaması, seminar dərslərində isə diskussiya aparmaq əvəzinə, ancaq dərs soruşulması, müəllimin sözünə daha çox üstünlük verilməsi bütün tələbələri fəallaşdırmır, təlimə maraq oyatmır. Tələbələrin bəzilərinin dərsdə səs-küy salması və mühazirə zamanı heç bir qeyd aparmamasının səbəbi araşdırılmalı, buna qarşı ciddi tədbir görülməlidir. Qarşıya çıxan problemləri həll etmək üçün tələbələrin dərsə davamiyyəti ilə yanaşı, onların mühazirə dəftərlərinin olub-olmamasına görə bal vermək bilik və bacarıqların qiymətləndirilməsinə müsbət təsir göstərə bilər.

Müasir pedaqoji tədqiqatlarda diskussiya aparmağa, fərqli fikirlərin ortaya çıxmasına imkan yaradan yeni texnologiyalardan istifadə etnək və nəticələrə görə qiymətləndirmə aparmaq əsas hədəf kimi seçilir, araşdırmalar aparılır. Hər bir dərsdə problem qoyulması, elmi istiqamətlərin seçilməsi, təlim nəticələrini təsdiq edən faktların əsaslandırılması müəllimin diqqət mərkəzindən kənarda qala bilməz. İş prosesində müxtəlif fikirləri ortaya çıxaran suallardan istifadəni, fəal/interaktiv təlimin və interaktivliyin xüsusiyyətlərini nəzərə almaq, dialoq və əməkdaşlıq mövqeyini gözləməklə dərsləri təşkil etmək təlimin səmərəli vasitələri kimi seçilə bilər.

Bu məsələləri yerinə yetirməkdə, ölkəmizdə aparılan kurikulum islahatları sahəsində mövcud olan nöqsanları aradan qaldırmaqda ən başlıca amillərdən biri kadrların hazırlanması və ali məktəblərdə oxunan mühazirələrin keyfiyyəti, seminar dərslərinin yüksək səviyyədə təşkili ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyev də tövsiyə edirdi ki, "Hər bir insan həyatda öz yerini tapmalıdır. Amma öz yerini, özünəməxsus yeri tapmalıdır". Bu baxış müstəvisindən yanaşsaq görərik kı, Təhsil Naziri Mikayıl Cabbarov insanlara dövlətçilik ənənələrimizə sadiqliyinə, səriştəsinə, intellekt səviyyəsinə, daim yaradıcılıq axtarışlarında olmasına, milli-mənəvi və ümumbəşəri dəyərləri yaşatmasına, elm və təhsil sahəsindəki uğurlarına görə qiymət verməyi daha çox təhsilin prioritet sahəsi kimi qəbul edir. Təəssüflər olsun ki, ədəbiyyat tədrisi metodikası üzrə doktorant və dissertanturaya ayrılan yerlərin məhdud olması, qabaqcıl müəllimlərin iş təcrübələrinin dərindən öyrənilməməsi, onların əldə etdikləri uğurların tələbələrə istənilən səviyyədə çatdırılmaması, yeniliklərin müzakirəyə şıxarılmaması, müdafiə etmiş metodist alimlərin əməyindən geniş istifadəyə imkan yaradılmaması, pedaqoji fəaliyyətə cəlb edilməməsi istiqamətlərində çatışmazlıqlar mövcuddur.

Düşünürük ki, ədəbiyyat müəllimi hazırlığı və tədris prosesinin təkmilləşdirilməsində mühüm əhəmiyyət kəsb edən araşdırdığımız problemlər professor- müəllim heyətinin nüfuzunun yüksəldilməsinə, kadr hazırlığı səviyyəsinin yaxşılaşdırılmasına, təlimə marağın gücləndirilməsinə, qarşılıqlı əməkdaşlıq və dialoji təlim metodikasının hazırlanmasına, ölkəmizdə kurikulumun əsaslarının nəzəriyyə və təcrübəsinin dərindən öyrənilməsinə müsbət təsir göstərəcəkdir. Bu həm də ədəbiyyat dərslərində bədii əsərin oxunmasına, müxtəlif zövqlərin formalaşmasına, bədii yaddaşın inkişafına, mətn üzərində işin səmərəli təşkilinə də geniş imkan yaradacaqdır.

***Elmi yeniliyi:*** Məqalədə ədəbiyyat müəllimi hazırlığı və tədris problemləri araşdırılır, mövcud vəziyyət təhlil olunur, qarşıya çıxan nöqsanları doğuran səbəblərin həlli yolları göstərilir,

mühazirə və seminarların müasir tələblərə uyğun təşkil edilməsinin üsul və vasitələri müəyyənləşdirilir.

***Tətbiqi əhəmiyyəti:*** Tətbiqi və tədqiqi zəruri hesab edilən problemlərin ədəbiyyat müəllimliyinə tələbə qəbulunun aparılmasında, ali məktəblərdə keyfiyyətli kadr hazırlığında, mühazirə və seminar dərslərinin təşkilində, müasir təhsilə yeni baxışın, ideyaların formalaşmasında, imtahanların testlə keçirilməsinin yeniləşdirilməsində nəzərə alınması müsbət nəticələr verə bilər.

## ƏDƏBİYYAT

1. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2014, 424 s.
2. Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, 454 s.
3. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı: ADPU , 2014, 293 s.
4. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı: Elm və təhsil, 2012, 464 s.

## РЕЗЮМЕ
## ПОДГОТОВКА УЧИТЕЛЯ ЛИТЕРАТУРЫ И ПРОБЛЕМЫ ОБУЧЕНИЯ

***Асланов Ю.Ю., Рафиева А.И.***

***Ключевые слова:*** *межпредметная связь в преподавании литературы, модель управления, кадровая подготовка, информацонно-коммуникационная технология, тесты, вступительные экзамены, организация лекций и практических семинаров*

Проблемы обучения и подготовки учителя литературы в соответствии с направлением современной системы образования реализуется в период решения вопросов соблюдения этапов интерактивного урока, взаимосотрудничества, построения диалогов, использования ИКТ, усовершенствования тестов, учета интереса к профессии во время приемных экзаменов и др.

## SUMMARY
## A LITERARY TEACHER TRAINING AND TEACHING PROBLEMS

***Aslanov Y.Y., Rafiyeva A.I.***

***Key words:*** *integration in literature training, management model, cadre preparation, information communication technology, tests, entrance exams, organization lectures and practice seminars*

Literature teacher training and teaching problems adapting to the direction of modern education system, the stages of interactive lesson, mutual corporation, dialogues instruction, using information communication technologies, improvement of tests, accounting of an interest in profession during entrance exams and ETC have been realized in the period of solving problems.

Daxil olma tarixi: Ilkin variant 18.05.2015
Son variant

**UOT 847**

# MÜXTƏSƏR VƏ GENIŞ CÜMLƏNIN TƏDRISINDƏ FƏAL/INTERAKTIV TƏLIM METODLARINDAN ISTIFADƏ

**ƏŞRƏFOV RÜSTƏM QULU oğlu**
*Sumqayıt Dövlət Universiteti, dosenti*
*e-mail: rustam.eshrefov@gmail.com*

***Açar sözlər:*** *sintaksis, cümlə, sadə cümlə, cüttərkibli cümlələr, müxtəsər cümlə, geniş cümlə, fəal/interaktiv təlim metodları.*

Məzmun mətndə ifadə olunan bitkin fikir, forma isə həmin məzmunu ifadə edən maddi qabıqdır. Bu baxımdan müxtəsər və geniş cümlənin tədrisində məzmun və formanın qarşılıqlı əlaqəsinə əsaslanmaq, onları vəhdətdə götürmək son dərəcə vacibdir.

Dünyada gedən dərin ictimai-siyasi və tarixi-mədəni dəyişikliklər Azərbaycan təhsilinin fəal-interaktiv təlim əsasında aparılmasını, ayrı-ayrı fənlərin kurikulumun tələblərinə uyğun öyrədilməsini aktuallaşdırır. Bu, ciddi və həlli yolları axtarılan təhsil sistemi Azərbaycan dilini ümumtəhsil məktəblərində tədris etməkdə yeni yanaşma mövqeyi, metod, üsul və vasitələrdən istifadə etməyi tələb edir. Əsas tələb dinləyib-anlama və danışma, oxu, yazı və dil qaydaları məzmun xətləri üzrə təlim nəticələrinin həllini tapmasına istiqamətləndirilir. Azərbaycan dili fənni üzrə təhsil proqramında (kurikulumda) bu məsələ vacib tələb kimi nəzərdə tutulmuş, şagirdlərin dinlədiyi məlumatları ümumiləşdirmə bacarıqlarını formalaşdırmaq təlim nəticəsi kimi göstərilmişdir [1,61-62].

Məlumdur ki, müxtəsər və geniş cümlələrin tədrisində təqdim olunan anlayışların, qrammatik məfhumların mənimsənilməsi, nəzəri materialların möhkəmləndirilməsi, bu işin qarşısında qoyulan məqsədin həyata keçirilməsini təmin etmir. Əksinə, şagirdlər Azərbaycan dilindəki müxtəsər və geniş cümlələrin tədrisində təqdim olunan hər hansı fakt və hadisəni, qaydanı ona oxşar olanlardan ayırmağı, fərqli cəhətləri müəyyənləşdirməyi, ayrı-ayrı faktlardan ümumiləşmiş nəticələr çıxarmağı, başqa sözlə, nəzəriyyədən praktikaya, praktikadan nəzəriyyəyə doğru irəliləməyi bacarmalıdırlar [2, 8-15].

Müxtəsər və geniş cümlələrin tədrisində nəzəri materiallar praktik çalışmaların köməyi ilə dərindən mənimsədilir, qazanılan biliklər möhkəmləndirilir, orfoqrafiya və nitq inkişafı sahəsində zəruri vərdişlər aşılanır. Müəllim həm dərsliklərdəki çalışmalardan, həm də ehtiyac duyduqda dərslikdəki çalışmaların məzmununda, quruluşunda, sistemində dəyişiklik aparmaqla özünün hazırladığı müxtəlif xarakterli çalışmalardan istifadə edir [3, 30-31].

Yeni təlim texnologiyalarından istifadə etmədən müasir şagird konteksini yüksək intellektual səviyyəli şəxsiyyət kimi yetişdirmək mümkün deyildir. Odur ki, dərslərimizdə fəal (interaktiv) təlim metodlarına üstünlük verilir, VIII sinifdə Azərbaycan dili fənnindən “Müxtəsər və geniş cümlə” mövzusunun tədrisinə 4 saat vaxt ayrılmışdır. Ancaq baş üzvlərdən və ya təkcə xəbərdən ibarət olan cümləyə müxtəsər cümlə deyilməsi, ikinci dərəcəli üzvü və ya ikinci dərəcəli üzvləri olan cümləyə geniş cümlə deyilməsi, rabitəli nitqin inkişafında sadə, geniş cümlələrdən istifadənin əhəmiyyəti proqramda geniş yer tutmuşdur [4,132-138].

Nəzəri dilçiliyin sintaksis bölməsində baş üzvlərin iştirakına görə sadə cümlə iki növə bölünür: cüttərkibli cümlələr, təktərkibli cümlələr.

Hər iki baş üzvün iştirak etdiyi cümlələrə cüttərkibli cümlələr deyilir.

Məsələn: Zəng vurulur. Dərs başlanır. Müəllim sinfə daxil olur. Şagirdlər ayağa qalxırlar və s. I və II şəxslərin tək və cəmində mübtədası nəzərdə tutulub, lakin buraxılan cümlələr də cüttərkibli cümlələr sayılır.

Cüttərkibli cümlələr ikinci dərəcəli üzvlərin iştirakına görə iki növə bölünür: müxtəsər və geniş.

Yalnız baş üzvlərdən ibarət olan cümlələr müxtəsər cümlə, baş üzvlərlə yanaşı, ikinci dərəcəli üzvlərin də iştirak etdiyi cümlələr isə geniş cümlə sayılır.

Məsələn: Qapı açıldı (müxtəsər). Qapı taybatay açıldı (geniş). Cüttərkibli cümlələrin hamısı eyni zamanda şəxsli cümlələrdir. Qrammatikada "şəxs" dedikdə mübtəda nəzərdə tutulur.Cüttərkibli cümlələrdə mübtəda ya iştirak edir, ya da asanlıqla bərpa olunur [5, 157-159].

**Mövzu:** Müxtəsər və geniş cümlə.

**Məqsəd:** Şagirdlərə müxtəsər və geniş cümlələri öyrətmək:

a) Leksik mənasını anlatmaq;
b) Qrammatik xüsusiyyətlərini öyrətmək;
c) Quruluşca sadə cümlə olduğunu anlatmaq;
d) Adi danışıq dilimizdə (məişətdə) və bədii ədəbiyyatda işlənmə mövqeyi;
e) Müxtəsər və geniş cümlələrin fərqli və oxşar cəhətlərini aydınlaşdırmaq.

**İş forması:** Bütün siniflərlə iş, qruplarla iş.

**İş üsulu:** Beyin həmləsi (klaster) şaxələndirmə, müzakirə, diskussiya, Venn diaqramı.

**Təchizat:** 8-ci sinif üçün dərslik (müəllifləri: Q.Kazımov, F.Şahbazlı), sxemlər, iş vərəqləri, elektron vəsait, tabaşir.

**I mərhələ: Dərsin motivasiyası.**

Liderlər seçildikdən sonra onlara ev tapşırıqlarını yoxlamaq tapşırılır. Liderlər ev tapşırıqlarını kəmiyyətcə yoxlayıb məlumat verdikdən sonra tapşırıqları keyfiyyətcə yoxlamaq məqsədilə ayrı-ayrı qrup şagirdlərinə cümlələri bir-bir oxutdurub, lazım gələrsə, nöqsanları düzəltdiririk.

Əqli hücum üsulundan istifadə edərək keçmiş mövzuya aid kiçik müsahibə təşkil edilir.

Müəllim: Söz birləşmələri quruluşca neçə cür olur?

Şagird: Söz birləşmələri quruluşca sadə və mürəkkəb olur. İki sözdən ibarət olan birləşmələrə sadə, üç və daha artıq sözdən ibarət olan birləşmələrə mürəkkəb söz birləşmələri deyilir.

Müəllim: Kim sadə söz birləşmələrinə aid nümunələr deyə bilər?

Şagird: Vətən sevgisi, dərs əlaçısı, şəhərin küçələri, dənizin dalğaları, yaxşı oxumaq, tapşırıqları yazan, ağac əkəndə və s.

Müəllim: Kim mürəkkəb söz birləşmələrinə aid nümunələr söyləyə bilər?

Şagird: Nar ağacının budaqları, İmranın papağının rəngi, dəslərə birlikdə hazrlaşmaq, ev tapşırıqlarını yazan, yoldaşları ilə məktəbə gedəndə və s.

Müəllim: Bəs cümlə üzvləri quruluşca neçə cür olur?

Şagird: Cümlə üzvləri də quruluşca iki cür olur: sadə və mürəkkəb.

Müəllim: Sadə cümlə üzvü nəyə deyilir?

Şagird: Bir sadə, düzəltmə və ya mürəkkəb sözdən ibarət olan üzvə sadə cümlə üzvü deyilir.

Müəllim: Bəs tərkibində mürəkkəb üzvü olan cümlə haqqında nə deyə bilərsiniz?

Şagird: İki və daha çox sözlərdən ibarət olan üzvlərə mürəkkəb üzvlər deyilir.

Müəllim: Kim tərkibində mürəkkəb üzvü olan cümlə deyə bilər?

Şagird: Azərbaycan Respublikası öz təbii sərvətləri ilə bütün dünyada məşhurdur. Bu cümlədə "Azərbaycan Respublikası" mürəkkəb adla ifadə olunmuş mürəkkəb mübtədadır.

Sinfin təşkilindən dərhal sonra qruplar yaranır və liderlər seçilir. Hər bir qrupa ad verilir:

**1-ci qrup** - "Azərbaycan"
**2-ci qrup** - "Qarabağ"
**3-cü qrup** - "Vətən"
**4-ci qrup** - "Qələbə"

Müəllimin sualı: Nə üçün qruplarınıza belə adlar verdiniz?

1-ci qrupun cavabı:

Biz öz qrupumuzu "Azərbaycan" adlandırmışıq. Məqsədimizi Ə.Cavadın aşağıdakı şeiri ilə bildiririk:

Torpağına can demişəm,
Suyuna mərcan demişəm,
Canımı qurban demişəm
Canım, gözüm, Azərbaycan.

2-ci qrupun cavabı:

Qarabağ Azərbaycanın dilbər guşəsidir. Unutmamalıyıq ki, hər bir azərbaycanlının bir "Qarabağ dərdi" var:

Mən aşiqəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Aləm cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

3-cü qrupun cavabı:

Vətən mənə 2 gözümdən əzizdir. A.Səhhətin sözləri ilə desək:

Vətəni sevməyən insan olmaz,
Olsa, o şəxsdə vicdan olmaz.

4-cü qrupun cavabı:

Xalqımızın "Qarabağ yarası" sağalacaq. "Qələbə" adını qrupumuza ona görə verdik ki, qələbə bizimlədir.

Sinfə cümlə haqqında suallar verib şagirdlərin dilin ən böyük və mükəmməl vahidi olan cümləyə dair biliklərini yada salırıq. Daha sonra Klaster – şaxələndirmə üsulundan istifadə edirik. Lövhənin mərkəzində "cümlə" sözünü yazır və şagirdlərlə birlikdə cümləyə dair bilikləri yada salaraq şaxələrə ayırırıq.

Cümlələrin içərisində müxtəsər və geniş cümlə xüsusi olaraq nəzərə çarpdırılmaq üçün başqa rəngdə yazılır. Yenidən sinfə müraciət edirik: Siz cümlə haqqında kifayət qədər biliyə maliksiniz. Onda deyə bilərsinizmi ki, (problemli sual) cümlə haqqında doğrudanmı hər şeyi bilirsiniz?

Müxtəlif cavablar alınır. Şagirdlərin cavablarından məlum olur ki, onlar müxtəsər və geniş cümlə haqqında o qədər də geniş məlumata malik deyillər (baxmayaraq ki, müəyyən şəxsli cümlə bəhsində bu barədə məlumat verilir).

Əvvəlcə müxtəsər sözünün leksik mənasını izah edirik. Ərəb sözüdür. Mənası qısa, yığcam deməkdir. Geniş sözünün antonimidir.

Bundan sonra kompüterdən istifadə edirik. Vaxt məhdudiyyəti aradan qaldırılır. Monitorda aşağıdakı sxemlər görünür.

**II mərhələ - Tədqiqatın aparılması**

Şagirdlərə hər qrup üçün iş vərəqləri paylanır. Fikirləşmək üçün vaxt verilir.

**I qrup**

1. Baş üzvlər əsasında formalaşan müxtəsər cümlələrdə 2-ci dərəcəli üzvlər də iştirak edə bilərmi? Fikrinizi əsaslandırın.
2. Verilmiş cümlələrin içərisindəki geniş cümlələri qruplaşdırın.
   1) Zərifə çiçəkləri suladı.
   2) Körpə beşikdə mürgülədi.
   3) Şəhərin küçələri təmizlənir.
   4) Məktəbin şagirdləri olimpiadanın qalibləridir.
   5) M.Kaşğari türkologiyanın banisidir.
   6) Kitab böyük müəllimdir.

a) 1, 2, 6 b) 1, 2, 5 c) 3, 4, 5 d) 1, 5, 6 e) 4, 5, 6

3. Geniş cümlə nəyə deyilir?

Müxtəsər cümlə

Mübtəda və xəbərdən ibarət olan cümlələrə, yaxud təkcə xəbərdən ibarət olan cümlələrə müxtəsər cümlə deyilir.

Mübtəda və xəbərdən ibarət olanlar.
Zəng çalındı.
Dərs başlandı.

Yalnız xəbərdən ibarət olanlar.
Səhərdir.
Axşamdır.

Geniş cümlə

İkinci dərəcəli üzvləri olan cümlələrə geniş cümlələr deyilir.

Mübtədası olanlar:
Ana dili xalqın milli-mənəvi sərvətidir.

Mübtədası olmayanlar:
Ayazlı, şaxtalı bir qış axşamı
Yeddi yoldaş olub yola düzəldik.

**II qrup**

1. Mübtədası olmayan bir neçə müxtəsər cümlə yazın.
2. Tərəfləri söz birləşmələri ilə ifadə olunmuş müxtəsər cümlələri seçin.
   1) Hava qaraldı.
   2) Qatar yola düşdü.
   3) Şahinin atası təyyarə mühəndisidir.
   4) M.Kazımbəy rus şərqşünaslığının atasıdır.
   5) Qəhrəmanlar ölmürlər.

a) 1, 2, 5 b) 1, 4, 5 c) 3, 4 d) 3, 5 e) 2, 3

3. Geniş cümlələrdə mübtəda buraxıla bilərmi? Fikrinizi nümunələrlə əsaslandırın.

**III qrup**

1. Tərkib hissələri müxtəsər cümlələrdən ibarət olan 2 mürəkkəb cümlə yazın. Həmin cümlələrin qrammatik əsasını şərti işarələrlə göstərin.
2. Verilmiş cümlənin geniş cümlə olduğunu əsaslandırın və 2-ci dərəcəli üzvlərin ifadə vasitələrini müəyyən edin:
   "Mədəndən qayıdan fəhlələr avtobusa mindilər".
3. "Dəfələlrlə dəniz limanından geri qayıtmışdıq" cümləsinin mübtədasını bərpa edin və həmin cümlələrin müxtəsər və ya geniş cümlə olduğunu göstərin. Bu cümlədə hansı sintaktik əlaqə vardır?

**IV qrup**

1. Müxtəsər cümlənin tərkib hissələri arasında hansı sintaktik əlaqələr olur? Misal deyin. Əsas və asılı tərəfləri göstərin.
2. Verilmiş sxemlərə uyğun müxtəsər və ya geniş cümlələr düzəldin.
   a) ____________ ═════════════
   b) ____________ ___________ ════════════════
3. Gəl çıxaq seyrinə uca dağların,
   Çəmən olan yerdə, xalça nə lazım?
   İçək saf suyundan buz bulaqların,
   Lilpər olan yerdə, dolça nə lazım?
   Şeir parçasını diqqətlə oxuyun. Mübtədası buraxılmış cümlələri müəyyənləşdirib uyğun gələn sözü yerinə qoyaraq nəsrə çevirin. Cümlənin müxtəsər və ya geniş olduğunu əsaslandırın [6, 87-95].

**III mərhələ: Məlumat mübadiləsi və müzakirəsi.**

Şagirdlərin cavabları alınaraq, səhv və ya düzgün olduğu şagirdlərlə birlikdə müzakirə edilib qiymətləndirilir. (Həm şagirdlər bir-birinə, həm də müəllim şagirdlərə qiymət verir).

Azərbaycan dili və ədəbiyyat ayrı-ayrı fənlər kimi tədris edilsə də, onlar bir-biri ilə qırılmaz surətdə bağlıdır. Odur ki, ədəbi nümunələr və xalq deyimləri müxtəsər və geniş cümlələrdə öz əksini necə tapdığı şagirdlərlə birlikdə araşdırılır. Nümunələr aşağıdakı kimi olur:

Bu zaman dil qaydaları ədəbiyyata inteqrasiya edilir.

1. Elm ağlın çırağıdır. (Atalar sözü) müxtəsər cümlə.
2. İş insanın cövhəridir. (Atalar sözü) müxtəsər cümlə.
3. Ehtiyat igidin yaraşığıdır. (Atalar sözü) müxtəsər cümlə.
4. Ağılsız köpəklər ulduza hürər (S.Vurğun. "Vaqif) geniş cümlə və s.

Bu səpkidə deyimlər istənilən qədərdir və şagirdlərin tərbiyəsində mühüm rol oynayır.

**IV mərhələ : Nəticələrin çıxarılması.**

Venn diaqramından istifadə edilərək müxtəsər və geniş cümlələrin fərqli və oxşar cəhətlərinin müqayisə edilməsinə nail olunur. Venn diaqramını yazı taxtasına çəkir, müxtəsər və geniş cümlələr haqqında şagirdlərin öyrəndikləri müzakirə edilir, fərqli və oxşar cəhətləri üzə çıxarılır [7, 207-210].

**V mərhələ**: **Yaradıcı tətbiqetmə.**

Şagirdlərin cavablarını yekunlaşdıraraq "Vətən" mövzusunda kiçik bir inşa yazını evdə yerinə yetirmək tapşırılır, bu inşa yazıda bacardıqca sadə və müxtəsər cümlələr qurmaq və yeri gəldikcə atalar sözləri, məsəllər və başqa bədii ifadələrdən də istifadə etmək şagirdlərə məsləhət görülür.

Nəhayət, dərs prosesində keçirilən bilik yarışının nəticələri bütün mərhələlər üzrə yekunlaşdırılır, qalib komandalar elan edilir və qiymətləndirilir. Hər 4 komandanın üzvlərinə dərslərində uğurlar arzu edildikdən sonra dərsdə fəal iştirak edənlərə bayraqcıqlar və kiçik hədiyyələr verilir. Evə tapşırıq üçün dərslikdə olmayan test tapşırıqlarını yerinə yetirmək tapşırılır [8, 38-48].

Nümunəvi dərsin təşkili göstərdi ki, müxtəsər və geniş cümlələrin tədrisinin bu cür aparılması onlarda bilik, bacarıq və vərdişləri daha da dərinləşdirir, qazanılan biliklərini möhkəmləndirir, onların nitq və təfəkkürlərini inkişaf etdirir. Nəticə etibarı ilə məktəblilər bu qazandıqlarına əsasən digər fənləri də (Ədəbiyyat fənni də) dərindən və şüurlu mənimsəyir, öyrəndikləri nəzəri materialları praktik çalışmalara bacarıqla tətbiq edə bilirlər. Şübhəsiz, bu da onların doğma dilə həssas münasibətlərinin, dünyagörüşlərinin formalaşmasına güclü təsir göstərir [9, 66-67].

***Elmi yeniliyi*****:** Məqalədə sintaksisin müasir problemləri tədqiq olunur, təlimdə müxtəsər və geniş cümlənin nəzəri əsasları dəqiqləşdirilir, bunun Azərbaycan dili dərslərində yeri, rolu və əhəmiyyəti göstərilir.

***Tətbiqi əhəmiyyəti***: Təlimdə müxtəsər və geniş cümlənin nəzəri və praktik əhəmiyyəti araşdırılır ki, bu da Azərbaycan dilinin tədrisində müəllimlərə fəal interaktiv təlim metodlarından daha geniş istifadə etməyə imkan yaradır.

## ƏDƏBIYYAT

1. Azərbaycan Respublikasında Ümumi Təhsilin Konsepsiyası (Milli Kurikulum). Bakı, 2006.
2. Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2009.
3. Veysova Z. Fəal (interaktiv) təlim. Müəllimlər üçün vəsait. Bakı: Elm, 2007.
4. Azərbaycan dili. VIII sinif. Bakı: Təhsil, 2012.
5. Azərbaycan dili. Bakı: Təhsil, 2002.
6. Həsənov N. Azərbaycan dili sintaksisinin tədrisində qarşıya çıxan çətinliklər. Bakı: 1987.
7. Kərimov Y.Ş. Təlim metodları bakı, 2007.
8. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün Azərbaycan dili proqramları. Bakı: 2002.
9. Abdullayev N. Fəal təlim zamanı qruplarla işin təşkili. "Azərbaycan məktəbi" jurnalı №6, 2013.
10. Balıyev H.B., Balıyev A.H. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: 2014

## РЕЗЮМЕ
## ПРИМЕНЕНИЕ АКТИВНОГО /ИНТЕРАКТИВНОГО МЕТОДА ОБУЧЕНИЯ В ИЗУЧЕНИИ НЕРАСПРОСТРАНЕННЫХ И РАСПРОСТРАНЕННЫХ ПРЕДЛОЖЕНИЙ

***Ашрафов Р.Г.***

***Ключевые слова:*** *синтаксис, предложения, простое предложения, двусоставное предложение, нераспространенное предложение и распростра-ненное предложение, обучение активным /интерактивным методом.*

В статье исследуется теоретическое и практическое значение распространенных и нераспространенных предложений, что позволит широко использовать метод активного /интерактивного обучения на занятиях по азербайджанскому языку.

**SUMMARY**

**USING ACTIVE INTERACTIVE LEARNING METHODS IN THE TEACHING OF UNEXTENDED AND WIDE SENTENCES**

***Ashrafov R.G.***

***Key words**: sentence, simple sentence, two member sentences, unextended sentence, wide sentence, active interactive learning, methods*

In the article the unextended and wide sentences are investigated theoretically and practically in the active learning, it makes opportunity for teachers to use active interactive learning methods in teaching of the Azerbaijani language.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | Ilkin variant | 09.06.2015 |
| | Son variant | |

**UOT 801.56**

## SİNTAKSİSDƏ SÖZ BİRLƏŞMƏLƏRİNİN TƏDRİSİ İLƏ BAĞLI BƏZİ MƏSƏLƏLƏR

**ŞİRİNOVA MAYQUBA MÖVLUD qızı**
*Sumqayıt Dövlət Universiteti, baş müəllim*
*e-mail:*

***Açar sözlər:*** *sintaksis, sintaktik əlaqələr, söz birləşmələri, sintaktik təhlil, morfonologiya*

Söz birləşmələri mövzusu tələbələrdə müvafiq bilik, bacarıq və vərdişləri formalaşdırmaq baxımından geniş didaktik imkanlara malikdir. Bu, hər şeydən əvvəl, söz birləşmələrinin öz linqvistik xarakteri ilə səciyyələnir. Bir sıra kateqoriyalar söz birləşmələri zəminində reallaşır və onların izahı belə birləşmələrə əsaslanır. Söz birləşmələrinin təbiəti söz və cümlə ilə qarşılıqlı əlaqə və münasibətdə aydınlaşır.(5.5) Söz birləşmələrinin Azərbaycan dili kursunda müxtəlif aspektlərdən öyrənilməsi də bununla əlaqədardır. Söz birləşmələrini həm nominativ və həm də sintaktik vahid kimi kimi öyrənmək, başlıca diqqəti isə onların morfoloji cəhətinə yönəltmək lazımdır.

Söz birləşməsi və onun tədrisi qarşısında, təxminən, aşağıdakı tələblər qoyulur: 1) söz birləşmələri haqqında məlum bilikləri ümumiləşdirmək və dəqiqləşdirmək; 2) tələbələrə söz birləşmələrinin başlanğıc forması, isim kimi hallara və mənsubiyyətə görə dəyişə bilməsi haqqında yeni məlumat vermək; 3) onlara söz birləşmələrinin digər söz birləşmələrindən, sözdən və cümlədən fərqini öyrətmək; 4) söz birləşmələrinin komponentləri arasındakı əlaqələrlə şagirdləri tanış etmək.

Bu vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi, nəticə etibarilə, cümlənin (sadə və mürəkkəb cümlənin məna və quruluşunun), cümlə üzvlərinin dərindən öyrənilməsi üçün möhkəm zəmin yaratmalıdır. Lakin müşahidələr göstərir ki, həmin vəzifələr heç də həmişə sistemli şəkildə həyata keçirilmir. Bu, bir sıra amillərlə bağlıdır. Biz burada həmin amillərdən bəziləri üzərində konkret olaraq dayanmağı məqsədəuyğun hesab edirik.

Məlumdur ki, Azərbaycan dilinin sistematik siktaksis kursunda söz birləşmələri xüsusidən ümumiyə metodu əsasında öyrədilir.

Tələbələr, adətən, çoxişlək söz birləşmələri tiplərindən daha çox təyini söz birləşmələrini tanıyır, cümlədən, əsasən, təyini söz birləşmələrini seçməyi bacarırlar və s. Ən başlıcası isə öz nitqlərində bunlardan bəzən yerli-yerində (məqamında) istifadə edə bilmirlər. Bütün bunların başlıca səbəblərindən biri söz birləşmələrinə aid məlumatı yalnız təyini söz birləşmələri ilə məhdudlaşdırmaqdan, başqa şəkildə desək, söz birləşmələrinin tədrisində xüsusidən ümumiyə metoduna əsaslanmaqdan irəli gəlir. Azərbaycan dilinin sistematik sintaksis kursunda söz birləşmələrinin müxtəlf tiplərini ümumidən xüsusiyə metodu əsasında tədris etmək tələbələrə bu sintaktik vahid haqqında əsaslı və sistemli biliklər aşılamaq baxımından daha məqsədəuyğundur. Bu, eyni zamanda, söz birləşmələrini dilin başqa bölmələri ilə əlaqəli tədris etmək üçün də mühüm əhəmiyyətiə malikdir.

Sintaksisin tədrisi zamanı tələbələrin qarşılaşdığı nəzəri məlumat onların elmi dünyagörüşlərini formalaşdırmaqla sıx əlaqədardır. Şübhə yoxdur ki, tələbələrin zehnini dilçiliyin heç də asan sayılmayan anlayış və hökmləri ilə yükləmək olmaz. Nəzəri məlumatın öyrənilməsinə təbii şəkildə ehtiyac duyulmamalıdır. Tələbələrə söz birləşməsi və cümlənin qrammatik mənaları haqqında nəzəri məlumat verilməsi də belə bir ehtiyacdan yaranmışdır.

Dərslikdə söz birləşmələrinin qrammatik mənası bir cümlə ilə verilir: “Söz birləşmələri də sözlər kimi, əşyaları, onların əlamətlərini, hərəkətini ifadə edir, lakin əşyanı, əlaməti və ya hərəkəti

tək-tək sözlərdən daha konkret, daha dəqiq şəkildə ifadə etməyə imkan verir".(4.36) Məlumdur ki, bu məlum tezisdə söz birləşmələrinin qrammatik mənasından daha çox onun funksiyası ümumiləşmişdir.

Bəs söz birləşmələrinin qrammatik mənası necə izah olunmalıdır. Bu məsələnin üzərində xüsusi olaraq dayanmaq lazımdır. Çünki bu, həmin vahidin dil və nitq xüsusiyyətlərini üzə çıxarmaq cəhətdən əhəmiyyətlidir. Qeyd etmək lazımdır ki, söz birləşmələrinin qrammatik mənası, hər şeydən əvvəl, onun qurulması ilə sıx surətdə bağlı məsələdir. Deməli, bunları bir-birilə qarşılıqlı əlaqədə izah etmək lazımdır. Məsələn: 1) iyirmimərtəbəli bina, günəşli respublika, dənizdəki buruqlar, meyvəli bağlar – strukturuna görə ümumi olduğu kimi, qrammatik mənalarına görə də ümumidir. Hər birinin qrammatik mənasında əşya ilə onun əlaməti ifadə olunmuşdur;

**2) Mehdinin qəhrəmanlıqları, Göy-gölün mənzərələri, sürünənlər sinfi, şəkilçilərin yazılışı** tipli söz birləşmələri strukturuna görə ümumi olduğu kimi, qrammatik mənalarına görə də ümumidir: Hər birinin qrammatik mənasında, sahiblik-aidlik ifadə olunmuşdur; **3) səylə oxumaq, tez şumlamaq, ilhamla danışmaq, cəsarətlə irəliləmək, mərdliklə ömür sürmək** tipli söz birləşmələri strukturuna görə ümumi olduğu kimi, qrammatik mənalarına görə də ümumidir. Qrammatik mənalarında hərəkətlə əlamət (tərz) arasındakı münasibət ifadə olunmuşdur**; 4) əlləri mazutlu, söhbəti şirin, sözü məzəli, dostluğu möhkəm, xəyaldan şirin, arzudan gözəl, günəş həvəsli** tipli söz birləşmələri strukturuna görə də ümumi olub əşya-əlamət münasibətini ifadə edir.

Qrammatik mənaya, eyni zamanda, əsas və asılı tərəflərin qrammatik mənası, onların arasındakı sintaktik əlaqənin tipi də daxildir. Bir sözlə, strukturuna görə eyni olan söz birləşmələrinin ümumi mənası onların qrammatik mənası hesab edilir. Deməli, söz birləşmələrinin qrammatik mənasına daxil olan tərəflər arasındakı daxili mənanı-məntiqi əlaqəni tələbələrə öyrətmək lazımdır, əks halda proqramın ən mühüm bir tələbi- tələbələrin məntiqi təfəkkürünü inkişaf etdirmək tələbi söz birləşmələrinin tədrisi prosesində unudulmuş olardı.

Məlumdur ki, dərsliklərdə söz birləşmələrinin də sözlər kimi başlanğıc formaya malik olması haqqında məlumat verilir. Bu, əlbəttə, hər iki vahidin oxşar cəhətlərini göstərmək üçün yaxşı üsuldur. Bizə belə gəlir ki, söz birləşmələrini sözdən fərqləndirmək üçün də bu üsuldan istifadə etmək mümkündür. Tələbələrə izah etmək lazımdır ki, sözün başlanğıc formasında sonuncu sözdüzəldici şəkilçiyə qədər olan hissə əsas götürülərsə, bu kriteriya ilə söz birləşmələrinə yanaşmaq olmaz; söz birləşmələrinin başlanğıc forması təyini söz birləşməlrində mənsubiyyət şəkilçisi ilə müəyyənləşir. Müqayisə edək:

| **Sözlərin başlanğıc forması** | **Söz birləşmələrinin başlanğıc forması** |
|---|---|
| **Yarış-da** | **yoldaşlıq yarışı-nda** |
| **sahələrdəki-ni** | **bizim uşaqlar-ımızın** |
| **işçi-lərdən** | **AKKORD-un inşaatçıları-ndan** |
| **sürücü-lər** | **tikinti materialları-nı** |

IV. Söz birləşmələrinin qrammatik mənasını, başlanğıc formasını şagirdlərin necə mənimsədiyi qrammatik təhlil vasitəsilə müəyyənləşir; qazanılmış bilik və bacarıqların davamlı olub-olmadığı məhz bu prosesdə meydana çıxır.

Söz birləşmələrinin tam təhlilinə aşağıdakılar daxildir: 1) söz birləşmələrini müəyyənləşdirib göstərmək; 2) strukturunu izah etmək, tərəflərinin ifadə vasitələrini göstərmək, sintaktik əlaqələrini müəyyənləşdirmək; 3) başlanğıc formasını tapmaq; 4) qrammatik mənasını izah etmək.

Təhlilə aid konkret bir nümunə göstərək:

Mətn (cümlə): "Yer üzərində ədalətli sülh tərəqqipərvər insanların ən böyük arzusudur".

1. Bu cümlədə söz birləşmələri bunlardır: yer üzərində, ədalətli sülh, tərəqqipərvər insanlar, insanların arzusu, tərəqqipərvər insanların arzusu, ən böyük arzu, tərəqqipərvər insanların ən böyük arzusu.
2. Göstərilən söz birləşmələri quruluşuna görə belədir: "isim"+"isim", "sifət"+" isim", "isim"+"isim", "sifət"+"isim"+ "isim", "sifət"+" isim", "sifət"+" isim" +"sifət"+" isim".

3. Birincidən başqa, hamısı başlanğıc formadadır.

4. Hər birinin öz qrammatik mənası vardır. Məsələn, ədalətli sülh və ya tərəqqipərvər insanlar birləşməsində əşya və onun əlaməti ifadə olunur. Bu həmin söz birləşmələrinin qrammatik (semantik) mənasıdır......

5. Hazırda söz birləşmələrinin öyrədilməsi üzrə aparılan iş sistemində sintaksisin morfologiya ilə qarşılıqlı əlaqəsi (morfoloji-sintaktik) prinsipinə böyük üstünlük verilir. Bu prinsipdən məqsədəuyğun şəkildə istifadə etdikdə sistematik sintaksis kursunda söz birləşmələrini əmələ gətirən nitq hissələrinin leksik-morfoloji təbiəti, habelə söz birləşmələrinin paradiqması (isim kimi hallanması, mənsubiyyətə görə dəyişməsi və s.) daha yaxşı dərk olunur. Bu zaman bütün əsas nitq hissələrinə aid (o cümlədən, köməkçi nitq hissələrindən qoşmalara aid) biliklər dərinləşir və genişlənir. Bu elmi mülahizənin əsasını təşkil edən başlıca amillərdən biri didaktik materialın məqsədəuyğun seçilməsi ilə əlaqədardır. Didaktik materialları elə seçib hazırlamaq lazım gəlir ki, ondan həm söz birləşmələrinin tədrisində, həm də kursun təkrarı zamanı istifadə etmək mümkün və faydalı olsun.

Belə didaktik materiallara aid aşağıdakıları nümunə göstərmək olar:

1. Aşağıdakı söz birləşmələrindən əsas tərəfləri feildən düzələn sifətlə ifadə olunanları 1-ci sütunda, feili sifətlə ifadə olunanları isə 2-ci sütunda yazın.

Açıq hava, dərilmiş çiçək, təbiəti bəzəyən qönçələr, gələcək zaman, daşan çay, görülmüş iş, yığdığım pambıq, utancaq uşaq, tutqun bulud, satqın düşmən.

2. Verilmiş söz birləşmələrini köçürün və tərəflərini ifadə vasitələrinin üstündə yazın.

Yavaş yerimək, mərd dayanmaq, aydın görmək, mehriban baxış, yavaş yerişli, mərd igid, aydın səma, ehtiyatlı tərpənmək, ehtiyatlı adam....

3. Verilmiş sözlərə ikinci tərəflər artırılmaqla söz birləşmələri düzəldib dəftərinizə yazın, sonra həmin sözlərin hansı nitq hissələri olduğunu üstündə qeyd edin.

Gecə, indi, səhər-səhər, xəfif-xəfif, heyran-heyran, qardaşcasına, irəlidə, ora-bura.

4. Aşağı və yuxarı sözlərinin aşağıdakı birləşmələrindən hansında zərf, hansında isə başqa nitq hissəsi olduğunu izah edin.

Aşağı düşmək, aşağı mərtəbə, yuxarıya qalxmaq, yuxarı məhəllə, aşağı yol, aşağıdan gələn, yuxarını göstərmək.

5. Qoşa söz birləşmələrinin asılı tərəflərini müqayisə edin (sonra həmin söz birləşmələrini cümlədə işlədin).

Maraqlı nağıl-maraqla baxmaq; xeyli adam-xeyli danışmaq; çox yazmaq-çox şəhər və s.

6. Verilmiş sözləri qeyri-müəyyən miqdar sayı və kəmiyyət zərfi ilə işlətmək üçün onlara müvafiq asılı tərəflər artırın.

Az, çox, xeyli, bir qədər, o qədər, nə qədər, filan qədər.....

7. "Sifət"+"isim" tipli söz birləşmələrinə aid özünüzdən nümunələr yazın.

8. Asılı tərəfləri mürəkkəb sözlərlə ifadə olunan söz birləşmələri düşünüb yazın və cümlədə işlədin (cümlə üzvü vəzifəsini müəyyənləşdirin).

9. Əsas tərəfləri məsdərlərlə ifadə olunan söz birləşmələrini cümlənin xəbəri vəzifəsində işlədin.

10. Asılı tərəfləri ərəb və ya rum rəqəmləri ifadə olunan söz birləşmələri yazın. Onların yazılışındakı fərqi göstərin.

11. Aşağıdakı parçadan söz birləşmələrini müəyyənləşdirin, mənalarını üstündə yazıb göstərin.

Bu torpaqda bir körpənin dırnağını qanatsalar, Bir qıy vurram göydə gedən quba qazlar qanad salar (R.Rza).

12. Elə söz birləşmələrini düşünüb yazın ki, onları təyindən başqa, bütün cümlə üzvlərinin vəzifəsində işlətmək mümkün olsun. (Nümunə: metro tikintisi, Şuşa yaylağı. Muğan-Mil düzü).

13. Verilmiş sxemlərə uyğun söz birləşmələri yazın.

a) ”sifət”+”isim”
“say”+”isim”
“əvəzlik”+”isim”
”məsdər”+”isim”
“feili sifət”+”sifət”

b) ”isim” +”sifət”
”isim” + “say”
”isim” + “əvəzlik”
“isim” +”məsdər”
”sifət” + “feili sifət”

b) Asılı tərəfləri qeyri-müəyyən yiyəlik və qeyri-müəyyən təsirlik halda olan bir neçə söz birləşməsi yazın.

c) Əsas tərəfləri qeyri-müəyyən təsirlik halda olan bir neçə söz birləşməsi yazın.

d) Asılı tərəfləri çıxışlıq halda olan beş söz birləşməsi düzəldib yazın.

e) Verilmiş şeir parçasındakı söz birləşmələrini müəyyənləşdirib cümlədə hansı vəzifədə işləndiyini yazın:

Siz ey dost olduğum, qardaş olduğum,
Siz ey hər sirrinə sirdaş olduğum,
Gül üzlü çəmənlər, şehrli çiçəklər,
Ey həyat aşiqi canlı ürəklər,
Bizim hər eşqimiz hökmi-əzəldir,
Yaşamaq şirindir, həyat gözəldir.

f) Əsas tərəfi həmcins üzvlərdən ibarət yiyəlik hallı birləşmələrə aid müvafiq nümunələr yazın.

*Nümunə*: Yaxındır onların harayı, səsi.
Bizim bu ellərin zümzüməsinə (R.Həmzətov)

g) Verilmiş söz birləşmələrinin başlanğıc formasını göstərin, sonra tərkibinə görə təhlil edin.

Demokratiyanın genişləndirilməsi, Azərbaycan vətəndaşlarının şərəfli vəzifəsi, sağlamlıq ocaqları şəbəkəsi, Bakı birinci olimpiya oyunları.

h) Söz birləşmələrinin başlanğıc forması ilə sözlərin başlanğıc forması arasında hansı fərq olduğunu izah edin.

***Elmi yeniliyi:*** Məqalədə söz birləşmələri nümunələr əsasında təhlil olunmuşdur. Bu da tədris prosesində tələbənin dərsi mənimsəməsində əhəmiyyətli rol oynayır.

***Tətbiqi əhəmiyyəti:*** Məqalədən Müasir Azərbaycan dili və Azərbaycan dilindən praktikum fənlərinin məşğələlərində istifadə oluna bilər.

## ƏDƏBİYYAT

1. Balıyev H. Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Maarif, 1987.
2. Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Nurlan, 2007.
3. Müasir Azərbaycan dili. Sintaksis. III cild. Bakı: Elm, 1983
4. Seyidov Y.,Abdullayev Ə., Həsənov A. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Maarif, 1972.
5. Seyidov Y. Azərbaycan ədəbi dilində söz birləşmələri. Bakı: Maarif, 1966.

**РЕЗЮМЕ**
**НЕКОТОРЫЕ ВОПРОСЫ ИЗУЧЕНИЯ СЛОВОСОЧЕТАНИЙ В ПРЕПОДАВАНИИ КУРСА СИНТАКСИСА**
***Ширинова М.М.***

***Ключевые слова:*** *синтаксис, синтактические связи, словосочетание, синтаксический анализ, морфология*

В статье рассмотриваются различные типы словосочетаний. Представлен дидактический материал, который может быть использован как преподавателями, так и студентами.

**SUMMARY**
**STUDYING WORD COMBINATIONS IN SYNTAX**
***Shirinova M.M***

***Key words:*** *studying, syntactical relations, word combinations, syntactical analysis, morphonology*

The problems of studying the types of word combinations have been analysed in this article. Didactic materials were presented for solving this problem. The article has practical importance for both the eachers and the students.

Daxil olma tarixi: Ilkin variant 03.06.2015
Son variant

**UOT 316.6**

## RƏHBƏRLİYİN VƏ LİDERLİYİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**SALAMOVA KAMALƏ BAHAZƏR qızı**
*Sumqayıt Dövlət Universiteti, dosent*
*e-mail:*

***Açar sözlər*: *rəhbər, lider, tiran, işgüzar, qrup, münasibətlər***

Rəhbərin şəxsiyyətinin öyrənilməsi idarəetmə psixologiyasının aparıcı istiqamətlərindən biridir. Bu istiqamətdə empirik tədqiqatların aparılmasına keçən əsrin 20-ci illərindən başlanılıb və hələ də davam edir. Rəhbərlik və tabeçilikdə olanlarla bağlı problemlər isə idarəetmə psixologiyasının əsaslı problemlərindən biridir. Çünki qrup üzvləri arasındakı qarşılıqlı münasibətlərin gərginliyi bu qruplardakı pəhbər və liderin tabeçilikdə olanlarla qarşılıqlı münasibıtdən asılıdır. Bu münasibətlərin əsasında əmək, iqtisadi, sosial, mənəvi-əxlaqi səbəblər durur. Bu səbəblər əmək qrupu, müəssisə və birliklərdə psixoloji mühitin yaranmasına şərait yaradır. Qrupda şəxsiyyətlərarası münasibətlər qrupun həcmindən və xarakterindən asili olaraq bərabər olmur. Belə münasibətlər qrup üzvlərinin sosial-psixoloji statusunu, yəni “lider”,”rəhbər” “tabeçilikdə olan” və s. əks etdirir.

Hazırda tələb olunur ki,bir-biri ilə qarşılıqlı münasibətdə olan”idarəetmə” və ”rəhbər” anlayışlarına iki müxtəlif anlayış kimi baxılsın. Lakin “idarəetmə” daha geniş anlayış kimi çıxış edir, sistemə və ya tək prosesə istiqamətlənən təsir kimi qeyd olunur, bu zaman yaranan yeni keyfiyyət və xüsusiyyətlərlə müşayiət olunur. “İdarəetmə” anlayışına texnikada “maşın-maşın”,sosial texnikada “insan-maşın” və sosial sistemdə “insan-insan” kimi baxmaq olar.Rəhbərlik də idarəetmənin bir hissəsidir və əsas vəzifəsi:

* insanlara və onların mənafeyinə təsir etməklə məhdudlaşır;
* rəhbərlə tabeçilikdə olanların qaşılıqlı münasibətlərini tələb edir;
* fəaliyyətdə qabiliyyət və istedad tələb edir.

Lakin ayrı-ayrı qrupların idarə edilməsində əsas güc liderlərin üzərinə düşür. Ona görə də əvvəlcə “lider” (ing. leader – öndər) anlayışına diqqət edək. Lider – konkret məsələnin həlli zamanı qrupun üzvlərinin qarşılıqlı fəaliyyəti nəticəsində irəli mövqeyə çəkilən qrup üzvüdür. O, verilən tapşırığın həlli zamanı, qrupun digər üzvlərindən daha yüksək fəallıq, iştirak, təsir səviyyəsi nümayiş etdirir, bir sözlə, konkret vəziyyətdə üzərinə müəyyən funksiyaları götürməklə irəli çıxır. Qrupun yerdə qalan üzvləri isə onun liderliyini qəbul edir, yəni liderə qarşı elə münasibətlər formalaşdırır ki, lider “aparıcı”, onlar isə “aparılan” olsunlar. Lakin qrupda liderlik daimi ola bilməz, elə bir ekstremal vəziyyət yarana bilər ki,liderin səlahiyyətləri və rolu artsın, başqa bir şəraitdə isə azalsın. Liderin həqiqi imkanlarını öyrənərkən qrupun digər üzvlərinin onu necə qəbul etdiklərini də öyrənmək lazımdır.

Qeyd etmək lazımdır ki, liderlik problemlərini araşdıran bir çox psixoloqlar “lider” və “rəhbər” anlayışlarını eyniləşdirirlər (əslində ingilis dilindən fərqli olaraq, alman dilində hər iki anlayış bir mənada işlənir). Klassik tədqiqatlatda isə “rəhbərlik” və “liderlik” iki müxtəlif hadisə kimi tədqiq olunub. Rəhbərlik bəzən “menedjer” anlayışı ilə əvəz olunur. Lakin “Menedcer” və “lider” anlayışları eynilik təşkil etmir. Başqalarının göstərdiyi büsbütün dumanlı və görünməyən yolu dəqiq seçmək liderin əsas keyfiyyətidir. Menecerin əsas keyfiyyəti isə ən az itki ilə görünən yoldan keçirməkdir.

Harvard biznes məktəbinin nümayəndələrinə görə:

- rəhbərlik, idarə edilən insanlara və onların mövqeyinə əsaslı təsir edən,onları dərk edilmiş aktiv davranışlara və fəaliyyətə sövq edən fəaliyyətdir. Ona görə də rəhbərliyi idarəetmə

adlandırmaq olar və hər bir idarəetmənin rəhbəri var. Lakin liderlik və rəhbərlik arasında aşağıda verilmiş fərqlər mövcuddur:

-birinci, dərk edilmiş təminatdır, bu zaman rəhbərlik müəssisəyə bütün qrupun fəaliyyəti kimi baxır, liderlik isə psixoloji münasibətlərlə xarakterizə olunur;

-ikinci, əmələ gəlimə (törəmə),yəni xüsusi bir müəssisənin yaranma prosesi üçün qanunauyğun və lazımlı atributudur. Bu zaman insanların qarşılıqlı münasibətlərindən və daxili səbəblərdən liderlik əmələ gəlir. Rəhbər təyin olunur, lider isə öz-özünə yaranır ;

-üçüncü, tənzimlənmə, yəni rəhbərin fəaliyyəti hüquqi təminatla tənzimlənir, liderin fəaliyyəti isə birgə fəaliyyətin mənəvi-psixoloji normaları ilə;

***Amerika psixoanalitiklərinin prinsiplərinə görə isə:***

*rəhbər müəssisə qanunlarının icraçısıdır və müəssisə üzvləri ilə birgə fəaliyyət göstərir, müəssisə daxili sosial-psixoloji vəziyyəti, ünsiyyəti və fəaliyyəti idarə edir,lider isə qrup normalarının, gözləmələrinin subyektidir və öz-özünə yaranan şəxsiyyətlərarası münasibətləri nizama salır;

*rəhbərlik təşkilat üzvlərinin birgə fəaliyyətinin hüquqi baxımdan təşkili və idarəedilməsi prosesidir, liderlik isə - ünsiyyət və fəaliyyətin daxili psixoloji təşkili və idarəedilməsidir;

*rəhbərlik ictimai nəzarət və hakimiyyət arasında vasitəçidir ;

*rəhbərlik – daha dayanıqlı, qrup üzvlərinin rəyindən və əhval-ruhiyyəsindən daha az asılı olan fenomendir;

*rəhbər qrupu xarici baxımdan təmsil edir və onun xarici rəsmi münasibətləri ilə bağlı məsələlərini həll edir. Liderin fəaliyyəti isə qrupdaxili münasibətlərlə məhdudlaşdırılır;

*rəhbərin fəaliyyəti mövcud normaların reqlamentləşdirilməsini təmin etmək, liderin fəaliyyəti isə birgə fəaliyyətdəki mənəvi-psixoloji normaları nizama salmaqdır;

*rəhbərlik nisbətən stabil (dayanıqlı) hadisədir. Müəssisə üzvlərinin əhvalından və fikirlərindən asılı olmayaraq fəaliyyət göstərir.

*rəhbərlik – qrupda münasibətlərin (idarəetmə və tabeçilik rollarının paylanması baxımından) ictimai xarakteristikasıdır (hüquqi münasibətlər ictimai nəzarət prinsiplərinə və inzibati təcrübənin tətbiqinə əsaslanır).

Amerika idarəetməsinə görə, lider və rəhbər əslində eyni vəsifəni yerinə yetirir.Əməkçilərdən biri tutduğu mövqedən asılı olmayaraq, həm özünün, həm də kollektivin arzusu nəzərə alınaraq, müəyyən bir müddətdə rəhbər təyin edilir ki, o, az bir vaxt ərzində liderə çevrilə bilsin. Əgər həmin şəxsdə liderlik etmək bacarığı alınmırsa, yazılmamış qanunlara görə həmin rəhbər öz yerini lider olmağı bacaran başqa birinə təhvil verməlidir.

Müəyyən situasiyalarda qərar qəbul etmək liderin mənəvi hüquqlarından biridir. Belə liderlər yüksək statusa və nüfuza malik olmalıdırlar.

Rəhbər-lider, rəhbər-inzibatçı (menedcer) terminləri müasir dövrdə idarəetmə sahəsində geniş yayılmışdır. Onlar arasındakı əsas fərq ondan ibarətdir ki, lider hər hansı bir nailiyyətin əldə olunması üçün tabeçiliyində olanlara əmr və göstəriş verib onlara təzyiq etmir, o kollektivin ümümi problemlərinin həllini öz üzərinə götürür. Ona görə də liderlik aşağıdakı keyfiyyətləri ilə xarakterizə olunur:

- idarə etdiyi kollektiv üzvlərinin ümumi ehtiyac və problemlərini əgər kollektivin digər üzvləri həll edə bilmirsə, qəbul edir və onların həllini öz üzərinə götürür.
- qrupun müəyyən üzvlərinin davranışının sırf psixoloji xarakteristikasıdır (sərbəst ünsiyyət, qarşılıqlı anlaşma və könüllü tabeçilik prinsiplərinə əsaslanır).

Liderlik də rəhbərlik kimi idarəetmə psixologiyasının fundamental problemlərindən biridir. Bu problemin öyrənilməsinə Amerikanın Avropa və Miçiqan universitetlərində keçən əsrin 30-cu illərində K.Levin tərəfindən “Qrup dinamikası” məktəblərinin yaradılması ilə başlanılmışdır. Bu məktəblərdə aparılan eksperimental tədqiqatlar liderlik haqqında müxtəlif nəzəriyyələrin formalaşmasına səbəb olmuşdur. Bu nəzəriyyələrə görə liderlik altı amildən asılıdır:

1. Qabiliyyətlər – əqli, verval və s.
2. Nailiyyətlər – təhsil, idman və s.
3. Məsuliyyət – təşəbbüs, asıllılıq, istək və s.
4. İştirak – fəallıq, əməkdaşlıq və s.
5. Status – soial və iqtisadi vəziyyət, məşhurluq və s.
6. Xüsusiyyətlər.

Bu amillərə əsaslanaraq bir neçə lider növünü göstərmək olar:

*aftoritar (cazibədar) - biliyi, qabiliyyəti, soyuqqanlılığı, təmkinli olması ilə fərqlənir,problemlərin həllində analitik yanaşmaya üstünlük verir, bununla da tabeçilikdə olanların rəğbətini qazanır və bu zaman təbii cazibədarlığı ilə ətrafdakıları ruhlandırır;

*manipulyator - sistemdaxili əməliyyatlarla məşğul olur, plandan kənara çıxmır, qrup üzvləri tərəfindən "təcrübəli" kimi qəbul olunur;

*ruhlandırıcı-həm yaradıcı fantaziyaya malikdir, həm də tabeçilikdə olanlara qayğı ilə yanaşır;

Həyata keçirdiyi işlərin üstünlüyünə görə isə liderlər bir-birindən fərqlənirlər, məsələn:

-yaradıcı lider;
-təşkilatçı lider;
-mübariz lider;
-diplomat lider.

Psixoanalitiklərə görə isə liderləri aşağıdakı növlərə ayırmaq olar:

1. Patriarxal hökmdar (ciddi, lakin sevimli ata) – insanlar tərəfindən sevildiyinə və hörmət olunduğuna görə seçilən;
2. Rəhbər (qrup standartlarını qoruyub saxlayan) – çoxları ona oxşamağa çalışır;
3. Tiran (Ətrafdakıları qorxu və tabeçiliklə idarə edib saxlayır) – qorxduqları üçün ona itaət edirlər;
4. Təşkilatçı – (İnsanları bir araya gətitməyi bacarır) – ona həmişə hörmət olunur;
5. Şirnikdirici – (başqalarının zəif cəhətlərindən istifadə etməyi bacarır) – ətrafındakılara sərf etdiyi üçün onun çatışmazlıqlarına göz yumurlar;
6. Qəhrəman – başqalarının mənafeyinə görə özünü qurban verir;
7. Pis nümunə;

Son illər dünyanın hər yerində demokratik normaların möhkəmlənməsi göstərir ki,bütün sahələrdə rəhbərin tabeçilikdə olanlara təsiredici rolu böyükdür. Bunula əlaqədar aparılmış psixoloji tədqiqatlar göstərmişdir ki, rəhbərin fərdi xüsusiyyətləri xüsusi keyfiyyətlərə malik olmalıdır. Bu keyfiyyətləri aşagıda göstərildiyi kimi qruplaşdırmaq olar :

- inandırma bacarığı, xeyirxahlıq, riskə hazır olma ;
- vicdanlılıq, ədalətlilik, səmimilik ;
- tabeliyində olanlarla sərbəst ünsiyyət, qarşılıqlı anlaşma və könüllü tabeçilik prinsiplərinə əsaslanmaq, təşəbbüsü qiymətləndirmə ;
- soyuqqanlılıq ;
- cəsurluq, iradəlilik, dəyanətlilik ;
- susma və distansiya saxlama bacarığı ;

Təşkilatın müvəffəqiyyətli fəaliyyəti və inkişafı üçün ən optimal variant həmin təşkilatı rəhbər – liderin idarə etməsidir.

## ƏDƏBİYYAT

**РЕЗЮМЕ**
**ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ЛИДЕРСТВА И РУКОВОДСТВА.**
***Саламова К.Б.***

***Ключевые слова:*** *руководство, лидер, тиран, деятельный, группа, отношения*

В статье отмечается, что уже в первых работах по психологии управления в качестве одного из ее существенных направлений была выделена психология личности руководителя. Эмпирическое изучение этой проблемы началось с 20-х годов, и в настоящее время ведется достаточно интенсивно. Проблема лидерства и руководства является одной из кардинальных проблем психологии управления.

**SUMMARY**
**PSYCOLOGICAL CHARACTERISTICS OF LEADERSHIP AND MANAGEMENT**
***Salamova K.B.***

***Key words:*** *authority, leader, tyrant, hard-working, qroup, relations.*

Studying thr personality of leader is one of the main ways of ruling phsycology. Emprik study of this problem began in the years of 20-th and is still under the considiration. The problems of coneerning the authority and staff are cardinal problems of phsycological management.

Daxil olma tarixi: Ilkin variant 17.04.2015
Son variant

**UOT 372.851**

# RİYAZİYYAT DƏRSLƏRİNDƏ FƏALLAŞDIRICI TƏLİM METODLARININ TƏTBİQİ YOLLARI

**HEYDƏROVA MƏFTUN NİZAMİ qızı**
*Sumqayıt Dövlət Universiteti, baş müəllim*
*heyderova_meftun@rambler.ru*

***Açar sözlər:*** *məktəb, təhsil, tələbə, müəllim, pedaqoji*

Azərbaycan Respublikası müstəqillik qazandığı gündən bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də uğurlu islahatlar aparılmaqdadır. Cəmiyyətimizin demokratikləşməsi istiqamətində görülən tədbirlər təhsil sahəsində də müasir ideyaların meydana çıxmasına, beynəlxalq təcrübənin öyrənilməsinə, təhsilin formaca və məzmunca yeniləşməsinə geniş imkanlar açmışdır. Milli təhsilin inkişafı və onun qabaqcıl dünya ölkələrinin təhsil sistemlərinə inteqrasiyası istiqamətində həyata keçirilən tədbirlər təhsilin forma və məzmunca təkmilləşdirilməsinə, keyfiyyətcə yaxşılaşdırılmasına, bu sahədə yeni ideyaların, qabaqcıl təcrübənin öyrənilməsinə geniş imkan vermiş oldu [1].

Cəmiyyətdə, xüsusilə, təhsil işçilərində yeni pedaqoji təfəkkür formalaşdırmadan bu vəzifələrin təcrübədə reallaşdırılacağını təsəvvür etmək mümkün deyil. Belə ki, təhsildə "Demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə, humanitarlaşdırma prinsiplərinə əsaslanaraq, təhsilalanın şəxsiyyət kimi formalaşmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsilalanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması" kimi vəzifələr yeni konseptual mahiyyət daşımaqla, ölkəmizdə avtoritar təhsil sistemindən qətiyyətlə imtina edilməsini, demokratiya prinsiplərinə əsaslanan mütərəqqi təhsil sisteminin qurulmasının obyektiv qanunauyğunluğunu təsdiq etmişdir.

Təhsil islahatının əsas prinsipləri aşağıdakılardır:

1. Demokratikləşdirmə- təhsil prosesinin demokratikləşdirilməsində maraqlı olan bütün tərəfləri, dövlət strukturları və ictimaiyyət nümayəndələrini (müəllimləri, şagirdləri, valideynləri) təhsil prosesinə fəal iştirak etməyə cəlb etmə deməkdir; tədris prosesinin "şəffaflığı" prinsipinin həyata keçirilməsidir.
2. Humanistləşdirmə- təhsilin humanistləşdirilməsi şagirdə münasibətin dəyişməsini nəzərdə tutur, o cümlədən "yaradıcı inkişaf qabiliyyətli və humanist yönümlü şəxsiyyətin formalaşdırılması; əqli və fiziki imkanlardan, öyrənmə imkanlarından asılı olmayaraq, şagirdin şəxsiyyətinə hörmətlə yanaşma; şagirdin qabiliyyət və təmayülünün aşkar edilməsi və onların inkişafı üçün şəraitlərin yaradılması.
3. Diferensiallaşdırma- təlimin diferensiallaşdırılması şagirdlərin imkanlarının nəzərə alınması ilə qurulur.
4. Fərdiləşdirmə- təhsilin fərdiləşdirilməsi şagirdlərin fərdi maraq və tələbatlarının nəzərə alınmasıdır.
5. İnteqrasiya- təhsilin inteqrasiyası fənlərin öyrənilməsi zamanı fənlərarası əlaqələrin aşkar edilməsi əsasında qlobal təfəkkürün formalaşdırılmasının vacibliyini nəzərdə tutur.
6. Humanitarlaşdırma- təhsilin humanitarlaşdırılması şəxsiyyətin yaradıcı inkişaf prosesinin şərti kimi çıxış edir və təhsilin məzmununun formalaşdırılmasına yeni yanaşmanı nəzərdə tutur. Bu ümumbəşəri dəyərlərin yaradılması ilə bağlı fənlərin rolunun artmasını, öz

xalqının mədəniyyətinə birləşmə və dünya mədəniyyətinin dəyərləri ilə tanışlığı ifadə edir.

Şagirdin; məxsusi dünyası, dünyagörüşü, zəngin emosional aləmi, həyata, təbiətə, insanlara baxışı, bənzərsiz fərdi psixoloji xüsusiyyətləri – maraqları, meyilləri, qabiliyyətləri vardır. O da ətrafdakı böyüklər, ata-anası, müəllimi kimi bir şəxsiyyətdir. Uşağın şəxsiyyət olduğunu nəzərə almayan, onu qeyd-şərtsiz təlim-tərbiyə prosesinin bərabərhüquqlu subyekti kimi qəbul etməyən təhsil sistemi heç bir vəchlə müasir, mütərəqqi sayıla bilməz [2].

Təlim-tərbiyə prosesində müasir, o cümlədən, interaktiv təlim metodlarının tətbiqi şagirdlərdə müstəqil düşünmək, sərbəst rəy söyləmək, hər hansı problem barədə başqasının fikrinə münasibət bildirmək, digər fərqli nöqteyi-nəzəri təsdiq, yaxud inkar etmək, çoxluğun qərarını qəbul etmək, yaxud öz qərarının üstündə durmaq və s. xüsusiyyətlərin formalaşmasına bilavasitə kömək etməklə təfəkkürün tənqidliyi, müstəqilliyi və çevikliyinə zəmin yaradır.

Bəzi interaktiv təlim metodları və üsullarını aşağıdakı kimi şərh etmək olar [3,4].

**1. Rollu oyunlar**.Bu, uşaqlar, şagirdlər tərəfindən oynanılan kiçik bir pyesdir. Onun məqsədi uşaqlara tanış olan hər hansı bir hadisənin, prosesin, əməlin əyani canlandırılması vasitəsi ilə fəndaxili (fənlərarası), fəsildaxili (fəsillərarası) və s. səbəb-nəticə əlaqələrinin, qanunauyğunluq-larının daha dərindən dərk edilməsinə kömək göstərməkdən ibarətdir. Rollu oyunların bütün fənlərin tədrisi prosesində, sinifdənxaric tədbirlərdə, qrup, dərnək məşğələlərində tətbiq etmək mümkündür. Rollar bölünüb şagirdlərə paylanır və dərsin gedişi zamanı hər şagird öz rolunu ifa edir. Bununla da müəllim şagirdləri diferensiallaşdırır və fərdiləşdirir (rollar qabiliyyətə görə seçilir).

Burada əsas məqsəd uşaqlara tanış olan hər hansı bir hadisənin, prosesin, əməlin əyani məqsəd və əlamətlərinin, qanunauyğunluğun daha dərindən mənimsənilməsinə kömək etməkdir.

**2. Cütlər və qruplar**. Bu üsul şagirdlərə hər hansı bir məsələ barədə qısa müddətli fikir mübadiləsi aparmaq imkanı verir, hər birinin öz şəxsi təcrübəsinə, qazandığı bilik, bacarıq və vərdişlərə əsaslanmaqla, müxtəlif ideyalar söyləməsinə şərait yaradır. Sinfin cütlər və qruplara bölünməsi şagirdlərin qarşılıqlı əlaqədə dərs və məşğələ prosesinə daha fəal cəlb olunmalarını təmin edir.

**3. "Əqli hücum"**. Bu üsul vasitəsilə dərs və məşğələ prosesində şagirdlərin fəallığının rəğbətləndirilməsinə və onlar tərəfindən ideyaların sürətlə irəli sürülməsinə imkan yaradılır. Bu üsuldan konkret problemin həlli və ya hansısa suala cavabın axtarılması zamanı istifadə olunur. Belə ki, "Əqli hücum" yeni mövzunun izahından əvvəl, habelə çevik, yaradıcı çalışmaların (məsələn, hər hansı bir fikrin, ifadənin və s. tamamlanmasında mümkün variantların söylənilməsi və onların məntiqi sonluğa çatdırılması) yerinə yetirilməsi və digər bu kimi hallarda tətbiq olunur.

**4. "Layihələrin hazırlanması"**. Bu, şagirdlərin müəyyən müddət (1-8 ay) ərzində müxtəlif mövzular, problemlər, hadisələr, proseslər və s. üzrə müstəqil şəkildə tədqiqatların aparılması və nəticədə bitkin işin təqdim edilməsi metodudur. Həmin metodun tətbiqi şagirdlərin müxtəlif fənlərin, dərs məşğələlərinin və xarici mühitin qarşılıqlı əlaqəsini dərk etmələrinə, konkret problemi müəyyənləşdirmələrinə, zəruri material toplamalarına, iş prosesində vaxtı səmərəli planlaşdırmalarına və qrafik üzrə icra etmələrinə şərait yaradır. Bu metod həmçinin şagirdlərin hər hansı bir fəaliyyətlə əlaqədar özünütəşkilinə, müəllimin rəhbərliyi altında təlim prosesini idarə etmələrinə imkan verir. Bununla yanaşı, "Layihələrin hazırlanması" şagirdlərin bir-biri ilə, habelə məktəbdən kənarda başqa adamlarla ünsiyyətinə və qarşılıqlı münasibətlərin qurulmasına kömək göstərir.

"Layihələrin hazırlanması" metodu tədqiqatın nəticələrinin əldə edilməsi və qiymətləndirilməsi, layihənin təqdim olunması və müdafiəsi yolu ilə şagirdlərin yaradıcı, məntiqi təfəkkürünün inkişafına, müstəqil düşüncə, təhliletmə və əqli nəticə çıxarma qabiliyyətlərinin təşəkkülünə, ətraf aləmin vahidliyinin və rəngarəngliyinin daha effektiv dərk edilməsinə zəmin yaradır.

**5. “İşgüzar səs-küy”.** Bu üsul dərsin tempinin dəyişilməsi prosesində (məsələn, müəllimin uzunmüddətli danışığından sonra) tətbiq edilir və problem üzrə şagirdlərin əvvəlcə 2-3 nəfərlik qruplar şəklində müəllimin təklif etdiyi mövzu haqqında 4-5 dəqiqə ərzində işgüzar müzakirələrə, sonra isə gəldikləri nəticələrə dair bütün siniflə fikir mübadiləsi aparmalarına, bunun nəticəsində haqqında danışılan məsələnin mahiyyətinin obyektiv dərk edilməsinə imkan verir.

**6. “Söz-assosiasiyaları”.** Bu üsuldan hər hansı bir mövzunun öyrənilməsinə başlanmazdan əvvəl şagirdlərin həmin mövzu haqqında nə bildiklərini və mövzu mənimsənildikdən sonra onların yeni nə öyrəndiklərini aydınlaşdırmaq məqsədi ilə istifadə olunur. Metodun mahiyyəti ondan ibarətdir ki, müəllim mövzunun məğzini ifadə edən əsas sözü sinfə təklif edir və şagirdlər eşitdikləri həmin sözlə əlaqədar assosiativ şəkildə xatırladıqları ilk sözləri 1-2 dəqiqə ərzində yazırlar. Bu üsuldan istifadə müəllimə dərsdə əldə edilən nəticələri müqayisəli qiymətləndirməyə, şagirdlərə isə təlim prosesində öz inkişaf dinamikasını dərk etməyə imkan verir.

**7. İnsert metodu.** İnsert metodu səmərəli mütailə və təfəkkürün inkişafı üçün interaktiv qeydetmə sistemidir. Bu işarələr sistemindən istifadə edib mətni başa düşmək üçün öz biliyini yoxlamaqla düzgün cavab axtarmaq üsuludur.

Müəllim tələbələri cütlərə ayırır. Tələbələrə riyaziyyatın müəyyən bir bölməsi (ardıcıllıq, funksiyanın limiti, törəməsi, diferensialı və s.) haqqında nə bilirlərsə dəftərlərinə yazmaları tapşırılır. Beş dəqiqə vaxt verilir. Müəllim tələbələrə xəbərdarlıq edir ki, bəzi məlumatları dəqiq olmaya bilər. Buna əhəmiyyət vermək lazım deyil, çünki dərsin gedişində düzəlişlər aparılacaq. Tələbələr riyaziyyatın bu bölməsi haqqında bildiklərini sütunvari şəkildə yazırlar, iş qurtarır. Bütün auditoriya müzakirəyə başlayır. Riyazi obyekt (anlayış) haqqında olan məlumatlar lövhəyə yazılır, təkrar olunmamaq şərti ilə (tələbələrin yazdıqları). Bundan sonra müəllim mətni paylayır və tələbələr tərəfindən oxunmasını tapşırır. Tələbələr oxuduqca mətnin kənarında hər sütundakı məlumatın qarşısında müxtəlif işarələr qoyurlar:

- əvvəl bildiyiniz məlumatı təsdiq edən informasiya varsa qarşısında “v” işarəsi qoyun;
- informasiya əvvəl bildiyiniz məlumatı inkar edirsə “-“ işarəsi qoyun;
- rast gəldiyiniz informasiya sizin üçün yenidirsə “+” işarəsi qoyun;
- haqqında əlavə məlumat almaq istəyirsinizsə “?” işarəsi qoyun.

Tələbələr işi yerinə yetirirlər. Sonra isə tələbələr eyni işarəli informasiyalı ayrı-ayrı kateqoriyalara ayırırlar.

Tələbələr bildiklərini dəftərlərinə yazırlar. Bu vaxt ərzində müəllim lövhəni üç sütuna bölür. Birinci sütuna “Bildiklərimiz”, ikinci sütuna “İstəyirik bilək” və üçüncü sütuna “Öyrəndiklərimiz” sözlərini yazır. Tələbələr işini qurtarıb yazdıqlarını ümumiləşdirib birinci qrafada (sütunda) lövhəyə yazırlar. Sonra müəllim auditoriyaya müraciət edir ki, riyaziyyatın bu bölməsi (obyekti) barədə daha nəyi öyrənmək istəyirsiniz? Sualdan sonra yenə tələbələr öz aralarında fikir mübadiləsi edirlər və fikirləri ayrı-ayrı ikinci qrafada (sütunda) yazırlar. Müəllim mətni tələbələrə paylayır. Mətni hamı oxuyur və “Öyrəndiklərimiz” qrafasında tələbələr yeni öyrəndiklərini qeyd edirlər. Yeni rast gəldikləri informasiyanı dəqiqləşdirirlər. Əgər cavabsız fikir qalıbsa məlumatın haradan əldə olunacağı müəyyənləşdirilir. Sonra müəllim öz fikirlərini söyləyir və mövzunu yekunlaşdırır.

**8. Klaster (şaxələndirmə).** “Klaster” sözü ingilis dilindən tərcümədə şaxələnmə deməkdir. Burada müəllim mövzunun məğzini, əsas mənasını ifadə edən aparıcı termini auditoriyaya təklif edir, tələbələr həmin sözlə əlaqədar xatırladıqları ilk anlayışları, sözləri bir-iki dəqiqə ərzində yazırlar. Bu şaxələnmə ardıcıl və ilk “açar” sözlə əlaqədə olmalıdır. Şaxələndirmə hər hansı bir mövzu və ya fikrin mümkün qədər geniş açıqlanmasına, tələbələrin geniş, sərbəst düşünməsinə şərait yaradan metoddur. Şaxələndirmə strategiyasından həm düşünməyə yönəltmə, həm də düşünmə mərhələsində istifadə etmək olar. Metod yeni dərsin izahından əvvəl tələbələrin fikrini səfərbər etmək və mövzuya aid əvvəl mənimsədikləri biliklərini yada salmaq üçün istifadə oluna bilər. Bu metodun tətbiqi zamanı mövzudan digər mövzuya, bir fikirdən digər fikrə keçilir və yeni assosiasiyaların yaranması imkanı genişlənir. Klaster metodu fərdi, cütlərlə və qrup şəklində yerinə

yetirilə bilər. Tətbiqi sadə, asan yadda qalandır və tələbələr tərəfindən həvəslə icra olunur. İşin icra mexanizmi aşağıdakı ardıcıllıqla yerinə yetirilir:

- iri ağ kağızın ortasında kiçik bir dairə çəkilir (kvadrat da ola bilər), içərisində şaxələndirilməsi lazım gələn fikir və ya hər hansı bir cümlə yazılır (məsələn: funksiya, limit, törəmə, diferensial və s.).
- bu dairə və ya kvadratdan başlamaq şərti ilə müxtəlif istiqamətlərə yeni-yeni şaxələr ayrılır və yeni dairə və ya kvadratın içərisində yazılmış fikir mərkəzdə yazılmış fikirlə elmi cəhətdən sıx bağlı olmalıdır.

Tələbələr işin icrasını müəllimin verdiyi vaxt ərzində icra etdikdən sonra yeni mövzu izah edilir. Yeni mövzunun izahından sonra müəllim tələbələrə şaxələndirməni davam etdirməyi tapşırır və qeyd edir ki, yeni mövzunun izahından aldığınız biliklər əsasında işinizi davam etdirin, ancaq başqa rənqdə olan qələmlə. İşin icrası müəllimin verdiyi vaxtda başa çatmalıdır. İş başa çatdıqdan sonra tələbələr iki rəngli qələmlə işlədikləri şaxələrə baxıb, əvvəlki bilikləri ilə öyrəndiklərini müqayisə edirlər. Bu metoddan istənilən mövzunun izahı zamanı və istənilən fənnin tədrisi zamanı istifadə etmək olar.

**9. Dəyirmi masa.** Auditoriya qruplara bölünür. Hər qrup vatman kağızı və hərəyə bir rəngli qələm olmaqla təchizatla təmin olunur. Müəllim işi necə icra etməli olduqlarını tələbələrə izah edir və birinci qrupa yaxınlaşıb onların vatman kağızına əvvəlcədən qərara aldığı bir fikri yazır. Sonra qrupun birinci üzvü vatmanı alıb müəllimin yazısının ardı olmaqla öz fikrini yazıb, vatmanı növbəti tələbəyə ötürür. Müəllim hər qrupa yaxınlaşıb eyni hərəkəti təkrar edir. Yəni, birinci fikri kağıza yazır və tələbələr dairəvi olaraq ardıcıl şəkildə hər kəs əvvəlki fikirlərin davamı olan fikrini yazıb özündən sonrakı yoldaşına ötürür. Məsələn, müəllim kağıza "Funksiya" sözünü yazır. Birinci tələbə təyin oblastı, ikinci tələbə cüt, tək və dövrü funksiya, üçüncü tələbə funksiyanın limiti və s. yazır. İşin icrasından sonra tələbələr kağızları yanaşı olmaqla lövhədən asırlar. Müzakirə aparılır ki, hansı qrup onlara verilmiş fikir haqqında daha çox məlumat yazıb. Sonda müəllim ümumi nəticə çıxarır.

**10. Konseptual cədvəl**. Tədris zamanı zehni prosesləri əyaniləşdirmək üçün qrafik göstəricilərdən istifadə edilir. Bu üsul obyekt və hadisələrin müqayisəsi zamanı istifadə olunduqda daha effektli olur. Dəftərin səhifəsi bir neçə sütuna bölünür və birinci sütunda müqayisə ediləcək iki və ya daha çox obyekt və ya hadisə qeyd olunur. Sonrakı qrafalarda müqayisə ediləcək obyekt və hadisələrin müqayisə ediləcək xüsusiyyətləri yazılır. İşin sonunda tələbələr oxşar və fərqli xüsusiyyətləri qeyd edirlər.

**11. T-sxemlər**. Bu tələbələrin müzakirə olunacaq məsələ haqqındakı fikirlərini müəyyənləşdirmək üçün istifadə olunan metoddur. Müəllim kağızı iki sütuna bölür və birinci sütunda müzakirə olunacaq məsələ haqqında müəyyən fikirləri sıralamaqla qeyd edir. Sonra vərəqələri tələbələrə fərdi olaraq paylayır. Tələbələr hər fikrə münasibət bildirməklə, müəllimin yazdığı hər bir fikrə öz müsbət və ya mənfi fikrini bildirir. Cədvəlin tərtibindən sonra şagirdlər işi qruplarla müzakirə edirlər, yəni rəylərini əsaslandırırlar. Beş dəqiqəlik müzakirədən sonra müzakirə auditoriya ilə aparılır, yekun nəticə əldə olunur və tələbələrin qərarı verilir.

**12. Semantik əlamətlərin təhlili**. Semantika- fransızca işarə edən deməkdir. Semantika işarələnən və işarə edənin vəhdətidir. Semantikanın məna kateqoriyası qrafik işarələrin ardıcıllığı (işarələyən), obyekt və hadisələr (denotat), obyekt və hadisələrin insan şüurunda əksi (işarələnən) ilə bağlıdır. Bu metoddan tələbələrin biliyinin formalaşdırılması və inkişafı üçün istifadə olunur. Tanış olmayan mövzunun təhlili zamanı bu metod daha çox əhəmiyyətlidir və keçmiş mövzu ilə yeni mövzu müqayisə edilir. Dəftərin səhifəsi tələbələr tərəfindən sütunlara ayrılır və birinci sütunda müqayisə olunacaq obyekt və hadisələr qeyd olunur. Qalan sütunlarda onların xüsusiyyətləri yazılır və tələbələr sütunları ardıcıl olmaqla doldururlar. Hər xüsusiyyətin qarşısında obyekt və hadisələrə aid olan müsbət rəy (+), mənfi rəy (-) və əmin deyillərsə (?) işarələrindən biri qeyd olunur. Yeni dərsin izahından sonra tələbələr öz dəftərlərində öyrəndikləri biliyə əsaslanaraq düzəlişlər edirlər. Sonda müəllim yoxlayır və düzəlişdən sonra cavabları təsdiq edir.

**13. Venn diaqramı**. Venn diaqramı iki və daha çox kəsişən çevrədən ibarət sxemdir. Hər çevrənin üst tərəfində müqayisə olunacaq obyekt və hadisənin adı yazılır. Çevrələrin kəsişən hissələrində obyekt və hadisələrin oxşar əlamətləri yazılır. Çevrələrin kəsişməyən hissələrində isə müqayisə olunan obyekt və hadisələrin fərqli cəhətləri qeyd olunur. Məsələn, müəllim tələbəyə iki çoxluğun (iki funksiyanın, sıranın və s.) müqayisəsini tapşırır. Tələbələr dəftərlərində iki kəsişən çevrə çəkirlər. Hər çevrənin üst tərəfində tələbələr onlara verilən çoxluqların adlarını (işarələnmələrini A, B, C və s.) yazırlar. Çevrənin kəsişən hissəsinin içində çoxluqların oxşar əlamətlərini yazırlar. Birinci çevrənin kəsişməyən hissəsində üst tərəfdə yazdığı çoxluğun fərqli cəhətlərini (əlamətlərini, elementlərini), ikinci çevrənin kəsişməyən hissəsində isə ikinci çoxluğun fərqli cəhətlərini (əlamətlərini, elementlərini) qeyd edirlər. Qeyd edək ki, bu işi qruplarla da görmək olar.

Yeni təlim üsullarının tətbiqi müəllimdə çeviklik, böyük ustalıq, işə yaradıcı yanaşma, yüksək işgüzarlıq tələb edir. Müxtəlif təlim metodları arasında interaktiv təlim metodu daha səmərəlidir. Bəs interaktiv nə deməkdir? Bu termin dialoq, qarşılıqlı əlaqədə, fəaliyyətdə olmaq, daxili fəallıq kimi izah olunur. Pedaqoji üsul kimi interaktivlik müəllimin iştirakı ilə tələbələrin müxtəlif informasiya mənbələrinə (internet, dərslik, illüstrasiya materialları, cədvəllər, video, kino və s.) və ya ünsiyyət prosesində yeni biliklərin əldə olunmasına imkan verən bütün təlim üsullarının məcmusundan ibarətdir. Dərsi bu materiallarla keçmək üçün müəllim müəyyən hazırlıq işi aparmalı, dərsdə isə istiqamətləndirici, bir növ "drijor" rolunda olmalı, əsas fəaliyyəti isə tələbələr göstərməlidirlər. Burada tələbə daha fəal, müəllim isə istiqamətverici olur.

İnteraktiv təlim metodları və üsullarının tətbiqi tədris prosesini xeyli intensivləşdirir, onu hər bir tələbə üçün daha əhəmiyyətli və maraqlı fəaliyyət sahəsinə çevirir, dərsdə, məşğələdə fəallığın maksimum artmasına zəmin yaradır, bununla da təlimin inkişafetdirici aspektini nəzərə çarpacaq dərəcədə gücləndirir [5].

İnteraktiv təlim metodları üçün bunlar səciyyəvidir: tələbənin aktiv təaliyyəti; müəllimin tələbəyə və tələbələrin bir-biri ilə əməkdaşlığı; didaktik oyunlardan istifadə olunması; tələbələrin auditoriyada qeyri ənənəvi yerləşdirilməsi.

İnteraktiv metod tələbəyə nə verir: müstəqil düşünməyi; sərbəst rəy söyləməyi; şəxsiyyəti qiymətləndirməyi; əməkdaşlıq etməyi (başqaları ilə işləməyi bacarmaq, ümumi məqsədə çatmaq üçün işin bölüşdürülməsi); başqalarını dinləməyi; başqa fikrə qarşı dözümlü olmağı; öz fikirlərini arqumentlərlə dəqiq izah etməyi; tənqidi təfəkkürü; kompromis variantın tapılmasını; natiqlik qabiliyyətini inkişaf etdirməyi.

İnteraktivlik, əslində pedaqoji üsul kimi müəllimlərin iştirakı ilə tələbələrin bir-biri ilə ünsiyyəti prosesində yeni biliklərin əldə edilməsinə imkan verən bütün təlim üsullarının məcmusundan ibarətdir.

***Elmi yeniliyi:*** Məqalədə riyaziyyat dərslərində fəallaşdırıcı təlim metodlarının tətbiqi yolları araşdırılmış və təhsilin keyfiyyətinin yüksəldilməsində onların rolunun hansı imkanlara malik olmaları müəyyənləşdirilmişdir.

***Tətbiqi əhəmiyyəti:*** Məqalədə araşdırılmış məsələlər müəllim hazırlığının, orta məktəb və ali məktəb təhsilinin perspektivliyi sahəsində tədqiqat aparan gənc mütəxəssislər üçün faydalı ola bilər.

## ƏDƏBİYYAT

1. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007.
2. Mərdanov M.C. Azərbaycan təhsili islahat yollarında: uğurlar, problemlər, vəzifələr. Bakı: 2001.
3. Stil S.İ., Meredit K.S. Tənqidi təfəkkürün inkişaf etdirilməsi yolları. Bakı: Yeni nəsil, 2000.
4. Qədimova X. İnteraktiv təlim metodları və onların tətbiqi yolları. Bakı: 2003.
5. Шарыгин И.Ф. Математическое образование: вчера, сегодня, завтра. Москва: 2001.

## РЕЗЮМЕ
## ПУТИ ВНЕДРЕНИЯ АКТИВИЗИРУЮЩИХ МЕТОДОВ ОБУЧЕНИЯ НА УРОКАХ МАТЕМАТИКИ

***Гейдарова М.Н.***

***Ключевые слова***: *школа, образование, студент, преподаватель, педагогический*

В статье про анализировано содержание активизирующих методов интерактивного обучения на уроках математики. Показано, что с помощью этих методов достигается более эффективное усвоение материала.

## SUMMARY
## ACTIVATING THE APPLICATION WAYS OF MATHEMATICS TEACHING METHODS

***Heydarova M.N.***

***Key words:*** *school, education, student, teacher, pedagogical*

The methods of application of interactive method in mathematics teaching are analysed in the article. To master learningmaterial more effectively is achieved using these methods.

Daxil olma tarixi: Ilkin variant 22.05.2015
Son variant

**UOT 37.022**

# BLUM TAKSONOMİYASININ İSTİFADƏSİNİN KİMYA DƏRSLƏRİNDƏ ROLU

**QULIYEVA GÜLZAR NIZAM qızı**
*Sumqayıt Dövlət Universiteti, dosent*
**ABDULLAYEVA HÜSNIYYƏ BƏHRAM qızı**
*Sumqayıt Dövlət Universiteti, assistent*
*e-mail: q.gulzar@mail.ru*

***Açar sözlər:*** *məqsəd,dəyər,sintez, tətbiq,taksonomiya*

Bu gün də təhsilimizə dair dünyadakı ən yaxşı nümunələri götürür və müsbət dəyərlərə inteqrasiya edirik, təhsilimiz inkişaf edir. Daim inkişaf edən şəxsiyyətlər formalaşdırmaq, savadlı kadr yetişdirmək biz müəllimlərin öhdəsinə düşür. Şagirdlərin kollektivə və cəmiyyətə yararlı şəxs, müstəqil düşüncə tərzinə malik savadlı, yaradıcı gənc, yüksək intellektə malik şəxsiyyətin yetişdirilməsinə xidmət edir.

Hərtərəfli şəxsiyyətin yetişməsi, psixoloqların fikrincə, məqsəd və dəyərlərin iyerarxik quruluşda formalaşması ilə bağlıdır. Yəni yuxarı mərhələ aşağıdakı mərhələlərin bütün xüsusiyyətlərinin daşıyıcısıdır. Ona görə də şagirdin yaxınlarına şəxsi münasibətindən, ailədəki mövqeyindən kollektivdəki, cəmiyyətdəki roluna qədər hər şey incəliklə araşdırılmalıdır.

Bu gün müəllim şagirdə obyekt kimi baxmır, çünki şagird bu gün təlim-tərbiyə prosesinin subyekti kimi götürülür. Müəllim ondan dərsdə “hər hansı suala cavab alacam” – deyə düşünmür, o bu gün şagirdin tədqiqatçılıq, yaradıcılıq bacarıqlarının üzə çıxarılması ilə bağlı nəticə almaq üçün əvvəlcədən məqsədlərini müəyyən edir. Müasir dərs nəticəyönümlüdür, çünki bu gün keçilən dərs nəticəsində müəllim nəticədə “nə öyrədəcəyəm” deyə deyil, şagirdlərin tədqiqat nəticəsində, axtarışlar nəticəsində nə əldə edəcəklərini düşünür.

Müəllimlər bu məqsədləri müəyyən etmək üçün müxtəlif taksonomiyalara əsaslanırlar. Taksonomiyalarla bağlı bir çox alimlərin irəli sürdükləri nəzəriyyələr mövcuddur. Blum taksonomiyası düşünmə vərdişlərinin tədrisi üçün vasitədir**.**

Düşünmə vərdişləri insanlara imkan verir ki, problemləri həll etmək üçün informasiyalardan istifadə etsinlər. Bu sahənin ekspertləri düşünmə vərdişlərini iki hissəyə ayırırlar: mikro-vərdişlər və makro-vərdişlər. Mikro-vərdişlər: tətbiq və təhlil, makro-vərdişlər: problemi həll etmə və qərar çıxarma [1].

Blumun taksonomiyası düşünmə vərdişlərinin təlimi sahəsində bir klassik nəticədir və sonralar o, Benjamen Blumun adı ilə əlaqələdirilərək Blum taksonomiyaları adlandırıldı.

Blum Taksonomiyası idraki davranışları, faktiki olaraq, sadədən mürəkkəbə doğru altı kateqoriyaya görə təsnif edir [2, 53].

| **Blum taksonomiyasının altı mühüm səviyyəsi** | |
|---|---|
| **Səviyyə** | **Şagird davranışının xüsusiyyətləri** |
| Bilik | Yadda saxlama; xatırlama, tanıma; yadına salma (geri çağırma*) |
| Anlama | Izah etmə; bir ifadə vasitəsindən digər ifadə vasitəsinə tərcümə etmə; öz sözləri ilə təsvir etmə |

| | |
|---|---|
| Tətbiq | Problemi həlletmə; müəyyən nəticələr əldə etmək üçün informasiyaları tətbiq etmə |
| Təhlil | Onların bir yerdə necə mövcud olduğunu göstərmək üçün nəyisə parçalamaq; ünsiyyətin əsasını təşkil edən strukturu tapmaq; motivləri müəyyənləşdirmək |
| Sintez | Həm şifahi formada, həm də fiziki obyekt ola bilən unikal (yeganə), orijinal (ilkin) məhsulun yaradılması |
| Dəyərlən-dirmə | Məsələ haqqında mühüm qərarlar çıxarmaq; mübahisələri və ya fikir müxtəlifliklərini həll etmək. |

Yuxarıda qeyd etdiyimiz kimi, Blum taksonomiyası da iyerarxiyalıdır (mərtəbəlidir), yuxarı səviyyələr aşağı səviyyədə nail olunan elm və vərdişlərdən asılıdır. Taksonomiyaların birinci mərhələsi olan bilikdir.

Bilik yadda saxlamanı, eləcə də yada salma və tanımanı vurğulayan kateqoriyadır [3]. *Yada salma* əməliyyatının nümunəsi "*verilmiş reaksiyada boş buraxılmış yerlərə lazım olan elementlərin işarəsini yazın doldurun*" tapşırığı ola bilər. Tanıma əməliyyatına nümunə isə " verilmiş maddələrin içərisindən oksidləri seçin" tapşırığı sayıla bilər, hansı ki, əvvəllər qarşılaşdıqları informasiyaları seçməyi tələb edir. Hər iki proses yaddaşda qorunub saxlanılan informasiyaları geri çağırmaqdan ibarətdir. Çox hallarda informasiya yaddaşda saxlandığı formada geri çağırılır. Məsələn, əgər kimya fənn müəlimi bir gün suyun tərkibini şagirdlərə öyrədirsə, növbəti gün lövhədə suyun tərkibini yazıb soruşmalıdır: "Uşaqlar bu nədir?"və ya "Uşaqlar bu nəyin işarəsidir?". Bu suala cavab vermək üçün şagird keçən dərs aldığı biliyi olduğu kimi yadına salmalıdır. Biliyə əsaslanan məqsədlərdə əsas odur ki, informasiyaların yadda saxlanılması və geri çağırılması həyata keçirilsin. Bilik kateqoriyasında şagirddən biliyi dəyişmək və ya istifadə etmək tələb olunmur, yalnız onu təqdim olunduğu formada yadda saxlaması tələb olunur.

Bilik səviyyəli fəaliyyət və ya fəallıq aşağıdakılardan ibarətdir:

1. Xüsusi faktları və ya informasiyaları geri çağırmaq (məsələn, oksigeni kim kəşf edib?)
2. Terminləri və tərifləri geri çağırmaq (məsələn, turşular nəyə deyilir?)
3. Qəbul olunan qaydaları geri çağırmaq və ya xatırlamaq (məsələn, "dövri sistemdə qruplar üzrə hidrogen elementindən sonra hansı element gəlir"?)

Bilik kateqoriyası başqa kateqoriyalar üçün bünövrəni təşkil edir. Adətən, müəllimlər bu kateqoriyanı daha çox istifadə edirlər. Nəticədə şagirdlərin, eyni zamanda elə müəllimlərin də düşünmə prosesi ən aşağı səviyyədə saxlanılıb. Bu səbəbdən də gənclərin əksəriyyəti məktəbi cəlbedici yox, darıxdırıcı hesab edir.

Bilik səviyyəli suallar dərsin və ya fəslin əvvəlində faydalı olur, və bununla da lazımi məlumatların çatdırılmasını təmin edir.

Anlama kateqoriyası informasiyaları daha anlaşıqlı şəkildə dərk etmək məqsədi daşıyır. Bilik səviyyəsindən yuxarıda olan bütün kateqoriyalar kimi anlama da artıq yadda saxlanılmış informasiyalardan istifadə etməyə əsaslanır. Anlama prosesinin fəallığında o zaman əmin olmaq olar ki, şagird suallara cavab verməzdən əvvəl materialı tam başa düşsün. Xatırlama ilə material üzərində işləmə arasındakı fərqi görmək çox mühümdür. Ona görə ki, materialı işləmə prosesi vasitəsi ilə şagirdlər informasiyaları öz dərk etdikləri qəlibə (formaya) köçürür.

Anlama kateqoriyasının izlədiyi əsas ideya şagirdlərin materialı yalnız yadda saxlaması deyil, həm də onları anlamasına nail olmaqdır. Buna baxmayaraq, bəzi yüksək kateqoriyalardan fərqli olaraq, anlama səviyyəsi şagirdlərdən informasiyaların mövcudluğunu tələb etmir, sadəcə onları

şagirdlərin münasibəti çərçivəsinə inteqrasiya edir. Anlama kateqoriyası dörd qrupa bölünür: izah, tərcümə, nümunəgətirmə və təyinetmə.

Tətbiq kateqoriyası, adından da göründüyü kimi, problemin həllinə çatmaq üçün informasiyanı edir və ya istifadə edir. Tətbiq səviyyəsində olarkən, şagirdə normalda tanış tətbiq olmayan problem verilir ki, o uyğun prinsipləri (problemi həll etmək üçün metod) istifadə edərək heç bir yardım olmadan problemin həllinə nail olsun.

Tətbiqin ikimərhələli prosesi aşağıdakı kimi təsvir oluna bilər:

I mərhələ – a) şagird problemlə qarşılaşır b) müəyyən növ/tip kimi onu tanıyır ; b) həlli yolunu seçir ; b) həll edir.

Tətbiqetmə təklikdə və qrup halında problemin həllinə nail olmaq üçün istifadə olunmadır. Analiz – bu prosesin əksi kimi qəbul edilir. Burada daha mürəkkəb məsələlər –natiqlik, yazılı əlaqələr qurmaq və təşkilatlanma bu izahatın əsasını təşkil edir.

Analiz – sadəcə yuxarıda deyildiyi kimi, əlaqələri başa düşməkdir. Bununla analiz yalnız bir ünsiyyəti anlamaq deyil, məsələyə daha dərindən nəzər salaraq müxtəlif tərəflərin necə ünsiyyətdə olmasını araşdırmaqdır.

Analiz anlamanın üstündə qurulur, lakin onu üstələyir. Analiz geriyə nəzər salır, yeni hər hansı vəziyyət və hadisəni götürərək, müxtəlif fikirləri bir araya gələrək, yekun effektini nümayiş etdirir, bundan fərqli olaraq, anlamada isə ilkin olaraq, effektin nədən ibarət olduğunun izahı açıqlanır.

Sintez yeni və unikal mahiyyət yaratmaq üçün elementlərin yaradıcı şəkildə əlaqələnməsinə səbəb olur.Çünki bunun əsas xüxusiyyəti yaradıcı olmaqdır, sintez kateqoriyası müxtəlif və asanlıqla tanına bilən ola bilər. Sintez əvvəllər mövcud olmayan struktur və ya nümunələri təşkil edən hissələrin birləşməsi prosesidir. Tədqiqat sənədinin orijinallıq səviyyəsindən asılı olaraq, tətbiq və ya sintez kateqoriyasına aid edilə bilər. Əgər sənədlər hərtərəfli və tamamlanmış şəkildədirsə, lakin mövzuya heç bir şey əlavə etmirsə, o zaman biz müəllifin tətbiq səviyyəsində işlədiyini görürük.

Qiymətləndirmə öz xüsusi standartlarını vəziyyətin nəyə qarşı dəqiq, səmərəli, iqdisadi, və ya qənaətbəxş oldumasını ölçülməsi üçün istifadə edir. Bu kateqoriyaya nail olmaq üçün şagird müvafiq standartları və ya dəyərləri hazırlamalıdır və ideyanın və ya obyektin bu standartlara və ya dəyərlərə cavab verməsinin nə qədər yaxın olduğunu müəyyən etməlidir. Qiymətləndirmə kateqoriyası analiz kateqoriyasın digər ölçüdə göstərir. Qiymətləndirmə sualı şagirdi analiz etməkdən başqa, həmçinin dəyər mühakiməsi etməyi tələb edir. Mühakimə üçün kriteri aydın açıqlanmalıdır və qiymətləndirmə nəticəsinin keyfiyyəti tələbənin kriterini nə dərəcədə yaxşı cavab verdiyinə əsasən qiymətləndirilməlidir.

Qiymətləndirmə nəticəsi iki hissədən ibarət olmalıdır:

1. Şagird mühakimə edəcəyi kriteri yaratmalıdır.
2. Göstərilmiş kriterini istifadə edərək, şagird öz mühakiməsini müvafiq olaraq həyata keçirməlidir.

Şagirdlərin müxtəlif dəyərlərə malik olduqlarına görə sən eyni qiymətləndirilmiş suala müxtəlif cavablar alacaqsan. Sən qiymətləndirmə suallarını şagirdlərə fərqli baxışlara sahib olanlarla yaşayıb, onları qəbul etməyi öyrənmələrinə kömək etmək üçün istifadə edə bilərsən, bununla da onları müxtəliflilik cəmiyyətində həyata hazırlayacaqsan.

***Elmi yeniliyi:*** Son zamanlar şagirdlərin düşünmə vərdişlərinin xüsusilə vurğulanması ondan irəli gəlir ki, müasir, texnologiyalarla zəngin olan cəmiyyətimizdə baş verən dəyişiklikləri başa düşən, anlayan, informasiyaları tətbiq , problemləri təhlil etmək və həlli yollarını tapmaq bacarığına malik olan, əldə edilmiş nəticəni dəyərləndirən insanlara ehtiyac duyulur. Blumun taksonomiyası düşünmə vərdişlərinin təlimi sahəsində bir klassik nəticədir və onun kimya dərslərində istifadəsi kimya fənninin şagirdlər tərəfindən daha yaxşı mənimsənilməsinə şərait yaradır.

***Tətbiqi əhəmiyyəti:*** Fənn müəllimləri, eləcə də kimya müəllimləri Blum taksonomiyasından istifadə etməklə şagidlərin düşünmə vərdişlərinin inkişaf etdirilməsinə nail olmaqla onlara istənilən məsələni anlamaq, analiz və təhlil etmək kimi bacarıqları aşılaya bilər.

## ƏDƏBİYYAT

1. Laktonov M.B. Taksonomik yanaşma tələbələrin təlim keyfiyytinin monitorinqinin əsası kimi // www.webmaster@mst.edu.ru
2. Sultanova İ. Müasir təhsildə taksonomiyalar: Ə.Əlizadənin elmi nəticələri və milli kurikulum Kurikulum jurnalı 2008, s. 58-63
3. “ Mədəd Azərbaycan” təşkilatı Ümumi təhsil kurikulumunun əsasları . 2014

## РЕЗЮМЕ
## РОЛЬ ТАКСОНОМИИ БЛУМА НА УРОКАХ ХИМИИ

***Гулиева Г.Н. , Абдуллаева Г.Б.***

***Ключевые слова:*** *цель, ценность, синтез, применение, таксономия*

В статъе рассматривается важность применения таксономии Блума на уроках химии. Следует выделить 6 основных уровней таксономии Блума: знание, понимание, применение, анализ, синтез, оценивание.

## SUMMARY
## THE ROLE OF BLOOM TAXSONOMY IN CHEMISTRY LESSONS

***Gulieva G.N., Abdullayeva H.B.***

***Key words:*** *purpose, value, synthesis, application, taxonomy*

The importance of using Bloom's taxonomy in chemistry classes is analysed in the article. It should highlight the 6 main levels of Bloom's taxonomy : knowledge, comprehension , application, analysis, synthesis, evaluation.

Daxil olma tarixi: Ilkin variant 31.03.2015
Son variant

**UOT**

# XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN KİMYA MƏSƏLƏLƏRİNİN HƏLLİ METODİKASI

**İDRİSOVA SƏADƏT ŞƏRİF qızı**
*Sumqayıt Dövlət Universiteti, dosent*
**BAYRAMOVA FLORA ÇİNGİZ qızı**
*Sumqayıt Dövlət Universiteti, laborant*
*e-mail: bayramova1975@ bk .ru , issaedet@mail.ru*

***Açar sözlər:*** *idrak, müstəqil iş, qabiliyyət, fərdi fəaliyyət*

Şaqirdlərin müstəqil çalışmaları, onların yaradıcı fəaliyyətinin hər vasitə ilə üzə çıxarılması üçün maksimum şərait yaradılması zəruri məsələdir. Deməliyik ki, bu mühüm vəzifənin yerinə yetirilməsində kimya fənninin tədrisi üzrə aparılan dərs və sinifdənxarıc işlərin, müstəqil həll olunan məsələlərin mühüm əhəmiyyəti vardır.

Kimyanın tədrisi üçün səciyyəvi olan müstəqil həll etmək üçün məsələ həlli, dərsin didaktik məqsədlərini müvafiq qruplaşdırır, nümunələr göstərir.

Bu iş təcrübələrimizdə şagirdlərin və tələbələrin qabiliyyətlərinin inkişafına, formalaşmasına imkan yaradan həmin iş növlərinin hər birinə yeri gəldikcə istinad edirik.

Məlumdur ki, dərs prosesində tələbələrin qazandıqları bilik və bacarıqları müstəqil şəkildə nümayış etdirməyə imkan verən məsələ həlli məzmununa, xarakterinə görə müxtəlif olur.

Şagirdlərdə və tələbələrdə kimya məsələlərini həll etmək bacarığının formalaşdırılması, bu mühüm işin təsadüfdən-təsadüfə deyil, bütün kursun öyrənilməsi prosesində fasiləsiz, həm də sistemli surətdə və tədricən mürəkkəbləşdirmək şərtilə həyata keçirildiyi şəraitdə təmin edilir [2,8].

Biz uzunmüddətli şəxsi təcrübəmizə və orta məktəbdə kimya dərsləri üzərində apardığımız müşahidələrə əsasən, bütün kimya məsələ və misallarını şərti olaraq üç böyük qrupa bölməyi münasib bilirik: birincisi, qarşıya qoyulan suallara cavab tələb edən məsələlər (məsələ-suallar), ikincisi, hesablama məsələləri, üçüncüsü isə eksperimental məsələləridir.

Orta məktəbdə kimya tədrisi praktikasında şagirdlər hesablama məsələlərindən başqa keyfiyyət və kombinə edilmiş məsələlərin də bir çox növlərinə rast gəlirlər. İndi isə yuxarıda qeyd olmuş məsələ qrupları üzərində müxtəsər də olsa dayanaq.

Məsələ-suallar dedikdə, başlıca olaraq, heç bir kimyəvi formulun və reaksiya tənliyinin yazılması tələb olunmayan, yalnız mühakimə yürütməklə, yəni məntiqin gücü ilə həll edilə bilən kimya məsələləri nəzərdə tutulur. Buna görə də bu tip məsələlər bəzən məntiq və mühakimə məsələləri də adlanır.

Məsələ-suallar əsas etibarı ilə şagirdlərə verilən suallardan ibarət olur. Lakin bu suallar gündəlik dərslərin sorğusu zamanı verilən sualdan çətinlik baxımından müəyyən qədər fərqlənir.

Belə ki, gündəlik dərslərin sorğusunda sualın cavabını şagird qabaqcadan öyrənmişdir. Sorğu zamanı onu yalnız yadına salmalıdır. Məsələ - suallarda isə cavabı məntiqin gücünə əsasən özü fikirləşib tapmalıdır. Çünki istifadə etdiyi dərslikdə və digər kitabda onun hazır cavabı yazılmamışdır. Bu tip məsələlərin həll edilməsinin şagirdin fikirləşməsi bu yol ilə zehnini və ya idrak fəaliyyətini inkişaf etdirmək baxımından olduqca böyük əhəmiyyəti vardır.

Beləliklə, yalnız əqli mühakimə yürütməklə, başqa sözlə desək, düşündürəcək cavabı tapılan və çox vaxt nə üçün? nədən ötrü? niyə? nə cür? suallarına cavab verilməsini tələb edən, kimyəvi formul və ya tənlik yazıb, onların əsasında xüsusi hesablama əməliyyatlarının aparılması lazım gəlmədən həll oluna bilən məsələlərə, məsələ-suallar və ya məntiq (mühakimə) məsələləri deyilir.

Kimya məsələlərinin ikinci böyük və başlıca qrupunu hesablama məsələləri təşkil edir. Hesablama məsələlərində, adətən, məlum kəmiyyətlər olur. Bu kəmiyyətlər məsələnin şərtində hazır şəkildə verilir, ya da onları bilavasitə təcrübədən, istehsalatdan, soraq kitablarından, müxtəlif cədvəllərdən və sairədən axtarıb tapmaq lazım gəlir. Bundan sonra isə verilmiş və ya tapılmış kəmiyyətlərə istinad edərək məsələdə tələb olunan nəticə hesablanır.

Yuxarıda qeyd etdiyimiz kimi, hesablama məsələlərinin özlərini də xarakterindən asılı olaraq, ümumi şəkildə bir neçə qrupa ayırmaq mümkündür: a) sadə çalışma məsələləri; b) elmi-tədqiqat xarakterlı məsələlər; v) istehsalat –texniki məzmunlu məsələlər və s. [1,141].

Kimya məsələlərini üçüncü böyük qrupunu eksperimental məsələlər təşkil edir. Qeyd edildiyi kimi, eksperimental məsələlər özü də iki qrupa ayrılır. Birinci qrupa sırf təcrübə ilə əlaqədar olan eksperimental məsələlər, ikinci qrupa isə həm təcrübə edilməsi, həm də hesablama aparılması lazım gələn məsələlər daxildir. Ikinci qrupa daxil olan məsələlər eksperimental-hesablama məsələləri də adlanır.

Hesablama məsələlərin həlli üsulu üç yolla həyata keçirilə bilər: 1) müəllimin özü tərəfindən; 2) müəllimin köməyi ilə şagirdlər tərəfindən; 3) şagirdlərin özləri tərəfindən müstəqil surətdə (yoxlama məsələlər) [3, 82]

Şagirdlərin müstəqil iş üsullarından biri olan kimya məsələlərinin həllindən ibarət olan nümunələr aşağıda verilmişdir.

*Məsələ 1:*

X, Y və Z maddələrinin hər birinin 0,1 molunun 1000 *q* suda ayrı-ayrılıqda məhlulları hazırlanır. Bu məhlulların donma nöqtələri – 0,186$^0$C, - 0,372$^0$C, - 0,744$^0$C–dir. Buna görə X,Y və Z maddələrinini müəyyən edin.

| | X | Y | Z |
|---|---|---|---|
| A) | Şəkər | $CaCl_2$ | $AlCl_3$ |
| B) | şəkər | NaCl | $FeCl_3$ |
| C) | NaCl | $C_2H_5OH$ | $AgNO_3$ |
| D) | $C_2H_5OH$ | $NaNO_3$ | $Ca(NO_3)_2$ |
| E) | $CH_3COOH$ | $KNO_3$ | $MH_4NO_3$ |

*Həlli:*

1000 *q* (1 *kq*) suda 1 mol hissəccik (ion və ya molekul) həll olduqda məhlul - 1,86$^0$C-də donmağa başlayır.

1000 q (1 *kq*) suda 2 mol hissəcik həll olduqda məhlul - 3, 72$^0$C-də donur.

Donma nöqtəsi həllediciniin 1 *kq*-da həll olan maddənin hissəcikləri sayına bərabərdir.

Şəkər suda həll olan molekulyar birləşmədir. Yəni 1 kq suda 0,1 mol şəkər həll olduqda məhlulda 0,1 mol molekul olur. Onda şəkər məhlulunun donma temperaturu

1mol → 1,86$^0$C düşürsə,

0,1 mol → x $^0$C düşər

x = - 0,186$^0$C olur

1 *kq* suda 0,1 mol NaCl həll olduqda

$NaCl \rightleftharpoons Na^+ + Cl^-$

0,1 0,1 0,1

Ümumilikdə 0,2 mol ion olur. Onda məhlulun donma temperaturu

0,2 · (-0,186) = - 0,372$^0$C olur.

$CaCl_2$ məhlulunda:

$CaCl_2 \rightleftharpoons Ca^{2+} + 2Cl^-$

0,1 0,1 0,2

0,3 mol ion var. Onda $CaCl_2$ məhlulunun donma nöqtəsi

0,3· (-0,186) = - 0,558$^0$C olur.

$FeCl_3$ məhlulunda:

$FeCl_3 \rightleftarrows Fe^{3+} + 3Cl^-$

0,1 0,1 0,3

Ümumilikdə 0,4 mol ion var.

$FeCl_3$ məhlulun donma nöqtəsi

$0{,}4 \cdot (-0{,}186) = -0{,}744^0C$ olur.

*Məsələ 2:*

Əvvəlki illərin kimya dərsliklərinin birində yazılmışdır ki, Avoqadro ədədi Yer kürəsindəki insanların hamısının birlikdə saçlarındakı tüklərin sayının cəmindən, yaxud okeanlar, dənizlər və çaylardakı suyun stəkanlarla sayından ölçülməz dərəcədə böyükdür. Dərslik müəlliflərinin bu qənaətinin səhv olduğunu hesablama yolu ilə sübüt edin.

*Həlli:*

Bir adamın saçında orta hesabla $100000 = 10^5$ tük var. Yer üzərində 6 milyard 600 milyon əhali var: $6600000000 = 6{,}6 \cdot 10^9$

Insanların saçlarında olan tüklərin ümumi sayı:

$6{,}6 \cdot 10^9 \cdot 10^5 = 6{,}6 \cdot 10^{14}$

Avoqadro ədədinin bundan neçə dəfə böyük olduğunu hesablayaq:

$$\frac{6{,}02 \cdot 10^{23}}{6{,}6 \cdot 10^{14}} = \frac{6{,}02 \cdot 10^{21}}{6{,}6 \cdot 10^{14}} = 91{,}121 \cdot 10^7 = 9{,}12 \cdot 10^8$$

Deməli, Avoqadro ədədi Yer kürəsindəki insanların saçlarındakı tüklərin birlikdə sayından 912 milyon dəfə çoxdur.

Yer kürəsinin üzərində 1,4 milyard $km^3$ su var.

1,4 milyard $km^3 = 1400000000 = 1{,}4 \cdot 10^9\ km^3$

1 $km^3$ –in neçə l $l$ olduğunu tapaq:

$1\ m^3 = 1000\ l = 10^3\ l$

$1000\ m \cdot 1000\ m \cdot 1000\ m = 1000000000\ m^3 = 10^9\ m^3 = 1\ km^3$

$$\begin{cases} 1\ m^3 - 10^3\ l \\ 10^9\ m^3 - x \end{cases} \qquad x = \frac{10^9 m^3 \cdot 10^3 l}{1m^3} = 10^{12}\ l$$

Deməli, $1\ km^3 = 10^{12}\ l$

Yer kürəsi üzərindəki suyun $(1{,}4 \cdot 10^9\ km^3)$ $l$ olduğunu tapaq

$1\ km^3 - 10^{12}\ l$

$1{,}4 \cdot 10^9\ km^3 - x$ $\qquad x = \dfrac{1{,}4 \cdot 10^9 km^3 \cdot 10^{12} l}{1km^3} = 1{,}4 \cdot 10^{21}\ l$

Dünyadakı su ehtiyatının stəkanla miqdarını hesablayaq:

$0{,}2\ l$ su – $y$ stəkan

$1{,}4 \cdot 10^{21} - x$

$$x = \frac{1{,}4 \cdot 10^{21} l \cdot 1 st.su}{0{,}2 l} = 7 \cdot 10^{21} \text{ stəkan su}$$

Avoqadro ədədinin bundan neçə dəfə böyük olduğunu tapaq:

$$\frac{6{,}02\cdot 10^{23}}{7\cdot 10^{21}}=\frac{6{,}02\cdot 10^{2}}{7}=86 \text{ dəfə}$$

Buradan aydın olur ki, dərslik müəlliflərinin fikirləri səhv olmuşdur. Həmin müqayisələrdə dəqiq nəticələr almaq olur. [ 4, 17,133,151 ]

*Məsələ 3.* Qaz balonu $CT_4$ (T – tritium) ilə doldurulub. Həmin balonu metanla doldurduqda kütləsinin dəyişməməsi üçün təzyiqi neçə dəfə artırmaq lazımdır?

*Həlli:*

Normal şəraitdə 1 *l* qabda m q $CT_4$ olduqda təzyiqi hesablayaq:

$PV=\frac{m}{M}RT$ V = 1 *l*; $M(CT_4) = 24$

$PV = mRT$ R = 0,082 *l · atm/K· mol*

T = 273

$$P=\frac{mRT}{VM}=\frac{m\cdot 0{,}082\cdot 273}{1\cdot 24}=0{,}933m\cdot atm$$

Həmin şəraitda eyni miqdarda, yəni m *q* metan olduqda təzyiqi hesablayaq:

$M(CH_4)$ = 16 q/mol

$$P=\frac{m\cdot 0{,}082\cdot 273}{16}=1{,}399m\cdot atom$$

Təzyiqin fərqi $\frac{1{,}399m}{0{,}933m}=1{,}5$

Deməli, qabı həmin miqdarda metanla əvəz etdikdə təzyiq 1,5 dəfə artır.

## ƏDƏBİYYAT


1. Əliyev R., Əzizov Ə. Kimya təliminin prinsipləri və priyomları. Bakı: 2002.
2. Bilqeys Hüseynova "Kimya və biologiyanın tədrisi". // "Azərbaycan məktəbi" jurnalı, 1994.
3. Murad Vəliyev "Olimpiada xarakterli məsələlərin həlli". Bakı: 2004, № 3
4. Abbasov M., Mahmudov T., Abışov N., Zeynalov Z., Abbaszadə S. Kimyadan olimpiada məsələləri . Bakı: 2009.


## РЕЗЮМЕ
## МЕТОДИКА РЕШЕНИЯ ЗАДАЧ ПО ХИМИИ, ТРЕБУЮЩИХ ОСОБЕННЫХ СПОСОБНОСТЕЙ

***Идрисова С.Ш., Байрамова Ф.Ч.***

***Ключевые слова:*** *сознание, самостоятельная работа, способность, личная деятельность*

В данной статье рассмотрены методы формирования у учеников способности самостоятельно решать задачи, а также задачи, отвечающие тематическому плану обучению курса химии в средних школах, а также задачи повышенной сложности.

**SUMMARY**

**METHOD OF CHEMICAL PROBLEMS REQUIRING SPECIAL ABILITIES**

***Idrisova S.Sh., Bayramova F.Ch.***

***Key words:*** *consciousness, independent work, ability, personal activity*

In the article the methods of student's independent study in the form of issues in accordance with curriculum in schools are investigated.

| | | |
|---|---|---|
| Daxil olma tarixi: | Ilkin variant | 22.05.2015 |
| | Son variant | |

**UOT**

# ZOOLOGİYADAN QUŞLAR SİNFİNƏ DAİR ÇƏTİN MƏNİMSƏNILƏN MÖVZULAR

**BAXŞALIYEV ARZU YELMAR oğlu**
*Sumqayıt Dövlət Universiteti, dosent*
**SULTANOVA NATELLA HƏSƏNXAN qızı**
*Sumqayıt Dövlət Universiteti, dosent*
**AXUNDOVA SEVİL MƏHƏRRƏM qızı**
*Sumqayıt Dövlət Universiteti, baş müəllim*
**QƏHRƏMANOVA AİDƏ YARIŞ qızı**
*Sumqayıt Dövlət Universiteti, assisent*
*e-mail: Baxsaliyev-Arzu@mail.ru*

**Açar sözlər:** *sarkomastiqaforlar, sporlular, infuzorlar, embrioloji və filogenetik*.

*Zoologiya kursunda əvvəl ibtidailər, sonra isə çoxhüceyrəli heyvanlar tədris edilir. Sonda xordalılar tipinin məzmunu öyrədilir. Bu tipin quşlar sinfinin nümayəndələrinin xarakterik xüsusiyyətlərinin öyrənilməsi olduqca maraqlı mövzulardan biridir. Orta məktəb şagirdləri üçün quşların uçması, tənəffüsü və digər xüsusiyyətləri bu baxımdan daha böyük maraq doğurur.*

Şagirdlərin həyati bacarıqlarının, bioloji biliklərin öyrədilməsi təlim və tərbiyəsi tərtib olunan proqramlarda əksini tapan mövzuların məzmunundan asılıdır. Bu isə öz növbəsində şagirdlərin biliklərinin sistemləşdirilməsinə, ümumiləşdirilməsinə, məntiqi və tənqidi təfəkkürünün inkişafına xidmət etməlidir. Bu baxımdan, biologiya fənni şagirdlərin həyata hazırlanmasında, onların müasir bilik və bacarıqlarının inkişafında və formalaşmasında böyük praktik əhəmiyyət daşıyır. 2013-cü ilə qədər VII sinifdə şagirdlərin botanikadan bilikləri yekunlaşdırılır və ikinci yarım ildə heyvanlar aləminin öyrənilməsinə, yəni heyvanlar kursunun tədrisinə başlanılırdı. Burada ilk növbədə, sistem və ardıcıllıqla kiçik ölçülü heyvanlar, birhüceyrəlilər öyrədilirdi. 5 tipin daxil olduğu ibtidai heyvanların 3 tipinin – sarkomastiqaforlar, sporlular və infuzorlar tiplərinin xüsusiyyətləri, xarakterik nümayəndələr üzrə öyrənilirdi. Sonra isə çoxhüceyrəli heyvanlar tədris edilirdi. Bunlardan bağırsaqboşluqlular tipi, yastı qurdlar tipi, sap qurdlar tipi, həlqəvi qurdlar tipi, molyusklar tipi öyrədilirdi. Hazırda isə VII sinifdə biologiya fənni kurikulum proqramı üzrə tədris olunur. VIII sinif proqramında buğumayaqlılar tipi, dərisitikanlılar tipi kimi böyük tiplərin quruluş xüsusiyyətləri, inkişafı, anatomik, fizioloji xüsusiyyətləri, əhəmiyyəti və s. məsələlər, sonda xordalılar tipinin məzmunu öyrədilir. Zoologiya kursu məzmunca xeyli mürəkkəbdir və buraya morfoloji, anatomik, fizioloji, ekoloji, embrioloji, sistematik və filogenetik anlayışlar daxildir (1). Ancaq biz quşlar sinfinə dair çətin mövzular haqqında qısada olsa məlumat verməyi məqsəd kimi qarşıya qoyduq.

Quşlar genetik cəhətdən sürünənlərə yaxın olub, ali onurğalıların uçmağa uyğunlaşmış sinfidir. Onların bədən temperaturu sabit olub, ətraf mühit temperaturundan asılı deyil. Quşlarda ön ətraflar qanadlara çevrilmişdir, bədən lələklərlə örtülmüşdür, uçmağa uyğunlaşmaq isə quşların xarakterik xüsusiyyətidir. Quşların uçmaqdan başqa həm də quruda gəzməsi, qaçması, ağaca dırmanması və bir çox növün suda üzməsi onların həyat fəaliyyətinin ümumi səviyyəsini yüksəltmişdir (2).

Quşlar sinfinin istər morfoloji, istərsə də anatomik quruluşu və hər bir orqanın ayrı-ayrılıqda funksiyası haqqında məlumatları şagirdlərə dəqiqliklə və onların yaxşı qavrayacağı şəkildə açıb göstərmək üçün ilk istifadə olunan material orta məktəb dərsliyidir.

Orta məktəb şagirdləri üçün quşların uçması hadisəsi olduqca maraqlı mövzulardan biridir. Belə ki, quşların uçması prosesi və bu prosesdə rol oynayan amillər, o cümlədən,

quşlarda hava kisələrinin mövcudluğu, onların ikiqat tənəffüsdə rolu, ümumiyyətlə, uçuşunu təmin edən orqanların quruluş və funksiyaları haqqındakı biliklərə yiyələnmələri şagirdlərin elmi dünyagörüşlərinin formalaşdırılmasında bilavasitə rol oynayır. Lakin təəssüflə qeyd edək ki, orta məktəb dərsliyində quşların uçması və bu prosesdə rol oynayan amillər şagirdlərin qavrayacağı səviyyədə öz əksini tapmayıb. Bu baxımdan, quşlar sinfinin nümayəndələrinin tənəffüs sistemi, o cümlədən, ikiqat tənəffüs prosesi və bu prosesdə əsas rol oynayan hava kisələri haqqında verilən bilgilərin tədrisi şagirdlər tərəfindən çətin mənimsənilən mövzular sırasına aiddir. Bu səbəbdən də zoologiyanın tədrisi zamanı quşlar sinfinin öyrənilməsində vacib yer tutan bioloji proseslərdən biri də onların tənəffüs sisteminin quruluş və funksiyasının aydınlaşdırılmasıdır.

Quşlarda nəfəs borusu bəzən bədənin ölçüsündən uzun olur. Bu halda nəfəs borusunun alt hissəsində qırışlar əmələ gəlir ki, bunlar da döş sümüyü darağında, döş əzələləri ilə dəri arasında, yaxud da bədən boşluğunda yerləşə bilər. Səs orqanı kimi fəaliyyət göstərən alt qırtlaq – nəfəs borusunun son halqaları, bronxların isə ilk halqalarından təşkil olunmuşdur. Bu zaman halqalardan bir hissəsi qonşu halqalarla bitişir, bəzi halqalar isə hərəkətli olaraq qalır və halqaları birləşdirən yumşaq pərdə halqanın hərəkəti zamanı bronx boşluğunun daxilinə tərəf istiqamətlənə bilər. Bronxların nəfəs yoluna yaxın hissəsində onların divarlarını saxlayan qığırdaqlı halqaların içi dolu olmur. Bronx divarlarının daxili hissəsində üçbucaq formalı, eləcə də səs qəbul etmək funksiyasını yerinə yetirən yumşaq hissələr qalır. Quşun bütün bədəninə nisbətən ağciyərləri çox kiçik olub xüsusi bağlar vasitəsilə döş qəfəsi içərisinə hərəkətsiz surətdə gərilmiş olurlar. Onun arxa tərəfi onurğa fəqərələri və qabırğaları ilə sıx bitişmişdir. Bronxlar ağciyərlərə daxil olduqdan sonra ciyər içərisi ilə onun xarici divarlarınadək uzanır. Bronxların ağciyərə daxil olduğu ayrı-ayrı budaqları çox nazik pərdəli hava kisələrinə açılırlar ki, bu kisələrin həcmi ağciyərlərin həcmindən xeyli çox olur. Hava kisələri quşun bütün daxili orqanları arasında yerləşir və bunların çoxlu miqdarda çıxıntıları isə əzələlər arasında, dəri altında və sümük boşluğuna daxil olmuş vəziyyətdə olur. Hava kisələrinin başlıca vəzifəsi uçuş zamanı tənəffüsə xidmət etməklə yanaşı, həm bədəni qızdırmaq, həm də yüngülləşdirməyə xidmət etməkdir.

Quşların tənəffüsü həmişə eyni olmur: məsələn, ördək sakit dayanarkən dəqiqədə 10-16 dəfə, havaya qalxarkən isə dəqiqədə 90-120 dəfə nəfəs alır, göyərçin sərbəst oturan zaman dəqiqədə 26, gəzəndə 77, uçanda isə 400 dəfə tənəffüs edir. Quşların uçan zaman belə intensiv tənəffüs etməsinə səbəb maddələr mübadiləsi və xüsusilə ATF-in oksidləşməsi və bərpası üçün çoxlu miqdarda oksigenin tələb olunmasıdır (4).

Quşun ehtiyatla yarılması zamanı qarın hava kisələrini asanlıqla görmək olar. Xüsusi birləşdirici toxumalı əzələ kələfi ilə təchiz olunmuş pərdə hər tərəfdən ağciyərə, döş sümüyünə və qabırğalara bərkidilmişdir. Bu pərdə ağciyər diafraqması adlanır və nəfəs alıb, nəfəs verərkən agciyəri dartılmış vəziyyətdə saxlayır. Hava kisələrində olan hava tərkibinə görə atmosfer havasından az fərqlənir və yalnız 1%-ə yaxın $CO_2$ malikdir.

Orta məktəb dərsliyində göstərilir: “Quş qanadlarını endirdikdə hava kisələri sıxılır, ön hava kisələrindəki oksigensiz hava bronxlardan ətraf mühitə yayılır, agciyərlərdəki istifadə olunmuş hava ön hava kisələrinə dolur, arxa hava kisələrindəki təmiz hava isə agciyərlərə keçir və quş təkrar tənəffüs edir. Deməli, quş uçarkən nəfəsalma və nəfəsvermə zamanı tənəffüs edir” (3). Orta məktəb dərsliyində ikiqat tənəffüs prosesinin bu cür verilməsi şagirdlərdə yanlış təsəvvür yaradır. Qarın əzələsinin hərəkəti zamanı, eləcə də uçuş zamanı əzələlər vasitəsilə hava kisələri sıxılır. Sıxılan hava kisələri həcmcə gah böyüyüb, gah da kiçilərək bir qədər dartılmış ağciyərlərdən xaricə daha çox hava qovurlar. Quşlarda tənəffüs aktı uçmadıqları vaxtda döş qəfəsinin genişlənməsi və sıxılması yolu ilə gedir, bu da döşün onurğadan uzaqlaşdırılması və yaxınlaşdırılması ilə əldə edilir. Lakin uçuş zamanı döş əzələləri intensiv surətdə işlədiyindən agciyərlərdən xaricə daha çox hava qovurlar. Deməli, quşlarda tənəffüs aktı uçmadıqları vaxtda döş qəfəsinin genişlənməsi və sıxılması yolu ilə gedir, bu da döşün onurğadan uzaqlaşdırılması və yaxınlaşdırılması ilə əldə edilir. Lakin uçuş zamanı döş əzələləri intensiv surətdə işlədiyindən

bu cür tənəffüs mümkün deyil. Buna görə də uçma zamanı tənəffüs hava kisələrinin köməyi ilə baş verir (5). Belə ki, qanadlar qaldırıldıqda kisələr dartılır və ağciyərdən gələn hava ilə dolur, qanad endirildikdə isə kisələr sıxılır və onların daxilindəki hava yenidən ağciyərlərdən xaricə çıxır. Hava kisələrinin özündə qan oksidləşmir. Bunların həcmi ağciyərin həcmindən daha artıq olduğundan kisələrə daxil olan havanın ancaq bir qismi ağciyərlər tərəfindən istifadə olunur. Nəfəs verilən zaman oksigenlə zəngin olan hava yenə ağciyərdə qanı oksidləşdirir. Qan həm nəfəs alma və həm də nəfəs vermə zamanı oksidləşir. Belə ki, mürəkkəb sistemə malik olan kisələrin və boşluqların daxilində qalan hava atmosfer havasından az fərqləndiyindən quşlarda tənəffüs prosesi təkcə havanın mərkəzəqaçma hərəkəti ilə, yəni ağciyərlərdən hava kisələrinə deyil, eləcə də mərkəzdənqaçma axını şəklində, yəni hava kisələrindən ağciyərlərə ötürülməsi baş verir. Bu hadisə ikiqat tənəffüs adlanır. Uçuş zamanı intensiv iş ilə əlaqədar olaraq quşlara lazım olan qaz mübadiləsi bu cür əldə edilir.

Dərs prosesi zamanı müəllim ikiqat tənəffüsün necə getməsini şagirdlərin nəzər-diqqətinə dəqiqliklə və onların yaxşı başa düşə biləcəyi səviyyədə çatdırmalıdır. Hava burun dəliklərindən daxil olaraq traxeya, bronxları keçərək ağciyərə gəlir. Oraya daxil olan havanın hamısı tənəffüs prosesində iştirak etmir, bir hissəsi hava kisələrinə keçir. Deməli, birinci tənəffüs hava ətraf mühitdən orqanizmə daxil olan zaman baş verir. Quş uçan zaman qanadlarını çaldıqda hava kisələri yığılaraq içərisindəki havanı yenidən ağciyərlərə qaytarır və həmin hava ikinci dəfə tənəffüs prosesində iştirak edir. Buna görə də ümumi tənəffüs ikiqat tənəffüs adlanır. Quşların ikiqat tənəffüsə malik olma cəhəti ilə onların bir sıra quruluş xüsusiyyətləri və qabiliyyətləri ilə izah olunur. Belə ki, quşlar təngənəfəs olmurlar. Çünki, quş qanadını nə qədər qüvvətli çalsa, bir o qədər də yaxşı nəfəs alar. Belə ki, qanadlar vasitəsilə gücləndirilmiş hərəkət, boyunun bir hissəsi, körpücükaltı və döş kisələrini sıxan əzələlər də tənəffüsü gücləndirir. Kisələrin olması həm də, təxminən 10%-ə qədər quşların xüsusi çəkisini azaldır.

Bu mövzunu həmçinin beyin həmləsi (strategiya), klaster (şaxələndirmə), ziqzaq və digər fəal təlim metodlarından istifadə etməklə tədris etmək olar. Belə təşkil edilmiş dərslər maraqlı, həmdə yadda qalan olur.

## ƏDƏBIYYAT


1. Babayev M., Məcidov M. Biologiyanın tədrisi metodikası. Bakı: 2008.
2. Abbasov H.S., Mustafayev Q.T.və b. Onurğalılar zoologiyası Bakı:1999.
3. Abbasov H.S., Qasımov Ə.H., Əliyev S.V., Əliyev T.R. və b. Zoologiya: 7–8 ümumtəhsil məktəbləri üçün dərslik. Bakı: Çaşıoğlu, 2002.
4. Бровкина Е.Г., Казмина Н.Й. Уроки зоологии. М.: Просвещение, 1987.
5. Школьник Ю.К. Животные. Москва: Эксмо, 2008.


## РЕЗЮМЕ

## СЛОЖНО УСВАИВАЕМЫЕ ТЕМЫ ПО ЗООЛОГИИ, ОТНОСЯЩИЕСЯ К КЛАССУ ПТИЦ (ЛАТ. AVES)

***Бахшалиев А.Е., Султанова Н.Г., Ахундова С.М., Гахраманова А.Ю.***

***Ключевые слова**: саркомастигофоры, апикомплексы, инфузории, эмбриологический и филогенетический.*

В курсе зоологии сначала изучаются одноклеточные, а потом многоклеточные животные. Завершается обучение изучением типа хордовых. Изучение характерных особенностей представителей класса птиц этого типа является одним из самых интересных тем. Полет, дыхание и другие свойства птиц представляют большой интерес при изучении данной темы.

**SUMMARY**

**COMPLICATED SUBJECTS ON BIRDS CLASSIFICATIONS (Lat. AVES) IN ZOOLOGY**

***Bakhshaliev A. E., Sultanova N.H., Akhundova S. M., Gahramanova A. Y.***

***Key words***: *sarcomastigophoras, apicomplexa, ciliate, embryological and phylogenetic.*

At first unicellular, then multicellular animals are taught in zoology course. After all, the contests of the Phylum Chordates are taught. Learning characteristic features of birds of this phylum is one of the most interesting themes. Flying, breathing and other characteristics of birds arose great interest for secondary school pupils.

Daxil olma tarixi: Ilkin variant 02.06.2015
Son variant

## MÜNDƏRİCAT


***Dilçilik***

| | | |
|---|---|---|
| 1 | *Zamanov N.* Heydər Əliyevin nitqində mürəkkəb cümlələrdən istifadə üsulları | 6 |
| 2 | *Əhmədov N.Ş.* Qərbi Azərbaycanın Qaraqoyunlu bölgəsinin dialekt leksikası | 13 |
| 3 | *Eminli B.İ.* Müəllim sözü müraciət forması kimi | 19 |
| 4 | *Zeynalov R.S.* Mahmud Kaşğarinin "Divanü lüğat-it türk" əsərində atalar sözləri və zərb məsəllərdə işlənən ismi birləşmələr | 24 |

***Ədəbiyyatşünaslıq***

***Tarix və sosiologiya***

| | | |
|---|---|---|
| 5 | *Məmiyev C.M., Bünyadov Z.V.* Məhbuslarla sosial işin təşkili xüsusiyyətləri | 28 |

***İqtisadiyyat***

| | | |
|---|---|---|
| 6 | *Hüseynov Q.S.* Elektrik enerjisinin qiymətinin əmələ gəlməsi ilə bağlı olan məsələlər | 33 |
| 7 | *Abdullayev L.İ., Osmanov İ.O.* Azərbaycanda logistikanın tətbiqi və inkişafı | 38 |
| 8 | *Ağayev T.D., Alməmmədli M.G., Hüseynova L.İ.* Abşeron iqtisadi rayonunun təbii sərvətlərindən təsərrüfatda istifadə imkanları | 43 |

***Pedaqogika, psixologiya, metodika***

| | | |
|---|---|---|
| 9 | *Aslanov Y.Y., Rəfiyeva A.İ.* Ədəbiyyat müəllimi hazırlığı və tədris problemləri | 48 |
| 10 | *Əşrəfov R.Q.* Müxtəsər və geniş cümlənin tədrisində fəal/interaktiv təlim metodlarından istifadə | 53 |
| 11 | *Şirinova M.M.* Sintaksisdə söz birləşmələrinin tədrisi ilə bağlı bəzi məsələlər | 60 |
| 12 | *Salamova K.B.* Rəhbərliyin və liderliyin psixoloji xüsusuyyətləri | 65 |
| 13 | *Heydərova M.N.* Riyaziyyat dərslərində fəallaşdırıcı təlim metodlarının tətbiqi yollari | 68 |
| 14 | *Quliyeva G.N., Abdullayeva H.B.* Blum taksonomiyasının istifadənin kimya dərslərində rolu | 75 |
| 15 | *İdrisova S.Ş., Bayramova F.Ç.* Xüsusi qabiliyyət tələb edən kimya məsələlərinin həlli metodikası | 79 |
| 16 | *Baxşalıyev A.Y., Sultanova N.H., Axundova S.M., Qəhrəmanova A.Y.* Zoologiyadan quşlar sinfinə dair çətin mənimsənilən mövzular | 84 |

## СОДЕРЖАНИЕ

***Языковедение***
*Заманов Н.*Способы употребления сложных предложений в речи Гейдара Алиева
*Ахмедов Н.Ш.* Толковый словарь диалектных слов региона гарагоюнлу Западного Азербайджана
*Эминли Б.И.* Слово «муэллим» как форма обращения
*Зейналов Р.С.*Именные словосочетания употребляемые в пословицах и поговорках в произведении Махмуда Кашгари "дивани лугат-ит турк"

***Литературоведение***

***История и социология***
*Мамиев Д.М., Буньядов З.В.* Особенности организации социальной работы с заключенными

***Экономика***
*Гусейнов Г.С.* Вопросы ценообразования электроэнергетической энергии
*Абдуллаев Л.И., Османов И.О.* Применение и развитие логистики в Азербайджане
*Агаев Т.Д., Алмаммадлы М.Г.,Гусейнова Л.И.* Возможности использования природных ресурсов в хозяйстве апшеронского экономического района

***Педагогика, психология, методика***
*Асланов Ю.Ю., Рафиева А.И.* Подготовка учителя литературы и проблемы обучения
*Ашрафов Р.Г.* Применение активного /интерактивного метода обучения в изучении нераспространенных и распространенных предложений
*Ширинова М.М.* некоторые вопросы изучения словосочетаний в преподавании курса синтаксиса
*Саламова К.Б.* Психологические особенности лидерства и руководства
*Гейдарова М.Н.* Пути внедрения активизирующих методов обучения на уроках математики
*Гулиева Г.Н. , Абдуллаева Г.Б.* Роль таксономии блума на уроках химии
*Идрисова С.Ш., Байрамова Ф.Ч.* Методика решения задач по химии, требующих особенных способностей
*Бахшалиев А.Е., Султанова Н.Г., Ахундова С.М., Гахраманова А.Ю.* Сложно усваиваемые темы по зоологии, относящиеся к классу птиц (лат. Aves)

## CONTENTS

***Philology***
*Zamanov N.T.* The methods of using complex sentences in Heydar Aliyev's speech
*Akhmedov N.Ş.*Dialectological lexics of qaraqoyunlu reqion in the Western Azerbaijan.
*Eminli B.İ.* The word "teacher" as an application form
*Zeynalov R.S.* Noun phrases used in proverbs and sayings in the work of Mahmud Kashgari «Divani lugat-it-turk»

***Literary Studies***

***History and social studies***
*Mamiyev J.M., Bunyadov Z.V.* Specifications of organization of social work with prisoners

***Economy***
*Huseynov Q.S.* Problems connected with the formation of electric energy prices
*Abdullayev L.I., Osmanov I.O.* Application and development of logistics in Azerbaijan
*Agayev T.D., Almammadli M.G.,Huseynova L.İ.* The possibility of using natural resource in the of absheron economic region

***Pedagogy, psychology, methods***
*Aslanov Y.Y., Rafiyeva A.I.* A literary teacher training and teaching problems
*Ashrafov R.G.* Using active interactive learning methods in the teaching of unextended and wide sentences
*Shirinova M.M.* Studying word combinations in syntax
*Salamova K.B.* Psycological characteristics of leadership and management
*Heydarova M.N.* Activating the application ways of mathematics teaching methods
*Gulieva G.N., Abdullayeva H.B.* The role of bloom taxsonomy in chemistry lessons
*Idrisova S.Sh., Bayramova F.Ch.* Method of chemical problems requiring special abilities
*Bakhshaliev A. E., Sultanova N.H., Akhundova S. M., Gahramanova A. Y.* Complicated subjects on birds classifications (Lat. Aves) in zoology

## MƏQALƏLƏRİN TƏRTİBATI QAYDALARI

Dərc olunacaq məqalə redaksiyaya həm kağız, həm də elektron formada təqdim olunmalıdır. Məqalə hazırlanarkən aşağıdakı tələblər nəzərə alınmalıdır:

1. Məqalə azərbaycan, rus və ingilis dillərində hazırlanmalıdır.
2. Məqalənin adı, xülasə və açar sözlər hər üç dildə təqdim olumalıdır.
3. Məqalə Microsoft Word mətn redaktorunda A4 formatda (soldan, yuxarıdan, aşağıdan və sağdan – 2 sm), Times News Roman şrifti ilə 12 pt. ölçüdə, vahid sətrarası intervala və mətn daxili yazıda 1 sm. abzas buraxmaqla hazırlanmalı və 8 səhifədən artıq olmamalıdır.
4. Məqalənin mətninin aşağıdakı bölmələrdən ibarət olması tövsiyə olunur:
   - Giriş (məsələnin aktuallığı, problemin hazırki vəziyyəti);
   - Tədqiqatın məqsədi, məsələnin qoyuluşu;
   - Məsələnin həlli üsulları və aprobasiyası;
   - Alınan nəticələrin tətbiqi;
   - Nəticə.
5. Məqalə aşağıdakı ardıcıllıqla hazırlanmalıdır:
   - UOT – soldan, böyük hərflərlə, qalın şriftlə, sonda 6 pt. interval;
   - məqalənin adı – ortadan, böyük hərflərlə, qalın şriftlə, sonda 6 pt. interval;
   - müəlliflərin inisialları və soyadı – ortadan, böyük hərflərlə, qalın şriftlə;
   - müəlliflərin iş yeri, şəhər, ölkə və e-poçt ünvanı – ortadan, 6 pt. interval;
   - xülasə (mətn təqdim olunan dildə) – sonda 6 pt. interval;
   - açar sözlər – kursivlə, sonda 6 pt. interval;
   - giriş və digər alt başlıqlar – soldan qalın şriftlə, əvvəlində və sonunda 6 pt. interval.
6. Ədəbiyyat siyahısı: hər bir istinad olunan mənbənin adı tərcümə olunmadan, məqalədə istifadə ardıcıllığına uyğun olaraq nömrələnir.
7. Ədəbiyyat siyahısından sonra məqalənin hazırlandığı dildən fərqli digər 2 dildə məqalənin adı, müəllifin soyadı, atasının adı, müəlliflərin iş yeri, şəhər, ölkə və e-poçt ünvanı, xülasə və açar sözlər təqdim olunur.
8. Məqalədə cədvəl və şəkillər nömrələnir: cədvəl – cədvəlin yuxarısında kursivlə, ortadan, (məs., *cədvəl 1.*), şəkil – şəkilin altında, kursivlə, ortadan (məs., *şəkil 1.*) və mətn hissədən (yuxarıdan və aşağıdan) 1 boş sətir buraxmaqla göstərilməlidir. Cədvəllər bilavasitə məqalənin mətnində yerləşdirilməlidir.
9. Düsturlar Microsoft Equation-də standart parametr ilə yığılır. Mətndə ancaq istifadə olunan düsturlar nömrələnir. Düsturun nömrəsi sağda mötərizədə yazılır.
10. Müəssisədə yerinə yetirilən tədqiqatın nəticələrini açıqlayan məqalənin çap edilməsi üçün müvafiq yazılı razılıq olmalıdar.
11. Məqalədə göstərilən məlumat və faktlara görə müəllif məsuliyyət daşıyır.
12. Redaksiya məqalənin əsas məzmununa xələl gətirmədən redaktə dəyişiklikləri və ixtisarları etmək hüququnu özündə saxlayır.
13. Məqalə çapa tövsiyyə edildikdə redaksiya heyətinin qərarı barədə müəllifə məlumat verilir.
14. Məqalə sadalanan tələblərə cavab verməzsə baxılmaq üçün qəbul edilmir və müəllifə qaytarılır. Əlyazmanın daxil olduğu vaxt mətnin son variantının redaksiyaya daxil olduğu gündən sayılır.
15. Redaksiyanın ünvanı : **Sumqayıt Dövlət Universiteti**

## ПРАВИЛА ОФОРМЛЕНИЯ СТАТЕЙ

Публикуемая статья должна быть представлена в редакцию в бумажном и в электронном виде. При подготовке статьи должны быть выполнены следующие требования:

1. Статья должна быть подготовлена на одном из языков – азербайджанском, русском или английском.
2. Название статьи, аннотация и ключевые слова должны быть представлены на трех языках.
3. Электронный вариант статьи должен выполняться в текстовом редакторе MicrosoftWordв формате А4 (поля: левое, правое, верхнее и нижнее – 2 см), шрифтом TimesNewsRomanразмером 12 пт. Межстрочный интервал – одинарный, абзацный отступ – 1 см, размер статьи не должен превышать 8 страниц.
4. Текст статьи рекомендуется составлять их нижеследующих разделов:
   - введение (актуальность проблемы, нынешнее состояние проблемы);
   - цель исследования, постановка задачи;
   - методы решения и апробация задачи;
   - внедрение полученных результатов;
   - результат.
5. Статья должна быть подготовлена в следующей последовательности:
   - УДК – слева жирным шрифтом, в конце интервал 6 пт;
   - название статьи – в центре, прописным и жирным шрифтом, в конце интервал 6 пт;
   - инициалы и фамилии авторов в центре прописным и жирным шрифтом;
   - место работы авторов, страна, город и адрес электронной почты – по центру, в конце интервал 6 пт;
   - аннотации (на языке представленного текста) – в конце интервал 6 пт; ключевые слова – курсивом, в конце интервал 6 пт;
   - введение и другие подзаголовки – слева, жирным шрифтом. В начале и конце интервал 6 пт.
6. Список литературы: название каждого источника не переводится и нумеруется в статье в соответствии с последовательностью использования.
7. После списка литературы название статьи, инициалы и фамилия авторов, место работы авторов, страна, город и адрес электронной почты, аннотация и ключевые слова представляются также на двух других языках.
8. В статье нумеруются таблицы и рисунки: таблица – верхней части таблицы, курсивом, в центре (например, *таблица 1*), рисунок – под рисунком, курсивом, в центре (например, *рисунок 1*) и, пропуская одну пустую строку от текста (из верхней и нижней частей).
9. Формулы набираются стандартными параметрами в MicrosoftEquation. Номер формулы пишется в скобках с правой стороны. В тексте нумеруются только использованные формулы.
10. Статьи, излагающие результаты, исследований выполняемых в учреждениях, должны иметь соответствующие разрешения и опубликование.
11. Автор несет ответственность за информацию и факты, указанные в статье.
12. Редакция оставляет за собой право производить редакционные изменения и сокращения, не искажающие основное содержание статьи.
13. В случае отклонения статьи редакция сообщает автору решение редколлегии.
14. Статьи, не отвечающие перечисленным требованиям, к рассмотрению не принимаются и возвращаются авторам. Датой поступления рукописи считается день получения редакцией окончательного текста.
15. Адрес редакции: **Сумгайытский государственный университет**

## RULES OF ARTICLE FORMATION

The article being published must be submitted to the editorship in paper or electron form/. In preparing the article the following requirements must be accomplished|:

1. An article must be prepared in one of the languages – Azeri, Russian or English.
2. The title, the summary and the key words must be submitted in there languages.
3. The electron variant of an article must be performed in the text-editor Microsoft Word in A4 format (margins: left side, right side, top, bottom – 2 cm), in Times News Roman type of size 12 pt. The vertical spasing is unary, paragraph indention – 1 cm, the article must not surpass 8 pages.
4. The text of an article is recommended to be prepared of the divisions mentioned below:
    - introduction (problem actuality, present state of the problem);
    - the aim of the investigation, task statement;
    - solution methods and task approbation;
    - introduction of the received results;
    - result.
5. An article must be prepared in the following sequence:
    - UDK – left-side – with extra bold type, at the end – the interval 6 pt;
    - The title of an article must be in the center, in a capital letter with extra-bold type, at the end the interval 6 pt;
    - Authors' initials and last names – in the center, in a capital letter with extra-bold type;
    - Authors' work places country, city and e-mail towards the center, at the end the interval 6 pt;
    - Summaries (in the language of the submitted text) – at the end the interval 6 pt; key words in italic type, at the end the interval 6 pt;
    - Introduction and other subtitles – on the left-side with extra-bold type, at the beginning and at the end the interval 6 pt.
6. Literature list: the title of each source isn't translated and is numbered in the article in correspondence with the usage sequence.
7. After the literature list, the title of the article, initials and authors' last names, their work places, the country, the city, e-mail, summary and key words are presented in two other languages.
8. In the article tables and drawings are numbered: the table – in the upper part of the table, italicized, in the center (for example: *table 1*), the drawing – below the center (for example: *drawing 1*) and missing one blank line of the text (of upper and lower parts).
9. The formulas are collected in standard parameters in Microsoft Equation. The number of the formula is written in brackets on the right-side. In the text only used formulas are numbered.
10. The articles given account of results of the investigations realized in the enterprises must have corresponding permission and publication.
11. The author is responsible for the information and facts, given in the text.
12. The editorship reserves the right to make editorial changes and abbreviations not distorting the main contents of the article.
13. In case of article deflection the editorship informs the author about the decision of the editorial board.
14. The articles, not meeting the above mentioned requirements, aren't taken into consideration and are returned to their authors. The date of the manuscript accession is considered the day of getting the completed text.
15. Editorship address: **Sumqayit State University**

Üz qabığının dizaynı – *S.Şahverdiyeva*
Kompüter yığımı – *S.Şahverdiyeva*
Korrektorlar: *B.Eminli*
*N.İsgəndərova*
*Ə.Musayeva*
Texniki redaktor – *E.Həsrətova*

Yığılmağa verilmişdir: 10.03.2015- cü il
Çapa imzalanmışdır: 30.03.2015-cü il
Mətbəə kağızı, kağızın formatı: 70*108 ¼
Yüksək çap üsulu
Şərti çap vərəqi 6,312
Sifariş 92.
Tiraj 250 nüsxə.
Qiyməti müqavilə yolu ilə.
Sumqayıt Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Müxbir ünvan:**

Azərbaycan, 5008, Sumqayıt,
43-cü məhəllə
Tel: (0-12) 448-12-74
(0-18) 644-88-10
Faks: (0-18) 642-02-70
**Web: www.sdu.az**
**E-mail: sdu@sdu.az**